RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN



№ 215 (10235) 21 noyabr 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

Vyetnam Azərbaycanla ənənəvi dostluq əlaqələrinə böyük önəm verir

Prezident İlham Əliyev Vyetnamda rəsmi səfərdədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Vyetnamın paytaxtı Hanoy şəhərində "İnqilab şəhidləri" abidəsini ziyarət edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev Hanoyda Vyetnam Sosialist Respublikasının qurucusu Ho Şi Minin məqbərəsini ziyarət edib.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikasının Baş naziri Le Minh Hunq ilə görüşü olub.

Prezident İlham Əliyev Hanoyda Vyetnam Sosialist Respublikasının Milli Assambleyasının Sədri Çan Tan Man ilə görüşüb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 20-də Vyetnam Sosialist Respublikasının Vitse-prezidenti Vo Ti An Suan ilə görüşüb.

2-3

Prezidentin sosial media hesablarında Vyetnama səfəri ilə bağlı daha bir videoçarx paylaşılıb



https://www.facebook.com/reel/1182565558062302

Cənubi Qafqazın ən böyük siyasi qüvvəsi

Yeni Azərbaycan Partiyasının yaradılması prosesində mühüm rol oynayan hadisələrdən biri 1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər tanınmış ziyalısının Heydər Əliyevə ünvanladığı müraciət olmuşdur. Azərbaycan tarixində "91-lər"in müraciəti kimi tanınan bu sənəd cəmiyyətdə mövcud olan siyasi gözləntilərin və yeni siyasi təşkilatın yaradılmasına olan ictimai tələbatdan irəli gəlirdi.

Müraciətdə Heydər Əliyevdən yeni yaradılacaq partiyaya rəhbərlik etməsi xahiş olunurdu. Ulu Öndərin müraciətə cavabında Yeni Azərbaycan Partiyasının yaradılmasını obyektiv zərurət kimi səciyyələndirməsi bu təşəbbüsün siyasi və tarixi əhəmiyyətini bir daha təsdiqlədi. Beləliklə, "91-lər"in müraciəti ölkənin siyasi həyatında yeni mərhələnin başlanğıcını qoyan mühüm ictimai-siyasi hadisəyə çevrildi.

1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən Yeni Azərbaycan Partiyasının təsis konfransı müstəqil Azərbaycanın siyasi tarixində əlamətdar hadisə oldu. Ölkənin müxtəlif regionlarını təmsil edən 550 nəfərlik təşəbbüs qrupunun iştirakı ilə keçirilən konfransda partiyanın yaradılması haqqında qərar qəbul edildi, Nizamnaməsi və proqramı təsdiqləndi. Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi, Siyasi Şura, İdarə Heyəti və sədr müavinləri müəyyənləşdirildi.

5

Neftverməni artırmaq üçün innovativ yanaşmalar və yeni texnologiyalardan istifadə olunur

Prezident İlham ƏLİYEV:

"Azəri-Çıraq-Günəşli"də obyektiv səbəblərə görə hasilatın düşmə templəri var. Çalışırıq ki, bu templəri sabitləşdirək"

Bu il sentyabrın 22-də "Azərbaycan Respublikasında 2027-2030-cu illərdə dağmədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı"na həsr olunmuş müşavirədə Prezident İlham Əliyev demişdir: "Əgər ölkə iqtisadiyyatının ümumi inkişafına baxsaq görərik ki, artım templəri çox da böyük deyil. Bunun təbii səbəbləri var, ilk növbədə, təbii neft hasilatının aşağı düşməsi. Bizim əsas neft yatağımız "Azəri-Çıraq-Günəşli" artıq 30 ilə yaxındır istismardadır və təbii ki, obyektiv səbəblərə görə hasilatın düşmə templəri də var. Çalışırıq ki, bu templəri sabitləşdirək. Eyni zamanda əminəm ki, yeni layihələr bundan sonra da Azərbaycanda neft hasilatını lazımi səviyyədə saxlayacaq və ümid edirəm, hətta artım da olacaq".

Dövlətimizin başçısı həmin məsələyə bundan əvvəl də dəfələrlə toxunub. Odur ki, AÇG-nin işlənməsi layihəsinin operatoru olaraq BP bu istiqamətdə SOCAR-la sıx əməkdaşlıq edir. Birgə səylər nəticəsində



AÇG-də hasilatın illik azalma tempini 2023-cü ildəki təxminən 12 faizdən hazırda təxminən 3 faizə endirmək mümkün olub. Bu da sənaye üzrə orta göstəricidən əhəmiyyətli dərəcədə aşağıdır. Belə bir nəticə yetkin mərhələdə olan blokdan hasilatın uzunmüddətli davamlılığının təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlərin səmərəsini göstərir.

8

Ermənistanın cavab verməli olduğu insan taleləri



Azərbaycanın həyata keçirdiyi axtarış və identifikasiya tədbirləri nəticəsində indiyədək 328 nəfərin şəxsiyyəti müəyyənləşdirilib. İşğaldan azad olunmuş ərazilərdə 32 kütləvi məzarlığın aşkarlanması isə problemin daha bir ağır tərəfini üzə çıxarıb. Hər bir məzarlığın araşdırılması insanların ölüm şəraitinin, mümkün zorakılıq hallarının və müharibə dövründə baş vermiş hadisələrin aydınlaşdırılması baxımından da əhəmiyyətlidir.

İtkin düşmüş şəxslər məsələsi Azərbaycanla Ermənistan arasında formalaşan sülh gündəliyinin də mühüm istiqamətlərindən biridir. 2025-ci il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidentinin iştirakı ilə Azərbaycan və Ermənistan liderləri arasında Birgə Bəyannamə imzalanıb, iki dövlət arasında sülh sazişinin razılaşdırılmış mətni paraflanıb. Həmin sənədin 9-cu maddəsində silahlı münaqişələr zamanı itkin düşmüş şəxslərin və məcburi yoxaçıxma hallarının araşdırılması üzrə əməkdaşlıq nəzərdə tutulur. Maddə tərəflərin mövcud məlumatları bölüşməsini, itkinlərin taleyini müəyyənləşdirmək üçün birgə fəaliyyət göstərməsini, zəruri hallarda insan qalıqlarının axtarılması və geri qaytarılmasını, eləcə də müvafiq araşdırmaların aparılmasını əhatə edir.

Dayanıqlı sülh yalnız siyasi razılaşmalarla deyil, münaqişənin insan taleləri ilə bağlı ağır nəticələrin aradan qaldırılması ilə də bağlıdır. İtkinlərin taleyinin müəyyənləşdirilməsi istiqamətində səmərəli əməkdaşlıq həm humanitar ədalətin təmin olunmasına, həm də cəmiyyətlər arasında qarşılıqlı etimadın formalaşmasına xidmət edə bilər.

6

Azərbaycan daha bir beynəlxalq qiymətləndirmədə önə çıxıb



Azərbaycanda indiyədək görülən işlər ölkəmizin bu sahədə yüksək reytinqə malik olmasını təmin edib. Dünyanın nüfuzlu qurumları tərəfindən aparılan qiymətləndirməyə görə, Azərbaycan mümkün 30 baldan 24-nü toplayıb. Ölkəmiz hüquqi baza, tətbiq modeli və vergi inzibatçılığına inteqrasiya üzrə maksimum 5, strukturlaşdırılmış məlumat formatları üzrə 4, beynəlxalq uyğunluq üzrə 3, rəqəmsal ticarət sistemlərinə inteqrasiya üzrə 2 bal əldə edib.

8

◆ Prezident İlham Əliyevin Vyetnama rəsmi səfəri

Vyetnam Azərbaycanla ənənəvi dostluq əlaqələrinə böyük önəm verir

Hanoyda "İnqilab şəhidləri" abidəsini ziyarət







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Vyetnamın paytaxtı Hanoy şəhərində "İnqilab şəhidləri" abidəsini ziyarət edib.

AZƏRTAC xəbər verir ki, abidənin qarşısında fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.

Prezident İlham Əliyev Hanoyda Ho Şi Minin məqbərəsini ziyarət edib







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Hanoyda Vyetnam Sosialist Respublikasının qurucusu Ho Şi Minin məqbərəsini ziyarət edib. AZƏRTAC xəbər verir ki, məqbərənin qarşısında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev Ho Şi Minin xatirəsinə ehtiramını bildirib, məqbərənin önünə əklil qoyub.

Azərbaycan Prezidenti İlham Əliyevin Vyetnamın Baş naziri ilə görüşü olub

Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikasının Baş naziri Le Minh Hunq ilə görüşü olub.





AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Baş nazir **Le Minh HUNQ** dedi:

- Vyetnama rəsmi səfəriniz münasibətilə zati-alilərı Prezidentə və Azərbaycan Respublikasının yüksəksəviyyəli nümayəndə heyətinə Vyetnam Hökuməti adından ən səmimi təbriklərimi çatdırmaq və sizi salamlamaq mənim üçün böyük şərəfdir.

Biz hər zaman Azərbaycanda baş verən prosesləri yaxından izləmişik və Sizin rəhbərliyinizlə Azərbaycanın sosial-iqtisadi sahədə əldə etdiyi böyük nailiyyətlər münasibətilə zati-alinizi səmimi-qəlbdən təbrik edirik. İqtisadi inkişafa gəlincə bildirməliyəm ki, 1959-cu ilin iyulunda Prezident Ho Şi Minin Azərbaycana səfəri xalqlarımız arasında dostluq və əməkdaşlıq ənənəsinin təməlini qoyub.

Vyetnam Hökuməti və xalqı milli azadlıq və milli birləşmə uğrunda mübarizəmiz dövründə Azərbaycan xalqının Vyetnama göstərdiyi dəyərli dəstək və yardıma hər zaman yüksək qiymət verib. Biz səmimi-qəlbdən ümidvarıq ki, Azərbaycan bu yeni inkişaf dövründə Vyetnama dəstəyi davam etdirəcək. 2025-ci ilin mayında baş katib, Prezident To Lamın Azərbaycana tarixi dövlət səfəri və ikitərəfli əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi əməkdaşlığımızın yeni zirvələrə çatması və daha əhəmiyyətli, səmərəli olması üçün bir sıra imkanlar yaratdı.

İki ölkənin hökumətləri nazirliklərə və dövlət qurumlarına liderlərimizin əldə etdiyi razılaşmaları və öhdəlikləri fəal şəkildə, yüksək səviyyədə həyata keçirmək üçün tapşırıqlar verib. Məmnunluq hissi ilə bildirirəm ki, artıq ilkin müsbət nəticə əldə olunub.

Zati-aliləri, siyasi və diplomatik əməkdaşlığa gəlincə, biz 2025-ci ilin iyulunda Hanoyda iqtisadi-ticari, elmi və texniki əməkdaşlıq üzrə Vyetnam-Azərbaycan Hökumətlərarası Komissiyanın üçüncü görüşünü, həmçinin birgə Biznes Şurasının birinci görüşünü uğurla keçirdik. Baxmayaraq ikitərəfli ticarət hələ ki, nisbətən aşağı səviyyədədir və sabit artım trayektoriyasına çatmayıb, lakin inkişafa dair ümidverici əlamətlər var.

Hər iki ölkənin bərpaolunan enerji - külək, günəş enerjisi, ticarət, daşınmaz əmlak və turizm şirkətləri fəaliyyətə başlayıb. Hökumətlərimiz müdafiə, təhlükəsizlik, enerji kimi sahələrdə bütün potensial imkanlarımızı konkret nəticələrə çevirmək, xalqlarımız üçün praktiki faydaları təmin etmək məqsədilə hər zaman çiyin-çiyinə çalışır.

Zati-aliləri, indi isə Sizin fikirlərinizi eşitmək istərdim. Təşəkkür edirəm.

❖ ❖ ❖

Sonra çıxış edən **Prezident İlham ƏLİYEV** dedi:

- Təşəkkür edirəm. Gözəl ölkənizdə olmağa çox şadam. Mənim ölkənizə sonuncu səfərimdən 10 ildən artıq vaxt keçib və mən bir çox dəyişikliklərin şahidiyəm. Ölkənizin sosial və iqtisadi inkişafında bütün nailiyyətlər, həmçinin beynəlxalq arenada böyük uğurlarınız münasibətilə Sizi təbrik edirəm.

Qeyd etdiyiniz kimi, çox şadıq ki, münasibətlərimiz strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Cənab Prezidentin keçənilki səfəri bizim əlaqələrimizin inkişafı baxımından həlledici olmuşdur. O, məni nəzakətlə ölkəsinə dəvət etdi və mən də dəvəti böyük məmnuniyyət hissi ilə qəbul etdim və bir ildən sonra ölkənizdə səfərdəyəm.

Siz ikitərəfli gündəliyimizin çox önəmli məsələlərinə toxundunuz. Münasibətlərimizin tarixi boyunca ölkələrimiz arasında yüksəksəviyyəli həmrəylik və dostluq mövcud olub. Siz Vyetnam Prezidentinin 1959-cu ildə Azərbaycana səfərini qeyd etdiniz. Prezident Ho Şi Min əziz qonaq kimi qarşılanmışdı. Azərbaycan xalqı sizin müstəqillik və azadlıq uğrunda mübarizənizi, xalqınızın işğal dövründə göstərdiyi qəhrəmanlığı qətiyyətlə dəstəkləyib. 2020-ci ildə ərazimizin işğaldan azad edilməsi uğrunda müharibə zamanı biz Vyetnam xalqı və hökuməti tərəfindən eyni həmrəyliyi gördük, siz bizə güclü dəstək göstərdiniz, o cümlədən BMT Təhlükəsizlik Şurasında.

Sosial-iqtisadi sahəyə gəlincə, müsbət dinamika müşahidə edirik. Lakin əlbəttə, əldə olunan nəticələrlə kifayətlənə bilmərik. Buna baxmayaraq, Sizin qeyd etdiyiniz kimi, hazırda üzərində iş gedən çoxlu önəmli layihələrimiz var, o cümlədən enerji təhlükəsizliyi və daşınmaz əmlak sahələrində.

❖ ❖ ❖

Dövlətimizin başçısı Azərbaycan-Vyetnam əlaqələrinin tarixinə toxundu. Azərbaycan Prezidenti bu xüsusda qeyd etdi ki, Ulu Öndər Heydər Əliyevin Vyetnama, Vyetnam Sosialist Respublikasının qurucusu Ho Şi Minin isə Azərbaycana səfərləri ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayıb.

Beynəlxalq təşkilatlar çərçivəsində uğurlu qarşılıqlı fəaliyyətin həyata keçirildiyini deyən Prezident İlham Əliyev bu xüsusda Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə, həmçinin Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) çərçivəsində ölkələrimiz arasında əməkdaşlığı vurğuladı.

Prezident İlham Əliyev 2026-cı ilin oktyabrında Vyetnamın Vitse-prezidenti Vo Thi An Suanın AQEM-in Bakıda keçirilən Zirvə görüşündə iştirak etmək üçün ölkəmizə səfərini xatırladaraq, onunla apardığı müzakirələrin əhəmiyyətini qeyd etdi.

Baş nazir Le Minh Hunq Azərbaycanda tezliklə Vyetnamın səfirliyinin açılacağını bildirdi.

Dövlətimizin başçısı Vyetnamın bu addımını yüksək qiymətləndirdi. Azərbaycanın Vyetnamda səfirliyinin uzun müddətdir fəaliyyət göstərdiyini deyən Prezident İlham Əliyev qeyd etdi ki, diplomatik nümayəndəliklərin tam fəaliyyəti ikitərəfli əlaqələrin inkişafına ciddi təkan verəcək.

Baş nazir Le Minh Hunq vyetnamlı mütəxəssislərin Azərbaycanda neft sahəsində təhsil aldıqlarını xatırlatdı, həmin şəxslərin bu gün də Vyetnamın inkişafında mühüm rol oynadıqlarını dedi.

Söhbət zamanı enerji sahəsində əməkdaşlığa toxunuldu, xüsusilə Azərbaycanın neft məhsullarının Vyetnama və Vyetnam ərazisindən region ölkələrinə ixrac imkanları, birgə istehsal sahələri ilə bağlı məsələlər müzakirə olundu.

Baş nazir Azərbaycanın regionda önəmli mövqeyə malik ölkə olduğunu vurğuladı. Bu xüsusda Vyetnamın Azərbaycanın dəstəyi ilə region ölkələri ilə əməkdaşlığının inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparıldı.

Görüşdə müdafiə sənayesi sahəsində əməkdaşlıq məsələlərinə toxunuldu, Azərbaycan bazarının Vyetnam biznes nümayəndələri üçün cəlbediciliyi və onların burada iştirakda maraqlı olmaları qeyd edildi, tikinti, turizm istiqamətləri üzrə əməkdaşlıq, ölkələrimiz arasında birbaşa aviareyslərin açılması məsələləri müzakirə olundu.

Dövlətimizin başçısı Orta dəhlizin Vyetnam şirkətlərinin region bazarlarına çıxışı üçün əlverişli imkanlar yaratdığını bildirdi. Bu xüsusda Azərbaycanın Vyetnamla əməkdaşlığa hazır olduğu vurğulandı.

Le Minh Hunq azərbaycanlı həmkarını Vyetnama rəsmi səfərə dəvət etdi.

◆ Prezident İlham Əliyevin Vyetnama rəsmi səfəri

Vyetnam Azərbaycanla ənənəvi dostluq əlaqələrinə böyük önəm verir

Azərbaycan Prezidenti İlham Əliyev Hanoyda Vyetnam Milli Assambleyasının Sədri ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Hanoyda Vyetnam Sosialist Respublikasının Milli Assambleyasının Sədri Çan Tan Man ilə görüşüb.







AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Milli Assambleyanın Sədri **Çan Tan Man** dedi:

-Sosial və iqtisadi sahələrdə qazandığınız mühüm nailiyyətlər Azərbaycanın regionda və dünyada nüfuzunun artmasına kömək etmişdir. Biz hər zaman Azərbaycanla ənənəvi dostluq əlaqələrinə böyük önəm veririk. Məmnunluq hissi ilə qeyd edirəm ki, münasibətlərimiz bütün sahələrdə çox yaxşı irəliləyir. Bütün səviyyələrdə nümayəndə heyətləri arasında mübadilələr aparılıb və beynəlxalq arenada səmərəli əlaqələndirmə həyata keçirilib, müdafiə və təhlükəsizlik, iqtisadiyyat və ticarət, energetika, neft və qaz sahələrində əməkdaşlığımız inkişaf edib, xalqlarımız arasında təmaslar fəallaşıb.

Parlamentlərimiz arasında əməkdaşlıq da mühüm rol oynayır. Vyetnamın Milli Assambleyası və Azərbaycanın Milli Məclisi birlikdə sıx çalışıblar və beynəlxalq forumlarda bir-birinə dəstək göstəriblər. Ötən il İsveçrədə parlament sədrlərinin toplantısında mən Milli Məclisin Sədri Sahibə Qafarova ilə görüş keçirdim. Arzu edirəm ki, strateji tərəfdaşlığımıza daha çox töhfə vermək üçün iki ölkənin parlamentləri əməkdaşlığını davam etdirsin. Baş nazirimizlə keçirdiyiniz çox məhsuldar görüş münasibətilə Sizi təbrik edirəm. Bildiyimə görə, Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi və Vyetnam Sosialist Respublikasının Prezidenti To Lamın sabah Sizinlə rəsmi görüşü olacaq.

Buyurun, söz Sizindir.

❖ ❖ ❖

Sonra çıxış edən **Prezident İlham Əliyev** dedi:

-Təşəkkür edirəm, cənab Milli Assambleyanın Sədri. Əziz dostlar, qonaqpərvərliyiniz üçün təşəkkür edirəm. Sizin gözəl ölkənizi ziyarət etməyə çox şadam. Sizin də qeyd etdiyiniz kimi, Vyetnam və Azərbaycan artıq strateji tərəfdaşlardır. Bu, hökumətlərarası münasibətlərin çox yüksək səviyyəsini nümayiş etdirir.

Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi və Prezidentinin ötən il Azərbaycana dövlət səfəri ilə bağlı mənim xoş xatirələrim var. O, məni ölkənizə dəvət etdi və mən yenidən buraya səfər etməyimə şadam. Mən on ildən artıq müddət əvvəl Vyetnamı ziyarət etmişdim və bir çox dəyişiklikləri görürəm. Ölkənizin inkişafında bütün nailiyyətlər münasibətilə Sizi təbrik etmək istəyirəm.

❖ ❖ ❖

Dövlətimizin başçısı özünün 2014-cü ildə Vyetnama səfərini məmnunluqla xatırladı.

Prezident İlham Əliyev ölkələrimizin parlamentləri arasında dialoqun həmişə çox müsbət və nəticəyönümlü olduğunu vurğulayaraq, Azərbaycan Milli Məclisi və Vyetnam Milli Assambleyası sədrlərinin görüşünün parlamentlərarası əməkdaşlığın genişləndirilməsi baxımından rolunu qeyd etdi.

Qoşulmama Hərəkatının parlamentlərarası platformasının Azərbaycanın təşəbbüsü ilə yaradıldığını xatırladan dövlətimizin başçısı bu xüsusda iki ölkənin parlament strukturları arasında əməkdaşlığı vurğuladı.

Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında tərəfdaşlıq münasibətlərinin qurulduğunu qeyd etdi.

Azərbaycanın Orta dəhlizin həm vaxt, həm də təhlükəsizlik baxımından beynəlxalq daşımalarda mühüm tranzit marşrutu olduğunu deyən dövlətimizin başçısı bunun Vyetnam şirkətlərinə də daşımalar üçün əlverişli imkanlar yaratdığını bildirdi.

Çan Tan Man ötən il Vyetnam Sosialist Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın ölkəmizə səfəri və səfər çərçivəsində qəbul edilmiş "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat"ın önəminə toxundu.

Milli Assambleyanın Sədri ölkələrimizin çoxtərəfli platformalarda yaxından əməkdaşlıq etdiyini deyərək, Vyetnamın Azərbaycanla ASEAN arasında əməkdaşlığın inkişaf etdirilməsinə töhfə verməyə hazır olduğunu dedi.

Söhbət zamanı ölkələrimizin beynəlxalq təsisatlar, o cümlədən BMT, Qoşulmama Hərəkatı, AQEM çərçivəsində uğurlu əməkdaşlıq etdikləri vurğulandı.



Bəli, düz buyursunuz, mənim cənab baş nazirlə çox məhsuldar görüşüm oldu. Biz əsasən qarşılıqlı maraq doğuran bir sıra məsələləri müzakirə etdik. Dünyada hazırkı geosiyasi vəziyyəti nəzərə alsaq, qeyd etdiyiniz sahələr xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın ixrac etdiyi enerji resurslarının tədarük zənciri olduqca etibarlıdır. Azərbaycan müxtəlif qitələrdə yerləşən bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Hesab edirəm ki, ikitərəfli münasibətlərimizin önəmli nailiyyətlərindən biri də bizim enerji sahəsində əməkdaşlığın davam etdirilməsi üzrə aydın baxışa və çərçivəyə malik olmağımızdır. Həmişə qeyd etdiyimiz kimi, enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizliyinin tərkib hissəsidir.

Görüşdə ölkələrimiz arasında müxtəlif səviyyələrdə nümayəndə heyətlərinin müntəzəm səfərlərinin təşkili, iqtisadiyyat, ticarət, enerji, o cümlədən bərpaolunan enerji, insanlararası təmaslar, humanitar və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Birinci vitse-prezident Mehriban Əliyeva Vyetnamın Vitse-prezidenti ilə görüşüb

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 20-də Vyetnam Sosialist Respublikasının Vitse-prezidenti Vo Ti An Suan ilə görüşüb.







AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında münasibətlərin iki xalqın bir neçə onillik tarixi olan dostluğuna əsaslanaraq inkişaf etdiyi vurğulanıb.

Qeyd edilib ki, Azərbaycanın və Vyetnamın dövlət başçılarının qarşılıqlı səfərləri müxtəlif sahələrdə əməkdaşlığın dərinləşməsinə, ölkələrimiz arasında siyasi etimadın güclənməsinə səbəb olub. Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın ötən il Azərbaycana səfəri zamanı iki ölkə arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatın qəbul olunmasının Azərbaycan-Vyetnam əlaqələrini yeni səviyyəyə yüksəltdiyi bildirilib.

Vyetnamın Vitse-prezidenti Vo Ti An Suan Azərbaycana səfərlərini, o cümlədən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Bakıda keçirilən Zirvə görüşündə iştirak üçün oktyabrda Bakıya səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə görüşünü məmnunluqla xatırlayıb.

Görüşdə xalqlar arasında əlaqələrin, o cümlədən qeyri-hökumət səviyyəsində əməkdaşlığın vacibliyi diqqətə çatdırılıb. Bu xüsusda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ötən il Vyetnama səfəri zamanı Hanoy Ticarət və Turizm Kollecinə, görmə qabiliyyəti məhdud uşaqlar üçün orta məktəbə göstərilən yardımın iki xalq arasında dostluğun bariz nümunəsi olduğu vurğulanıb.

Görüşdən sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya, qızları Leyla Əliyevaya və Arzu Əliyevaya ənənəvi Vyetnam qəhvəsinin hazırlanma üsulu nümayiş olundu.

Vyetnam mediası Azərbaycan Prezidentinin bu ölkəyə səfərini diqqət mərkəzində saxlamaqdadır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikasına rəsmi səfəri bu ölkənin aparıcı dövlət informasiya agentliklərinin, partiya nəşrlərinin, teleradio şirkətlərinin və xəbər portallarının diqqət mərkəzində qalmaqdadır.

AZƏRTAC xəbər verir ki, portallar dövlətimizin başçısının Vyetnamın rəhbər şəxsləri ilə danışıqları, görüşləri, eləcə də ikitərəfli strateji tərəfdaşlığın dərinləşdirilməsi perspektivləri ilə bağlı çoxsaylı məlumatlar yayırlar.

Mərkəzi partiya qəzeti **"Nyan Zan"**, Vyetnam Kommunist Partiyasının elektron portalı **"dangcongsan.vn"**, parlamentin rəsmi nəşri **"Xalq nümayəndələri"**, **"Vyetnamın səsi"** radiostansiyası, **Vyetnam İnformasiya Agentliyi, "Vietnam.vn"** portalı və **"Bao Moi"** xəbər aqreqatoru Prezident İlham Əliyevin Hanoyda parlament binasında Vyetnam Milli Assambleyasının sədri Çan Tan Man ilə görüşü barədə geniş xəbərlər və fotoreportajlar dərc ediblər. Materiallarda iki dövlət arasında ənənəvi dostluq əlaqələrinin möhkəmləndirilməsi üçün parlamentlərarası dialoqun əhəmiyyəti vurğulanır.

"Nhan Dan", **VOV**, **"VietnamPlus"**, **"Bao Tin tuc va Dan toc"**, Vyetnam İnformasiya Agentliyinin ingilisdilli vnanet.vn resursu, **"Vietnam.vn"** və **"Bao Moi"** Azərbaycan Prezidentinin Vyetnamın Baş naziri Le Minh Hunq ilə danışıqlarına da geniş diqqət ayırıblar. Media resursları görüşdən fotomateriallar təqdim edib, müzakirə olunan məsələlərlə bağlı təhlillər hazırlayıb, tərəflərin iqtisadi-ticari və investisiya sahələrində praktiki əməkdaşlığı genişləndirmək niyyətində olmaqları ilə bağlı fikirlərini oxucuların diqqətinə çatdırıblar.

İnformasiya resurslarının xəbər lentində dövlətimizin başçısının paytaxt Hanoyda "İnqilab şəhidləri" abidəsinin önünə əklil qoyması mərasimi, həmçinin Vyetnam Sosialist Respublikasının qurucusu Ho Şi Minin məqbərəsini ziyarət etməsi barədə xüsusi reportajlar da yer alıb.

Vyetnam mətbuatında səfərlə əlaqədar ikitərəfli münasibətlərin tarixinə və gələcəyinə həsr olunmuş analitik və icmal xarakterli məqalələr də dərc edilib. Belə ki, **"PetroTimes"** nəşrində yayımlanan "Bakı-Hanoy: 67 illik vahid enerji mənbəyi" sərlövhəli məqalədə Azərbaycan və Vyetnam arasında neft-qaz və energetika sahələrində uzunillik əməkdaşlığın tarixi nəzərdən keçirilir. Eyni zamanda ingilisdilli **"Vietnam Law & Legal Forum"** jurnalı "Vyetnam və Azərbaycan strateji tərəfdaşlığı məzmunlu şəkildə inkişaf etdirmək niyyətindədir" başlıqlı materialında iki ölkə arasındakı siyasi dialoqun və strateji tərəfdaşlığın konkret layihələrlə zənginləşdirilməsi istiqamətində atılan addımları təhlil edir. Yazıda diplomatik əlaqələrin 1992-ci ilin sentyabrında qurulmasından bəri əməkdaşlığın müxtəlif istiqamətlərdə genişləndiyi, ticarət dövriyyəsinin 2025-ci ildə təxminən 150 milyon ABŞ dollarına çatdığı vurğulanır. Materialda, həmçinin Vyetnamın ölkəmizdəki səfiri Danq Min Xoyun fikirlərinə istinadla Azərbaycanın Cənubi Qafqaz, Mərkəzi Asiya və Avropa bazarlarına, Vyetnamın isə ASEAN bazarına çıxış baxımından mühüm logistika və ticarət qapısı rolu oynaya biləcəkləri, eləcə də nəqliyyat-logistika, rəqəmsal transformasiya, yüksəktexnologiyalı kənd təsərrüfatı və təhsil sahələrində yeni imkanların mövcud olduğu bildirilir.

Qeyd edək ki, Vyetnamın media resursları Prezident İlham Əliyevin bu ölkəyə rəsmi səfərinə dair silsilə materiallar hazırlamaqda davam edir.

Baş nazir Əli Əsədov İrakli Kobaxidzeyə başsağlığı verib



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 20-də Gürcüstanın Baş naziri İrakli Kobaxidzeyə başsağlığı məktubu ünvanlayıb.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

Əli Əsədov Tbilisi şəhərində yaşayış binasında baş vermiş partlayış nəticəsində insan tələfatı və yaralananlar barədə xəbəri dərin kədər hissi ilə qarşıladığını bildirib, Gürcüstanın Baş nazirinə, həmçinin həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verib.

Milli Məclisin Sədri Sahibə Qafarova Türkmənistanda MDB PA-nın 61-ci plenar iclasında çıxış edib





Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 20-də Türkmənistanda MDB Parlamentlərarası Assambleyasının 61-ci plenar iclasında çıxış edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker əvvəlcə Türkmənistan Məclisini MDB Parlamentlərarası Assambleyasında müşahidəçi statusu alması münasibətilə təbrik edib.

Çıxışında Milli Məclisin Sədri assambleyanı açıq dialoq platforması kimi xarakterizə edərək, bu çərçivədə qarşılıqlı maraq doğuran məsələlərin müzakirə oluna biləcəyini və dövlətlərin milli prioritetlərini nəzərə alaraq razılaşdırılmış yanaşmalar tapıla biləcəyini qeyd edib.

Spiker Sahibə Qafarova Azərbaycan Milli Məclisinin MDB Parlamentlərarası Assambleyası çərçivəsində əməkdaşlığa əhəmiyyət verdiyini, parlament əlaqələrinin genişləndirilməsinə və ölkələrimiz arasında çoxtərəfli qarşılıqlı fəaliyyətin daha da inkişafına yönəlmiş təşəbbüsləri dəstəklədiyini bildirib. Qeyd olunub ki, humanitar sahədə əməkdaşlıq əhəmiyyətli istiqamətlərdən biridir və Azərbaycan MDB məkanında xalqlar arasında dostluq və qarşılıqlı anlaşma ənənələrinin qorunmasına kömək edən mədəni və humanitar mübadilələrin genişləndirilməsinin tərəfdarıdır.

Spiker MDB çərçivəsində Azərbaycanda keçirilmiş tədbirlərdən danışaraq, 2025-ci ilin iyun ayında Azərbaycanın Şərqi Zəngəzur regionunun Laçın şəhərində MDB Mədəniyyət Paytaxtı ilinin təntənəli açılış mərasimi zamanı genişmiqyaslı tədbirlərin təşkil edildiyini, həmin ilin sentyabr-oktyabr aylarında ölkəmizin yeddi şəhərində 13 dövlətdən 1600-dən çox idmançının iştirak etdiyi III MDB Oyunlarının keçirildiyini qeyd edib. O, MDB PA çərçivəsində həyata keçirilən "MDB uşaqları" və "Yaddaş qatarı" kimi humanitar layihələri də xatırladaraq bildirib ki, bu layihələr gənc nəslə xalqlarımızın tarixi və mədəni irsi ilə daha yaxından tanış olmaq, yeni dostluq əlaqələri qurmaq imkanı verir. Qeyd olunub ki, MDB Parlamentlərarası Assambleyası çərçivəsində əməkdaşlığın mühüm istiqaməti seçkilərin müşahidəsi və parlamentarizmin inkişafı məsələləri olaraq qalır. Azərbaycan nümayəndələri MDB PA-nın monitorinq fəaliyyətində müntəmadi olaraq iştirak edirlər. Spiker cari ilin ikinci yarısında Milli Məclisin deputatlarının Qazaxıstan Respublikası Qurultayının birinci çağırış deputatlarının və Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının doqquzuncu çağırış deputatlarının seçilməsi üzrə müşahidə missiyalarında fəal iştirak etdiklərini diqqətə çatdırıb.

Sahibə Qafarova bu kontekstdə MDB PA-nın iştirakçısı olan dövlətlərdə demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi Beynəlxalq İnstitutunun Bakı filialının fəaliyyətindən də söz açaraq filialın gördüyü işlərin və təşkil etdiyi təbdirlərin əhəmiyyətindən danışıb.

Çıxışına yekun vuran Milli Məclisin Sədri assambleya çərçivəsində formalaşmış konstruktiv qarşılıqlı fəaliyyət ənənələrinin və toplanmış təcrübənin bundan sonra da parlamentlərarası əlaqələrin möhkəmləndirilməsinə və dövlətlər arasında münasibətlərin inkişafına kömək edəcəyinə əminliyini bildirib.

"Azərbaycan"

2027-ci ilin büdcə zərfinə daxil olan sənədlər ikinci oxunuşda müzakirə olunub

Noyabrın 20-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin videokonfrans formatında iclası keçirilib. İclasda 2027-ci ilin büdcə zərfinə daxil olan 6 qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarılıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə iclasda "Dövlət sosial müdafiə fondunun 2027-ci il büdcəsi haqqında" qanun layihəsinə baxılıb.

Komitənin sədri Musa Quliyev bildirib ki, 2027-ci il üzrə Dövlət Sosial Müdafiə Fondunun büdcəsi sosial ədalət və sosial rifah prinsipləri rəhbər tutularaq tərtib edilib. Fondun növbəti il üçün gəlirləri 9 milyard 221 milyon manat, xərcləri isə 9 milyard 273 milyon manat proqnozlaşdırılır.

Sənədə əsasən, əmək pensiyalarının orta aylıq məbləğinin 2027-ci ildə 640 manat olacağı gözlənilir. Həmçinin növbəti ildə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına görə, 3 yaşına çatanadək uşaqlara qulluğa görə və dəfn üçün müavinətlərin maliyyələşdirilməsinə müvafiq ayırmalar nəzərdə tutulub.

Sonra Musa Quliyev "İşsizlikdən sığorta fondunun 2027-ci il büdcəsi haqqında" qanun layihəsi barədə məlumat verib. Diqqətə çatdırılıb ki, 2027-ci ildə İşsizlikdən Sığorta Fondunun (İSF) gəlirləri 269 milyon manat, fondun əvvəlki illərdə istifadə olunmamış vəsaitindən 2027-ci ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən vəsaitin həcmi isə 50 milyon manat nəzərdə tutulub. Gələn il işsizlikdən sığorta haqları üzrə yığımların 267 milyon manat təşkil edəcəyi proqnozlaşdırılır.

2027-ci ildə İSF-in xərcləri isə 319 milyon manat həcmində proqnozlaşdırılır. Fondun xərclərinin 36 milyon manatı işsizliyə görə sığorta ödənişlərinə, 113 milyon manatı özünüməşğulluq tədbirlərinin maliyyələşməsinə yönəldiləcək. Gələn il 14500 nəfərin özünüməşğulluq proqramına cəlb olunacağı nəzərdə tutulur.

İclasda "Azərbaycan Respublikasında 2027-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsi ilə bağlı qeyd edilib ki, növbəti il üçün yaşayış minimumu ölkə üzrə 314 manat, əmək qabiliyyətli əhali üçün 334 manat, pensiyaçılar üçün 258 manat, uşaqlar üçün 274 manat məbləğində müəyyən edilib.

"Azərbaycan Respublikasında 2027-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsinə dair isə bildirilib ki, ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2027-ci il üçün ehtiyac meyarının həddi 314 manat məbləğində nəzərdə tutulub.

Sonra Əmək Məcəlləsində, Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində, Mülki Məcəllədə, Seçki Məcəlləsində, Rəqabət Məcəlləsində, "Hərbi qulluqçuların statusu haqqında", "Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Yaşayış minimumu haqqında", "Sosial müavinətlər haqqında", "Təhsil haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Məktəbəqədər təhsil haqqında", "İşsizlikdən sığorta haqqında", "Ümumi təhsil haqqında", "Siyasi partiyalar haqqında", "Diplomatik xidmət haqqında" və "Xüsusi icra məmurları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi təqdim olunub.

Komitə sədri diqqətə çatdırıb ki, sənəddə əmək münasibətlərinin təkmilləşdirilməsi, əməkhaqqı sisteminin çevikliyinin artırılması və işçilər üçün minimum əməkhaqqı təminatlarının gücləndirilməsi məqsədilə minimum saatlıq əməkhaqqı ilə bağlı yeni normalar təsbit edilir. Layihəyə əsasən, işçilərə ödənilən əməkhaqqı və digər ödənişlərin elektron ödəniş sistemi vasitəsilə işçinin seçimi əsasında müəyyən olunan bank hesabına köçürülməsi nəzərdə tutulur. Dəyişikliklərdə həmçinin uşağa qulluğa görə müavinətin təyin edilməsi üçün ən azı 6 ay sosial sığorta stajı tələbi müəyyən edilir. Layihədə, habelə əmək məzuniyyətinin və ya onun bir hissəsinin başqa vaxta keçirilməsi halları dəqiq təsbit olunur.


Daha sonra bir sıra qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi nəzərdən keçirilib. Bildirilib ki, layihəyə əsasən, "Dövlət rüsumu haqqında" qanundan başqa digər normativ hüquqi aktlarda dövlət rüsumundan azadolma və güzəştlərlə bağlı müddəaların aradan qaldırılması təklif olunur. Bununla yanaşı, sənəddə düzgün tutulmamış və ya artıq ödənilmiş dövlət rüsumunun qaytarılmasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın informasiya sistemi vasitəsilə həyata keçirilməsi ilə bağlı müvafiq dəyişikliklər nəzərdə tutulur. Habelə baytarlıq şəhadətnaməsinə görə təsbit olunan dövlət rüsumunun ləğv edilməsi, baytarlıq pasportunun verilməsi üçün dövlət rüsumunun məbləği müəyyən edilir.

İclasda çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev təqdim olunan məsələlər barədə fikirlərini açıqlayıb. O, müasir dövrdə məşğulluq imkanlarının genişləndirilməsindən və vətəndaşların əmək və sosial təminat hüquqlarının daha etibarlı qorunmasının vacibliyindən danışıb. Bildirib ki, layihələrdə təklif olunan dəyişikliklərin əsas məqsədi işçilərin əməyinin dəyərinin və sosial müdafiəsinin dayanıqlığının qorunması, Azərbaycanın beynəlxalq öhdəliklərinin yerinə yetirilməsinin təmin edilməsi, beynəlxalq reytinqlərdə ölkəmizin öz mövqeyinin gücləndirilməsidir.

Təqdim olunan sənədlər ətrafında aparılan müzakirələrdə komitənin üzvləri Soltan Məmmədov, Göydəniz Qəhrəmanov, Ziyad Səmədzadə, Jalə Əliyeva çıxış edərək qeyd və təkliflərini səsləndiriblər. Deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirilib.

Onlayn iclasda müzakirə olunan 6 qanun layihəsinin hər biri ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

"Azərbaycan"



MDB PA dövlətlərarası qarşılıqlı fəaliyyət üçün səmərəli iş aparır









MDB Parlamentlərarası Assambleyasının Şura və 61-ci plenar iclasında iştirak edən parlament sədrləri türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovla görüşüblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova da iştirak edib.

Görüş zamanı beynəlxalq parlament təşkilatlarının üzv ölkələr arasında əməkdaşlığın daha da dərinləşdirilməsi, o cümlədən qanunvericilik sahəsində əlaqələrin genişləndirilməsi baxımından mühüm əhəmiyyəti qeyd olunub.

Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov MDB Parlamentlərarası Assambleyasının müsbət fəaliyyətini qeyd edib.

Həmçinin MDB Parlamentlərarası Assambleyasının uzun illərdir dövlətlərarası qarşılıqlı fəaliyyət üçün möhkəm qanunvericilik bazasının formalaşdırılması istiqamətində səmərəli iş apardığı vurğulanıb.

Qurbanqulu Berdiməhəmmədov parlament sədrlərinə Türkmənistanın təşkilata üzv dövlətlərlə uzun illər ərzində formalaşmış mütərəqqi münasibətlərini və həyata keçirilən birgə layihələri diqqətə çatdıraraq, bundan sonra da bu istiqamətdə fəaliyyətini davam etdirmək niyyətində olduğunu vurğulayıb.

"Azərbaycan"

Baş prokuror paytaxtın Binəqədi rayonunda vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.



Noyabrın 20-də baş prokuror Kamran Əliyev Bakı şəhəri Binəqədi rayon prokurorluğunun inzibati binasında Binəqədi rayonundan olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 45 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

"Azərbaycan"

"Vyetnamlıların Azərbaycana marağı böyükdür"

"Azərbaycan və Vyetnam mədəniyyət, ədəbiyyat və təhsil sahələrində əməkdaşlığın inkişafı üçün böyük potensiala malikdir. Bu baxımdan akademik əlaqələrin genişləndirilməsi, hər iki ölkənin ədəbi irsinin tanıdılması və yazıçılar arasında əlaqələrin möhkəmləndirilməsi xüsusi əhəmiyyət daşıyır".

Bunu Hanoy Universitetinin müəllimi, ədəbiyyatşünas və tərcüməçi Nquyen Van Syen AZƏRTAC-a müsahibəsində deyib.

Onun sözlərinə görə, əməkdaşlığın perspektivli istiqamətlərindən biri Vyetnamda türkologiyanın inkişafıdır. Bu istiqamətdə Türkiyə, Qazaxıstan və Azərbaycanın səfirlikləri ilə Hanoy Universiteti arasında artıq əməkdaşlıq qurulub.

"Bir neçə görüş keçirilib və nəticə olaraq türkologiya sahəsində tədris proqramı hazırlanıb. Ümid edirəm ki, gələcəkdə nəzərdə tutduğumuz bütün planları həyata keçirə biləcəyik", - deyə müsahibimiz qeyd edib.

Ədəbi əlaqələrdən danışan Nquyen Van Syen Vyetnam Yazıçılar Assosiasiyası ilə Azərbaycan Yazıçılar Birliyi arasında əlaqələrin inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Onun sözlərinə görə, Azərbaycan səfirliyi ilə Vyetnamın yazıçılar təşkilatı arasında artıq yaxşı münasibətlər qurulub və rəhbərliklərlə görüşlər keçirilib.

Müsahibimiz bildirib ki, Bakıya səfəri zamanı Azərbaycan Yazıçılar Birliyinin sədri Anar Rzayevlə görüşüb. Görüşdə iki ölkənin ədəbiyyat nümayəndələri arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

Nquyen Van Syen Vyetnam ictimaiyyətinin Azərbaycana marağının artdığını da qeyd edib.

Yeni Azərbaycan Partiyasının yaranmasından 34 il keçir

Cənubi Qafqazın ən böyük siyasi qüvvəsi



Azərbaycanın müasir siyasi tarixində Yeni Azərbaycan Partiyasının (YAP) yaranması və inkişafı mühüm mərhələlərdən birini təşkil edir. 1992-ci il noyabrın 21-də ölkənin mürəkkəb ictimai-siyasi şəraitində təsis edilən partiya müstəqilliyin ilk illərində dövlətçilik maraqlarının qorunması, siyasi sabitliyin təmin edilməsi və milli birliyin möhkəmləndirilməsi zərurətindən meydana gəlmişdir. Yeni Azərbaycan Partiyasının formalaşması yalnız yeni siyasi təşkilatın yaradılması deyil, eyni zamanda ölkənin gələcək inkişaf istiqamətinin müəyyənləşdirilməsi baxımından tarixi əhəmiyyət daşıyan hadisə idi.

1990-cı illərin əvvəllərində Azərbaycanda hökm sürən siyasi qeyri-sabitlik, dövlət idarəçiliyindəki problemlər, iqtisadi çətinliklər və ölkənin üzləşdiyi təhlükələr cəmiyyətdə ciddi narahatlıq doğururdu. Belə bir şəraitdə ölkənin gələcəyinə məsuliyyətlə yanaşan ziyalılar və ictimai-siyasi xadimlər Azərbaycanın böhrandan çıxması, müstəqil dövlətçiliyin qorunması və inkişafın təmin edilməsi üçün yeni siyasi qüvvənin formalaşdırılmasını zəruri hesab edirdilər. Bu təşəbbüsün mərkəzində isə zəngin dövlətçilik təcrübəsinə, siyasi nüfuza və idarəçilik bacarığına malik Ümummilli Lider Heydər Əliyevin şəxsiyyəti dayanırdı.

Bu baxımdan Yeni Azərbaycan Partiyasının yaradılması dövrün siyasi reallıqlarından irəli gələn məsuliyyətli və strateji addım idi. Partiyanın yaranması cəmiyyətdə siyasi alternativə, güclü liderliyə və milli maraqlar ətrafında birləşməyə olan ehtiyacın ifadəsi idi.

Yeni Azərbaycan Partiyasının yaradılması prosesində mühüm rol oynayan hadisələrdən biri 1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər tanınmış ziyalısının Heydər Əliyevə ünvanladığı müraciət olmuşdur. Azərbaycan tarixində "91-lər"in müraciəti kimi tanınan bu sənəd cəmiyyətdə mövcud olan siyasi gözləntilərin və yeni siyasi təşkilatın yaradılmasına olan ictimai tələbatdan irəli gəlirdi.

Müraciətdə Heydər Əliyevdən yeni yaradılacaq partiyaya rəhbərlik etməsi xahiş olunurdu. Ulu Öndərin müraciətə cavabında Yeni Azərbaycan Partiyasının yaradılmasını obyektiv zərurət kimi səciyyələndirməsi bu təşəbbüsün siyasi və tarixi əhəmiyyətini bir daha təsdiqlədi. Beləliklə, "91-lər"in müraciəti ölkənin siyasi həyatında yeni mərhələnin başlanğıcını qoyan mühüm ictimai-siyasi hadisəyə çevrildi.

1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən Yeni Azərbaycan Partiyasının təsis konfransı müstəqil Azərbaycanın siyasi tarixində əlamətdar hadisə oldu. Ölkənin müxtəlif regionlarını təmsil edən 550 nəfərlik təşəbbüs qrupunun iştirakı ilə keçirilən konfransda partiyanın yaradılması haqqında qərar qəbul edildi, Nizamnaməsi və proqramı təsdiqləndi. Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi, Siyasi Şura, İdarə Heyəti və sədr müavinləri müəyyənləşdirildi.

Bu qərarlar YAP-ın təşkilati və ideoloji əsaslarını formalaşdırmaqla yanaşı, onun gələcək siyasi fəaliyyətinin istiqamətlərini də müəyyən etdi. Partiyanın müxalifət siyasi qüvvəsi kimi yaranmasına baxmayaraq, dövlətçilik maraqlarını üstün tutan konstruktiv siyasi mövqeyi onun fəaliyyətinin əsas xüsusiyyətlərindən biri idi.

Yeni Azərbaycan Partiyasının qısa müddətdə ölkənin aparıcı siyasi qüvvəsinə çevrilməsi ilk növbədə Heydər Əliyevin siyasi liderliyi, təşkilatçılıq qabiliyyəti və müəyyən etdiyi strateji inkişaf xətti ilə bağlıdır. Ulu Öndər partiyanı yalnız siyasi təşkilat kimi deyil, milli maraqları, dövlətçilik ideyalarını və cəmiyyətin inkişaf məqsədlərini özündə birləşdirən ictimai-siyasi platforma kimi formalaşdırdı.

Heydər Əliyevin "YAP dünənin, bu günün və gələcəyin partiyasıdır" fikri partiyanın ideoloji davamlılığını və zamanın çağırışlarına uyğun inkişaf etmək zərurətini ifadə edir. Bu yanaşma YAP-ın siyasi fəaliyyətində varislik, sabitlik və təkamül prinsiplərinin əsas yer tutmasını şərtləndirmişdir.

Partiyanın fəaliyyətində əsas prioritetlərdən biri müstəqil dövlətçiliyin möhkəmləndirilməsi, siyasi sabitliyin qorunması və sosial-iqtisadi inkişafın təmin edilməsi olmuşdur. Zaman keçdikcə YAP-ın təşkilati strukturu genişlənmiş, ictimai-siyasi nüfuzu artmış və müxtəlif sosial təbəqələri əhatə edən ümumxalq siyasi təşkilatına çevrilmişdir.

Yeni Azərbaycan Partiyasının inkişaf tarixində mühüm mərhələlərdən biri 2005-ci il martın 26-da keçirilmiş III Qurultay olmuşdur. Həmin qurultayda İlham Əliyevin partiyanın Sədri seçilməsi YAP-ın siyasi fəaliyyətində yeni mərhələnin başlanğıcını qoymuşdur. Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyanın fəaliyyətində Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun davam etdirilməsi, müasir idarəçilik prinsiplərinin tətbiqi və yeni ictimai-siyasi çağırışlara uyğunlaşma əsas istiqamətlər kimi ön plana çıxmışdır. Ulu Öndərin siyasi irsinin qorunması və inkişaf etdirilməsi bu mərhələnin ideoloji əsasını təşkil edir.

Prezident İlham Əliyevin YAP-ın VIII Qurultayındakı çıxışında vurğuladığı kimi, Ulu Öndərin siyasi xətti dəyişməz olaraq qalır. Bu yanaşma siyasi varisliyin yalnız tarixi irsin qorunması ilə məhdudlaşmadığını, eyni zamanda həmin irsin müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilməsini nəzərdə tutduğunu göstərir.

Yeni Azərbaycan Partiyasının ölkəmizin siyasi həyatındakı mövqeyini müəyyən edən əsas amillərdən biri onun geniş üzvlük bazası və təşkilati potensialıdır. Prezident İlham Əliyev YAP-ın VIII Qurultayındakı çıxışında partiyanın 769 811 üzvünün olduğunu qeyd edərək, onun Azərbaycanın və bütövlükdə Cənubi Qafqazın ən böyük siyasi qüvvəsi olduğunu vurğulamışdır.

Partiyanın üzvlərini birləşdirən başlıca dəyərlər vətənə sədaqət, dövlətçilik maraqlarına bağlılıq, milli həmrəylik və ümummilli məqsədlərə xidmət prinsipidir. YAP-ın ideoloji platforması vətəndaşların irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən və sosial vəziyyətindən asılı olmayaraq, ümumi siyasi məqsədlər ətrafında birləşdirilməsini nəzərdə tutur.

2021-ci il martın 5-də keçirilmiş YAP-ın VII Qurultayı partiyanın təşkilati strukturunda və fəaliyyət istiqamətlərində mühüm yeniliklərlə yadda qalmışdır. Qurultayda partiyanın yeni Nizamnaməsi qəbul edilmiş, 40 nəfərdən ibarət İdarə Heyəti, 13 nəfərlik Təftiş Komissiyası və 35 nəfərdən ibarət Veteranlar Şurası formalaşdırılmışdır.

Həmin qurultayda Mehriban Əliyevanın partiya Sədrinin birinci müavini seçilməsi də mühüm siyasi və təşkilati hadisə kimi diqqət çəkmişdir. Bu təyinat partiyanın rəhbərliyində təmsilçilik və idarəçilik strukturunun yenilənməsi baxımından əhəmiyyət daşımışdır.

VII Qurultaydan sonrakı dövrdə partiyanın fəaliyyətində müasir idarəetmə yanaşmalarının, siyasi dialoqun, ictimai iştirakçılığın və institusional inkişafın təşviqi diqqət mərkəzində olmuşdur. YAP-ın 2021-ci il dekabrın 29-da təsdiq edilmiş Proqramı partiyanın ideoloji və siyasi fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirən mühüm sənəddir. Beş fəsildən ibarət olan Proqramda partiyanın inkişaf yolu, siyasi dəyərləri, partiyadaxili münasibətlərin əsasları və gələcək strateji hədəfləri sistemli şəkildə əksini tapmışdır. Sənəddə müəyyənləşdirilən on əsas siyasi dəyər - Heydər Əliyev yolu, müstəqillik, azərbaycançılıq, dövlətçilik, qanunun aliliyi, varislik və təkamül, konstruktiv əməkdaşlıq və dialoq, sosial ədalət və insan amili, multikultural cəmiyyət, demokratik ənənələrin inkişafı - partiyanın ideoloji fəaliyyətinin əsasını təşkil edir.

Bu dəyərlər YAP-ın siyasi mövqeyinin yalnız mövcud ictimai-siyasi şəraitlə deyil, həm də uzunmüddətli dövlətçilik və inkişaf məqsədləri ilə müəyyənləşdiyini göstərir. Eyni zamanda peşəkarlıq, işgüzar münasibətlər, şəxsi inkişaf, sağlam rəqabət, etik davranış, innovativlik və müasirlik kimi meyarların ön plana çəkilməsi partiyanın daxili təşkilati mədəniyyətinin təkmilləşdirilməsinə yönəlib.

Proqramda müəyyənləşdirilən 11 strateji hədəf isə partiyanın fəaliyyətinin daha geniş istiqamətlərini əhatə edir. Buraya Heydər Əliyev irsinin təbliği, güclü iqtisadiyyatın və davamlı inkişafın təmin edilməsi, insan kapitalının inkişafı, şəffaflığın artırılması, vətəndaş cəmiyyətinin gücləndirilməsi, Azərbaycan dilinin və milli-mənəvi dəyərlərin qorunması, milli maraqların xarici siyasətdə müdafiəsi, ordu quruculuğu və işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış kimi prioritetlər daxildir. Bu hədəflər partiyanın siyasi gündəliyinin dövlətin ümumi inkişaf strategiyası ilə əlaqəli şəkildə formalaşdırıldığını nümayiş etdirir.

Müasir Azərbaycanın siyasi sistemində diqqətçəkən istiqamətlərdən biri siyasi dialoqun inkişafı və iqtidar-müxalifət münasibətlərinin konstruktiv əsaslar üzərində qurulmasıdır. Yeni Azərbaycan Partiyası bu prosesdə siyasi əməkdaşlığın, qarşılıqlı etimadın və ümummilli maraqların prioritetliyinin təşviqinə xüsusi əhəmiyyət verir.

Prezident İlham Əliyevin "Ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz" fikri dövlətçilik maraqlarının siyasi baxışlardan üstün tutulmasının vacibliyini ifadə edir. Bu yanaşma milli təhlükəsizlik, ərazi bütövlüyü, suverenlik və dövlətin gələcək inkişafı kimi məsələlərdə cəmiyyətin vahid mövqedən çıxış etməsinin əhəmiyyətini ön plana çəkir.

Siyasi dialoq mühitinin genişlənməsi ölkədə ictimai-siyasi münasibətlərin inkişafı, fərqli mövqelərin müzakirə edilməsi və ümumi məqsədlər ətrafında əməkdaşlıq imkanlarının artırılması baxımından əhəmiyyətlidir.

Yeni Azərbaycan Partiyasının seçkilərdə əldə etdiyi nəticələr onun ölkənin siyasi sistemindəki mövqeyinin mühüm göstəricilərindən biridir. 2024-cü il fevralın 7-də keçirilmiş prezident seçkilərində YAP-ın namizədi İlham Əliyevin 92,12 faiz səs toplaması, həmin il sentyabrın 1-də keçirilmiş parlament seçkilərində partiyanın 68 mandat qazanması, eləcə də 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində YAP-ın 5855 nümayəndəsinin bələdiyyə üzvü seçilməsi partiyanın seçki proseslərindəki təmsilçiliyini nümayiş etdirir.

Bu nəticələr partiyanın təşkilati imkanlarının və seçki proseslərindəki siyasi mövqeyinin göstəricisidir. Eyni zamanda əldə olunan nəticələr YAP qarşısında ictimai etimadın qorunması, seçicilərin gözləntilərinin nəzərə alınması və dövlətin inkişaf prioritetlərinin həyata keçirilməsində məsuliyyətli iştirak kimi vəzifələr qoyur.

2026-cı il oktyabrın 2-də keçirilmiş Yeni Azərbaycan Partiyasının VIII Qurultayı Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunmasından sonrakı dövrdə ölkənin ictimai-siyasi həyatında baş verən mühüm hadisələrdən biridir.

Prezident İlham Əliyevin qurultaydakı çıxışında vurğuladığı kimi, bu qurultay Azərbaycanın yeni geosiyasi və ictimai-siyasi reallıqlar şəraitində fəaliyyət göstərdiyi dövrə təsadüf edir. Dövlət suverenliyinin tam bərpası, regionda yaranmış yeni siyasi konfiqurasiya və qarşıda duran inkişaf vəzifələri YAP-ın gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsində mühüm amillərdir.

Qurultayda Prezident İlham Əliyevin proqram xarakterli çıxışı partiyanın qarşısında duran başlıca vəzifələrin və strateji hədəflərin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşımışdır. Bununla yanaşı, partiyanın Nizamnaməsinə dəyişikliklər təsdiq edilmiş, İdarə Heyətinin və Təftiş Komissiyasının say tərkibləri müəyyənləşdirilmiş, onların üzvləri seçilmişdir.

VIII Qurultay YAP-ın qarşısında yeni mərhələdə daha çevik təşkilati fəaliyyət, müasir siyasi proseslərə uyğunlaşma, milli maraqların müdafiəsi və Azərbaycanın gələcək inkişaf strategiyasına töhfə vermək kimi vəzifələrin dayandığını göstərir.

Yeni Azərbaycan Partiyasının 1992-ci ildə yaranmasından etibarən keçdiyi siyasi və təşkilati inkişaf yolu Azərbaycanın müasir dövlətçilik tarixinin mühüm tərkib hissəsidir. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə formalaşan və Prezident İlham Əliyevin sədrliyi ilə fəaliyyətini davam etdirən partiya ölkənin ictimai-siyasi həyatında aparıcı mövqeyə malik siyasi təşkilatlardan birinə çevrilmişdir.

YAP-ın tarixi missiyası müstəqil dövlətçiliyin qorunması, milli maraqların müdafiəsi və cəmiyyətin inkişaf məqsədləri ətrafında təşkilatlanması ideyaları ilə bağlıdır. Bu gün partiyanın qarşısında duran əsas vəzifə formalaşmış siyasi və təşkilati potensialı müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, yeni geosiyasi reallıqları nəzərə almaq və Azərbaycanın strateji inkişaf hədəflərinin həyata keçirilməsinə töhfə verməkdir.

Beləliklə, Yeni Azərbaycan Partiyasının dünənini tarixi zərurət, bu gününü siyasi və təşkilati fəaliyyət, gələcəyini isə dövlətçilik ənənələrinin davam etdirilməsi və yeni çağırışlara uyğunlaşma təşkil edir. Heydər Əliyevin "dünənin, bu günün və gələcəyin partiyası" kimi xarakterizə etdiyi Yeni Azərbaycan Partiyasının konsepsiyası da məhz bu tarixi davamlılıq və siyasi varislik ideyasını özündə birləşdirir.

Ziyafət ƏSGƏROV,
Azərbaycan Respublikası
Milli Məclisinin Sədr müavini

Milli iradə və dövlətçilik yolunda

Böyük alman filosofu İmmanuel Kantın fikirincə güclü dövlətin iki mühüm təminatı mövcuddur - xalq tərəfindən dəstəklənən mütərəqqi ideologiya və bu ideologiyanın daşıyıcısı olan xarizmatik lider. Ümummilli Lider Heydər Əliyevin və siyasi varisi Prezident İlham Əliyevin simasında böyük filosofun fikirlərinin təzahür etdiyinin şahidi oluruq. Müasir Azərbaycanın qurucu lideri Heydər Əliyevdən miras qalmış siyasi təsisatlardan biri də Yeni Azərbaycan Partiyasıdır.

Bu il partiyanın yaradılmasından 34 il keçir. Bu zaman axarında YAP-ın yaradılmasını şərtləndirən şəraiti öyrənməklə onun müasir Azərbaycanın tarixində nə qədər önəmli yer tutduğunu bir daha dərk edirik. Bu hadisələrin mərkəzində dünyaşöhrətli siyasətçi, Ümummilli Lider Heydər Əliyevin dayanması ən əsas faktordur.

16 oktyabr 1992-ci ildə Azərbaycanın 91 ziyalısı Heydər Əliyevə mətbuatda müraciət etdi. Sözügedən müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

Dövlət müstəqilliyinin ilk illərində respublikamızda xaos, anarxiya yaranmış və daxili çəkişmələr özünün pik nöqtəsinə çatmışdı. Təbii ki, Ulu Öndər Heydər Əliyevin xalq tərəfindən təkidlə hakimiyyətə dəvət edilməsinin çox səbəbləri var idi. 1970-80-ci illərdə gördüyü böyük işlər, Azərbaycanın inkişafı, quruculuq və abadlıq missiyası, ən ağır məqamlarda daim xalqla birlikdə olması, cəsarət göstərərək 20 Yanvar hadisələrinə siyasi qiymət verməsi, Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə bu bölgəmizin düşməndən qorunması, 3 sentyabr 1991-ci il sessiyasında Naxçıvan Ali Sovetində "Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında" məsələ müzakirə edilərək Kommunist Partiyasının fəaliyyətinin dayandırılması haqqındakı qərar, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında dövlət bayrağı kimi qəbul edilməsi, Naxçıvan MSSR adından "sovet sosialist" sözlərinin çıxarılması və sairə onun 1993-cü ildə xilaskarlıq missiyasını da uğurla həyata keçirəcəyinə inamı daha da artırırdı. Vəziyyət o qədər gərgin və idarəolunmaz idi ki, hətta o zaman ölkəyə "rəhbərlik" edən "kor" qüvvələr də Azərbaycanı məruz qoyduqları təhlükədən xilas etmək üçün Ulu Öndər Heydər Əliyevin Bakıya gəlməsini ölkənin çox ağır vəziyyətindən yeganə çıxış yolu kimi dəyərləndirirdilər. Heydər Əliyev o illər siyasətə qayıtmaq istəyində olmasa da, respublikanın siyasi-ictimai həyatındakı gərgin proseslər onu həddindən artıq narahat edirdi. Real vəziyyəti bir daha dərindən və hərtərəfli təhlil edən Naxçıvan Ali Məclisinin sədri xalqın taleyi üçün narahat olan ziyalıların müraciətini cavabsız qoymadı. Beləliklə, Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasına və sədrlik etməsinə razılıq verdi. Onun respublika ziyalılarının müraciətinə cavabı Heydər Əliyev şəxsiyyətinin əqidə manifestidir.

Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılığını belə ifadə etmişdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi pluralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər".

24 oktyabr 1992-ci il təqvimini Azərbaycan tarixi üçün ən ağır dönüş nöqtəsi hesab etmək olar. Bu tarixdə hakimiyyətdə olan səriştəsiz AXC-Musavat cütlüyü Heydər Əliyevə qarşı olan xalq sevgisinin yüksələn xətlə inkişaf etməsindən qorxaraq onu Naxçıvan Ali Məclisinin sədri vəzifəsindən çevriliş yolu ilə uzaqlaşdırmağa çalışdılar. Lakin Naxçıvan əhalisinin hiddət və qəzəbi bu məsələyə birmənalı şəkildə son qoydu. Artıq hakimiyyətdəki qüvvələr Heydər Əliyevə qarşı olan xalq sevgisinin qarşısının alınmasının mümkün olmadığını anladılar.

Heydər Əliyev isə artıq bundan sonra xalqı təmsil edən ziyalıların səsinə səs verərək Azərbaycanın siyasi palitrasına yeni bir partiyanın gəlməsinə razılıq verməyin zəruri olduğunu hiss etdi. Heydər Əliyevin yeni partiyanın yaradılmasına razılıq verməsi hadisələri sürətləndirdi. Artıq Heydər Əliyevi müdafiə edən siyasi qüvvələr yeni yaradılmış partiya ətrafında birləşməyə başladılar.

Bundan sonra 21 noyabr 1992-ci ildə Naxçıvanda keçirilən konfransda Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın sədri seçildi. YAP-ın yaranması, Ümummilli Lider Heydər Əliyevin bu partiyaya sədr seçilməsi respublikanın siyasi həyatında canlanma yaratdı. Lakin yenə də maneələr davam edirdi. Amma YAP-ı siyasi sferada məhdudlaşdırmaq cəhdləri uğursuzluğa düçar oldu. Artıq geniş xalq kütləsi böyük siyasət adamının meydanda olmasını sevinclə qarşılayır və gələcəyə ümidləri artırdı. Xalq Yeni Azərbaycan Partiyasını geniş şəkildə dəstəkləməyə başladı. Həmin tarixi hadisələri dəyərləndirən Ulu Öndər Heydər Əliyev deyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır". Yeni Azərbaycan Partiyası Heydər Əliyev dühasına fokuslansa da, geniş xalq kütlələrinin səsi sosial sifariş idi. Heydər Əliyev bu barədə demişdir: "Çıxışlarda tamamilə düzgün qeyd edildi ki, bu partiyani bir adam yox, o illərdə Azərbaycanın agır vəziyyətini görən, buna dözə bilməyən və bu agir vəziyyətdən çıxış yolunu axtaran insanlar və xüsusən ziyalılar hamısı birlikdə yaradıblar".

Yeni Azərbaycan Partiyasının yaradılması Heydər Əliyevə qarşı təzyiqlərin daha da artmasına səbəb oldu. Hətta səriştəsiz cəbhə hakimiyyəti təmsilçiləri təhdidlər səsləndirməkdən də çəkinmirdilər. Belə təhdidlərdən biri Naxçıvan Muxtar Respublikasının statusunu ləğv etməklə Heydər Əliyevi hakimiyyətdən devirmək cəhdi idi. Əlbəttə, bu cür səviyyəsiz təhdidlər nə Ümummilli Lider Heydər Əliyevi, nə də onun tərəfdarlarını qorxuda bilərdi. Hələ Yeni Azərbaycan Partiyasının siyasi təşkilat kimi formalaşmadığı bir vaxtda 7 dekabr 1992-ci il tarixində professor Z.Qaralovun sədrliyi ilə Naxçıvan Respublikasının dövlət quruculuğunun və Muxtar Respublika Ali Məclisinin sədri Heydər Əlirza oğlu Əliyevin müdafiə komitəsi yaradıldı. AMEA-nın binasında akademik Z.Bünyadovun sədrliyi ilə keçirilən iclasın canlı şahidi kimi həmin dövrün emosional vəziyyəti ziyalıların narahatçılığı və həyəcanı indi də gözlərimin qarşısındadır. Həmin tarixi qərarda deyilirdi: "Naxçıvan Muxtar Respublikasına qarşı təcavüzə, Respublika Ali Məclisinin sədri Heydər Əlirza oğlu Əliyevə qarşı böhtan və hədələrə qəti şəkildə son qoymaq məqsədi ilə xüsusi qurum - Naxçıvan MR dövlət quruculuğunun və MR Ali Məclisinin sədri Heydər Əlirza oğlu Əliyevin hüquqlarının qorunması üzrə Müdafiə Komitəsi yaradılsın." Bu fikirlərdən Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının dövlət quruculuğunun və şəxsən Heydər Əliyevin hansı təhlükə qarşısında olduğunu hiss etməmək mümkün deyil. Müdafiə Komitəsi az müddətdə işçi qrupları formalaşdırdı. Görüləcək işlərin istiqamətləri bunlardan ibarət idi: təşkilati-operativ işlər, təbliğat, kütləvi informasiya və kütləvi tədbirlər üzrə işlər, ictimai-siyasi təşkilatlar və hərəkatlarla əlbir iş, beynəlxalq insan hüquqları müdafiəsi qurumları ilə əlaqə, vacib sənədlərin hazırlanması, millət vəkilləri və gənclərlə iş, yerlərdə müdafiə özəkləri yaratmaq. Komitənin üzvlərinin hər birinə konkret iş sahəsi tapşırıldı və icrasına ciddi nəzarət qoyuldu. Komitə az müddətdə xeyli iş gördü.

O vaxt biz gənclər həm dahi siyasətçinin yaş senzinə qarşı mitinqlərin təşkil olunması, həm də yeni yaranmış siyasi təşkilata gənclərin cəlb edilməsi ilə məşğul olurduq.

Xalqın Ümummilli Lider Heydər Əliyevə olan inamı isə tez bir zamanda siyasi səhnədə parlayan YAP-ın tarixi məsuliyyəti öz üzərinə götürməsinə imkan yaratdı. Azərbaycan xalqının Heydər Əliyevə göstərdiyi yüksək etimad YAP-ın qısa zamanda təşkilatlanmasına, ölkənin bütün regionlarında dayaqlarının yaranmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı. Xalqın inamı və sevgisi nəticəsində partiyanın yaradılmasından 7 ay sonra Heydər Əliyev siyasi hakimiyyətə gəldi.

Yeni Azərbaycan Partiyası həm də siyasi varisliyin ən gözəl nümunəsidir. Layiqli varis İlham Əliyev bütün platformalarda olduğu kimi, partiya fəaliyyətində də Ümummilli Lider Heydər Əliyevin siyasi xəttini və partiyanın monolitliyini qoruyub saxladı. Bütün bunlar dahi siyasətçi Heydər Əliyevin adı ilə bağlı idi. Azərbaycan Prezidenti, YAP-ın Sədri İlham Əliyev bu barədə deyib: "Yeni Azərbaycan Partiyasının adı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Partiya Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi".

1993-cü ildə ölkə gənclərinin bir qrup nümayəndəsi ilə görüşdə Ulu Öndər bildirmişdir: "Biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik".

Heydər Əliyevin siyasi mirasları arasında, şübhəsiz ki, YAP da var. Möhkəm təməllər üzərində qurulmuş bu təsisatı yalnız böyük dövlət adamı İlham Əliyev irəli apara bilərdi. Uğurlu siyasi varis bütün parametrlər üzrə bu siyasi təşkilatı daha da inkişaf etdirdi. 44 günlük Zəfər müharibəsində, antiterror əməliyyatında digər taleyüklü məsələlərdə partiya bütün gücünü səfərbər edərək dövlət başçısının yanında oldu. Sonuncu qurultayda partiya Sədri İlham Əliyevin çıxışı onun dünya siyasi liderləri içərisində böyük nüfuz sahibi olduğunu göstərdi.

YAP-ın Sədri cənab İlham Əliyev təşkilatın sonuncu qurultayında çıxışında dedi: "Yeni Azərbaycan Partiyasının qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisədir. Deyə bilərəm ki, partiyamızın fəaliyyəti, qəbul edilmiş qərarlar və siyasi xətti təkcə ölkəmiz üçün yox, bölgə üçün böyük önəm daşıyır. Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi qüvvəsidir. Müxalifət partiyası kimi yaransa da, 30 ildən çoxdur ki, partiyamız iqtidardadır. Ölkəmizin son illər ərzində uğurlu və şərəfli yolunda partiyamızın fəallarının çox böyük payı var, böyük töhfəsi var.

Bizim qurultayımız yeni ictimai-siyasi və geosiyasi vəziyyətdə keçirilir. İlk dəfədir ki, qurultayımız Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edəndən sonra keçirilir. VII Qurultayımız da o vaxt üçün yeni mühitdə keçirilmişdir. Çünki o şanlı Zəfərimizdən cəmi bir neçə ay keçmişdir və bütün dünya bizim Zəfərimizdən danışırdı. Azərbaycan özü təkbaşına həm işğala son qoymuşdur, eyni zamanda bölgədə yeni reallıqlar yaratmışdır. O vaxtdan - İkinci Qarabağ müharibəsindəki Zəfərimizdən bu günə qədər bu reallıqlar bütün dünya tərəfindən qəbul edilir. Halbuki bu, asan başa gəlmədi. Bu illər ərzində çox ciddi müqavimətlə üzləşmişdik. Azərbaycana qarşı istiqamətlənmiş yalan, iftira ilə dolu kampaniyalarla üzləşmişdik. Bizə qarşı sanksiyaların tətbiq edilməsi məsələsini bəzi ölkələr ciddi müzakirə edirdi. Ancaq bizim qətiyyətimiz, dönməz fəaliyyətimiz, siyasi addımlarımız və ilk növbədə Azərbaycan xalqının vahid mövqedə olması bütün bu bəd niyyətləri alt-üst etmişdir. İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. 8 Noyabr bizim əbədi bayramımız olacaq. Eyni əhəmiyyəti 20 Sentyabr da daşıyır. Çünki məhz 2023-cü il sentyabrın 20-də Azərbaycan separatizmə son qoydu".

Bəli, artıq Azərbaycan Respublikası orta güc dövlətinə çevrilib. Bu uğurun təməlini isə böyük dövlət adamı, Ümummilli Lider Heydər Əliyev qoyub və siyasi varisi, Müzəffər Ali Baş Komandan İlham Əliyev bütün gücü ilə hədəfə çatdırıb. Yeni Azərbaycan Partiyası bütün hallarda dövlətimizin yanında olmaqla uğurlara öz töhfəsini verib.

Sadiq QURBANOV,
Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri

Yeni Azərbaycan Partiyasının yaranmasından 34 il keçir



Şərəfli siyasi yol

Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və mürəkkəb günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə yaranmışdır. Azərbaycanda siyasi qurumların formalaşması prosesi 1988-ci ildən başlanan xalq hərəkatı gedişində özünü büruzə vermiş və 1990-cı ilin əvvəllərində bir sıra təşkilatlar yaranmışdı. Lakin yaradılan partiyalar ölkəni düşdüyü ağır vəziyyətdən nəinki qurtara bilməmiş, əksinə, hakimiyyətdə olan və bir-birini əvəz edən siyasi qüvvələr respublikadakı bu durumu daha da ağırlaşdıraraq təhlükəli hala çatdırmışdılar.

Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Bu zaman Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın sınanmış lideri və müdrik oğlu Heydər Əliyevin ətrafında birləşdilər. 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının təsis olunması Ulu Öndər Heydər Əliyevə olan dərin inamın və etimadın təcəssümü kimi tarixə yazıldı.

Lakin bir məqamı da vurğulamaq lazımdır ki, o dövrdə bir çox qüvvə, xüsusilə də xalqın heç bir problemini həll edə bilməyən, sadəcə, öz himayədarlarının tapşırıqlarını yerinə yetirən qruplar Yeni Azərbaycan Partiyasının fəaliyyətinə maneə olur, onu nüfuzdan salmağa çalışırdılar. Lakin Ulu Öndərin nüfuzu, müdrikliyi və siyasi təcrübəsi qarşısında onların planları iflasa uğradı. YAP qarşısında dayanan məqsədlərə doğru addım-addım irəlilədi.

Böyük Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsi və bir gündən də az davam edən antiterror əməliyyatı ilə Azərbaycan 30 ilə yaxın erməni işğalına son qoymaqla, öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə yanaşı, həm Cənubi Qafqazda, həm də dünyada yeni reallıq yaratdı. Prezident İlham Əliyevin dediyi kimi: "Böyük layları tərpətdik biz. Elə bir Zəfər çaldıq ki, bu, lokal əhəmiyyətli məsələ deyil. Bu, bir növ beynəlxalq gündəliyin əsas məsələlərinin birinə çevrilibdir".

Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində bir çox hədəfimiz öz həllini tapıb. Azərbaycan bütün sahələr üzrə inkişaf edir, davamlı iqtisadi, sosial islahatlar keçirilir. Əhalinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması istiqamətində ardıcıl və sistemli şəkildə proqramlar həyata keçirilir. Ölkəmizin hərbi gücünün və müdafiə qabiliyyətinin yüksəlməsi üzrə mühüm işlər görülür. Azərbaycanın beynəlxalq nüfuzu gündən-günə artır. Və əlbəttə ki, yeni dövrün yeni hədəfləri də var. Bu baxımdan dövlətimizin hərbi qüdrətinin daha da artırılması, "Böyük qayıdış" proqramının icrası, regionda dayanıqlı sülhə, etibarlı təhlükəsizliyə, çoxşaxəli əməkdaşlığa nail olunması və digər hədəflər xüsusi əhəmiyyət kəsb edir.

YAP-ın VII və VIII qurultayları partiya fəaliyyəti baxımından xüsusilə seçilir. Təşkilatın VII Qurultayı tarixi Zəfərdən (2021-ci il 5 mart), VIII Qurultayı (2026-cı il, 2 oktyabr) isə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra keçirildi. Onların hər ikisi özünəməxsusluğu ilə fərqlənir. VIII Qurultayda partiyamızın Sədri, möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev öz əhatəli, dolğun nitqi ilə ölkəmizin keçdiyi tarixi dövrə nəzər saldı, eyni zamanda partiyanın gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirdi.

Yeni Azərbaycan Partiyası yarandığı gündən etibarən cəmiyyətdə baş verən proseslərə çevik münasibət göstərən, zamanın tələblərinə uyğun fəaliyyət istiqamətlərini müəyyənləşdirən siyasi təşkilat kimi formalaşıb. Partiyanın keçdiyi tarixi inkişaf yolu göstərir ki, YAP ölkədə baş verən siyasi, sosial və ictimai proseslərdən kənarda qalmayıb, yeni çağırışlara uyğun olaraq fəaliyyətini daim təkmilləşdirib. VII və VIII qurultaylarda müəyyənləşdirilən prioritetlər də bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda Yeni Azərbaycan Partiyası ölkəmizdə siyasi dialoqun inkişafına öz töhfəsini verir. Bütün bunlar partiyanın yalnız siyasi proseslərin iştirakçısı deyil, həm də cəmiyyətin inkişafına istiqamət verən mühüm siyasi qüvvə olduğunu təsdiqləyir.

Yeni Azərbaycan Partiyasının Proqramında sosial ədalətə, vətəndaş rifahına, insan amilinə verilən üstünlük fundamental prinsiplər kimi müəyyən edilib. Bu prinsiplər dövlət siyasətinin əsas prioritetləri ilə uzlaşır. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bu yanaşma cəmiyyət həyatının bütün sahələrini əhatə etməklə yanaşı, ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaqların müdafiəsi kimi mühüm məsələləri də özündə birləşdirir. Təsadüfi deyil ki, ölkəmizdə bu istiqamətdə mükəmməl qanunvericilik bazası formalaşdırılıb. Bu sahədə Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Onun təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələr, irəli sürdüyü təşəbbüslər, eləcə də sosial-humanitar sahədə gördüyü işlər ailə, qadın və uşaq hüquqlarının qorunmasına, cəmiyyətdə humanizm dəyərlərinin möhkəmlənməsinə mühüm töhfə verir.

Seçkilər hər bir ölkənin demokratik inkişafı üçün vacibdir. Eyni zamanda seçkilərdə iştirak siyasi partiyaların fəaliyyətinin əsas istiqamətlərindən biridir. Qürurla deyə bilərik ki, ölkəmizdə keçirilən bütün seçkilərin qalibləri məhz Yeni Azərbaycan Partiyasının namizədləridir. 2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyev seçicilərin 92,12 faiz səsini qazanaraq növbəti müddətə Azərbaycan Prezidenti seçilmişdir. 2024-cü il sentyabrın 1-də keçirilən yeddinci çağırış Azərbaycan Milli Məclisinə seçkilərdə Yeni Azərbaycan Partiyası parlaq qələbəyə imza ataraq parlamentdə 68 millət vəkili ilə təmsil olunmaq hüququ qazanmışdır. 2025-ci il yanvarın 29-da keçirilən bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası qələbə qazanaraq yerli özünüidarəetmə orqanlarında yerlərin böyük əksəriyyətini əldə etmişdir. Bütün bunlar xalqımızın YAP-a, onun namizədlərinə inamının, yüksək etimadının nəticəsidir.

Bu gün Yeni Azərbaycan Partiyasının 34-cü ildönümünü böyük qürur və fəxarət ilə qeyd edirik! YAP hər zaman cəmiyyətimizdə müsbət dəyişikliklərin baş verməsində, dövlətimizin inkişafında və xalqımızın rifahının yüksəlməsində mühüm rol oynayıb. Partiyanın fəaliyyəti həm keçmişin dəyərlərini qorumaq, həm də gələcəyə doğru inamla addımlamaq prinsipləri ilə daim zənginləşib. Bu gün Ümummilli Lider Heydər Əliyevin ideyaları Azərbaycanın inkişafı üçün ilhamverici bir mənbə olaraq yaşayır və bu dəyərlər əsasında partiyamız daha da güclənir. Qarabağ Zəfəri ilə yaranan yeni reallıqlar fonunda Yeni Azərbaycan Partiyası Prezident və Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə daha parlaq gələcəyə doğru inamla irəliləyir.

Hicran HÜSEYNOVA,
Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri

"Heydər Əliyev və Azərbaycan tarixi" X ümumrespublika bilik yarışının qalibləri müəyyənləşib





Noyabrın 20-də Heydər Əliyev Mərkəzində ali təhsil müəssisələrinin tələbələri arasında "Heydər Əliyev və Azərbaycan tarixi" X ümumrespublika bilik yarışı keçirilib.







AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin dəstəyi ilə keçirilən yarış Azərbaycan tarixinin və Ümummilli Lider Heydər Əliyevin irsinin tədqiqi, öyrənilməsi və təbliği məqsədi daşıyır.

Builki bilik yarışında respublikanın 50 ali təhsil müəssisəsini təmsil edən komandalar iştirak edib. Qarabağ Universiteti və Türkiyə-Azərbaycan Universitetinin komandaları isə layihəyə ilk dəfə qoşulublar.

Yarış zamanı komandalara hər suala cavab vermək və müzakirə aparmaq üçün 60 saniyə vaxt ayrılıb. İştirakçıların cavabları Heydər Əliyev Mərkəzi, Təhsilin İnkişafı Fondu və AMEA-nın Tarix və Etnologiya İnstitutunun nümayəndələrindən ibarət münsiflər heyəti tərəfindən qiymətləndirilib.

Bilik yarışının nəticələrinə əsasən, Daxili İşlər Nazirliyinin Polis Akademiyasının komandası birinci, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının komandası ikinci, Bakı Dövlət Universitetinin komandası isə üçüncü yeri tutub.

Mükafatlandırma mərasimində qaliblərə sertifikatları Alyona Əliyeva və elm və təhsil nazirinin müavini Firudin Qurbanov təqdim ediblər.

Yarışın qalibi olan Polis Akademiyasının komandasının üzvü, IV kurs kursantı Ramazan Əliyev təəssüratını bölüşərkən komanda olaraq bilik mübarizəsinə ciddi hazırlaşdıqlarını vurğulayıb: "Komandamız ötən il olduğu kimi, bu il də yarışa ciddi hazırlaşmışdı. İlk turda mübarizə kifayət qədər bərabər getsə də, ikinci turda mövqeyimizi ortaya qoymağı bacardıq. Suallar arasında asan, orta və yüksək çətinlik dərəcəli olanlar var idi. Düşünürəm ki, komandamız onların öhdəsindən uğurla gəldi. Komandamla və Polis Akademiyasının təmsilçisi olmağımla fəxr edirəm".

Bilik yarışında ilk dəfə iştirak edən Qarabağ Universitetinin tarix ixtisası üzrə III kurs tələbəsi Emil Quliyev universitetini bu layihədə təmsil etməyin onun üçün qürurverici olduğunu deyib: "Qarabağ Universiteti olaraq bu mötəbər yarışda ilk dəfə iştirak etmək və universitetimizi təmsil etmək bizim üçün çox qürurvericidir. Bəzi suallarda çətinlik yaşasaq da, yaxşı nəticə əldə etməyə çalışdıq".

Qeyd edək ki, 2014-cü ildən təşkil olunan layihə gənclərin Azərbaycan tarixi və Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti haqqında biliklərinin zənginləşdirilməsinə, vətənpərvərlik ruhunun və sağlam rəqabət ənənələrinin gücləndirilməsinə xidmət edir.

Ermənistanın cavab verməli olduğu insan taleləri

Müharibələrin ən ağır humanitar nəticələrindən biri də minlərlə insanın taleyinin naməlum qalması, ailələrin illərlə doğmalarından xəbər gözləməsidir. Silahlı qarşıdurmalar başa çatsa, siyasi münasibətlərdə yeni mərhələ başlasa belə, itkin düşmüş şəxslərin məsələsi gündəmdən çıxmır. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və Qarabağ münaqişəsi nəticəsində minlərlə vətəndaşımızın taleyi uzun illərdir naməlum olaraq qalır. Bu baxımdan itkin düşmüş şəxslərlə bağlı keçirilən beynəlxalq tədbirlər yalnız diplomatik müzakirə platforması deyil, həm də konkret nəticələrin əldə olunması üçün mühüm imkan kimi qiymətləndirilməlidir.

İtkin düşmüş şəxslərlə bağlı müvafiq Dövlət Komissiyasının 2026-cı il avqustun 31-nə olan məlumatına əsasən, Birinci və İkinci Qarabağ müharibələri nəticəsində ümumilikdə 4010 Azərbaycan vətəndaşının taleyindən xəbər yoxdur. Onların 4004 nəfəri Birinci Qarabağ müharibəsi, 6 nəfəri isə İkinci Qarabağ müharibəsi dövründə itkin düşüb. Bu rəqəmlər yalnız hərbi qulluqçuları əhatə etmir. Birinci Qarabağ müharibəsində itkin düşənlər arasında 782 mülki şəxsin olması münaqişənin dinc əhali üçün də ağır nəticələr doğurduğunu təsdiqləyir. Həmin mülki şəxslər arasında 71 uşaq, 288 qadın və 319 ahıl insanın qeydə alınması faciənin miqyasını daha aydın göstərir.

Azərbaycanın həyata keçirdiyi axtarış və identifikasiya tədbirləri nəticəsində indiyədək 328 nəfərin şəxsiyyəti müəyyənləşdirilib. İşğaldan azad olunmuş ərazilərdə 32 kütləvi məzarlığın aşkarlanması isə problemin daha bir ağır tərəfini üzə çıxarıb. Hər bir məzarlığın araşdırılması insanların ölüm şəraitinin, mümkün zorakılıq hallarının və müharibə dövründə baş vermiş hadisələrin aydınlaşdırılması baxımından da əhəmiyyətlidir.

İtkin düşmüş şəxslər məsələsi Azərbaycanla Ermənistan arasında formalaşan sülh gündəliyinin də mühüm istiqamətlərindən biridir. 2025-ci il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidentinin iştirakı ilə Azərbaycan və Ermənistan liderləri arasında Birgə Bəyannamə imzalanıb, iki dövlət arasında sülh sazişinin razılaşdırılmış mətni paraflanıb. Həmin sənədin 9-cu maddəsində silahlı münaqişələr zamanı itkin düşmüş şəxslərin və məcburi yoxaçıxma hallarının araşdırılması üzrə əməkdaşlıq nəzərdə tutulur. Maddə tərəflərin mövcud məlumatları bölüşməsini, itkinlərin taleyini müəyyənləşdirmək üçün birgə fəaliyyət göstərməsini, zəruri hallarda insan qalıqlarının axtarılması və geri qaytarılmasını, eləcə də müvafiq araşdırmaların aparılmasını əhatə edir.

Dayanıqlı sülh yalnız siyasi razılaşmalarla deyil, münaqişənin insan taleləri ilə bağlı yaratdığı ağır nəticələrin aradan qaldırılması ilə də bağlıdır. İtkinlərin taleyinin müəyyənləşdirilməsi istiqamətində səmərəli əməkdaşlıq həm humanitar ədalətin təmin olunmasına, həm də cəmiyyətlər arasında qarşılıqlı etimadın formalaşmasına xidmət edə bilər. 2025-ci ilin fevralından etibarən Azərbaycan və Ermənistanın itkin düşmüş şəxslərlə məşğul olan dövlət komissiyaları arasında birbaşa təmasların qurulması bu istiqamətdə müəyyən irəliləyiş kimi dəyərləndirilir. Keçirilən görüşlərdə məlumat mübadiləsi aparılıb, müxtəlif sənədlər və şahid ifadələri müzakirə olunub. Azərbaycan Birinci Qarabağ müharibəsi zamanı əsir və girov götürüldüyü, beynəlxalq humanitar təşkilatlardan gizlədildiyi bildirilən 834 azərbaycanlının siyahısını qarşı tərəfə təqdim edib. Bundan başqa, 104 nəfərlə bağlı daha ətraflı məlumatlar Ermənistan tərəfinə çatdırılıb.

Beynəlxalq Qızıl Xaç Komitəsinin qeydiyyatında olmuş 54 azərbaycanlının taleyi də xüsusi diqqət tələb edir. Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyevin 2026-cı il oktyabrın 7-də açıqladığı məlumatlara görə, həmin şəxslərdən 17-nin nəşi Azərbaycana qaytarılıb. Daha 33 nəfərin saxlanma yerlərində həyatını itirdiyi bildirilsə də, onların qalıqları indiyədək təhvil verilməyib. Dörd nəfərin aqibəti barədə isə hələ də məlumat yoxdur. Bu rəqəmlər göstərir ki, mövcud sənədlərin və arxiv materiallarının açıqlanması itkinlərin taleyinin araşdırılmasında həlledici rol oynaya bilər.

İki ölkənin komissiyaları arasında aparılan müzakirələr zamanı mümkün dəfn yerləri barədə məlumatların təqdim edilməsi məsələsi də gündəmə gəlib. Azərbaycan tərəfinin açıqlamalarına əsasən, Ermənistan nümayəndələri 200-dən artıq ehtimal olunan dəfn yerinin, o cümlədən kütləvi məzarlıqların koordinatlarını təqdim edəcəklərini bildiriblər. Lakin həmin məlumatların indiyədək tam şəkildə verilməməsi axtarış prosesini çətinləşdirən əsas amillərdəndir. Axtarış işlərini mürəkkəbləşdirən digər mühüm problem işğaldan azad olunmuş ərazilərdəki mina təhlükəsidir. Minalanmış sahələrdə mümkün dəfn yerlərinin araşdırılması xüsusi təhlükəsizlik tədbirləri tələb edir. Bu səbəbdən Ermənistanın yalnız məzarlıqlar barədə məlumatları deyil, mina sahələrinin dəqiq xəritələrini təqdim etməsi də vacibdir. Belə əməkdaşlıq həm axtarış qruplarının təhlükəsizliyini təmin edə, həm də itkin düşmüş şəxslərin qalıqlarının aşkarlanmasını sürətləndirə bilər.

Onu da qeyd edək ki, noyabrın 19-20-də Ermənistanın paytaxtı İrəvanda "İtkin düşmüş şəxslərin taleyi: humanitar dialoq və əməkdaşlıq" mövzusunda beynəlxalq konfrans keçirilib. 30 ildən artıqdır ki, 4 mindən çox azərbaycanlı itkin düşmüş şəxsin taleyi ilə bağlı məlumatları təqdim etməyən Ermənistanın belə bir tədbir təşkil etməsi ciddi suallar doğurur. Öz ərazisində itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi istiqamətində real əməkdaşlıq nümayiş etdirməyən Ermənistanın beynəlxalq ictimaiyyət qarşısında humanitar məsələlərə həssas yanaşan ölkə obrazı yaratmağa çalışması ziddiyyətli görünür. Əgər konfransın məqsədi həqiqətən də itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi və ailələrin narahatlığına son qoyulmasıdırsa, ilk növbədə Azərbaycanın təqdim etdiyi məlumatlara konkret cavab verilməli, mümkün dəfn yerlərinin koordinatları və arxiv sənədləri açıqlanmalıdır. Əks halda, belə bir tədbirin real humanitar nəticələr əldə etməkdən daha çox beynəlxalq ictimaiyyət qarşısında görüntü yaratmağa xidmət etdiyi qənaəti formalaşır.

Ülkər XASPOLADOVA,
"Azərbaycan"



Tarixi dostluqdan strateji tərəfdaşlığa

Azərbaycan-Vyetnam münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyur

Xarici siyasət kursunu milli maraqlar və bərabərhüquqlu əməkdaşlıq prinsipləri üzərində quran Azərbaycan bu gün təkcə yaxın coğrafiyada deyil, Asiyanın dinamik inkişaf edən regionları ilə də əlaqələrini ardıcıl şəkildə dərinləşdirir. Uzaq məsafələrə baxmayaraq, ortaq tarixi yaddaş, səmimi dostluq ənənələri və praqmatik iqtisadi maraqlar üzərində formalaşan Azərbaycan-Vyetnam münasibətləri Cənubi Qafqaz ilə Cənub-Şərqi Asiya arasında uğurlu əməkdaşlıq modelinin parlaq təzahürüdür.

Azərbaycan Prezidenti İlham Əliyevin noyabrın 19-da Vyetnam Sosialist Respublikasına rəsmi səfərə yola düşməsi və Hanoyda ali səviyyəli görüşlər keçirməsi, o cümlədən noyabrın 20-də Vyetnamın Baş naziri Le Minh Hunq və Milli Assambleyasının Sədri Çan Tan Man ilə apardığı danışıqlar ikitərəfli münasibətlərin inkişafında xüsusi əhəmiyyət daşıyır. Dövlətimizin başçısının səfər ərəfəsində Vyetnam Xəbər Agentliyinə (VNA) verdiyi müsahibədə səsləndirdiyi fikirlər də təsdiqləyir ki, tərəflər əməkdaşlığı yalnız siyasi dialoqla məhdudlaşdırmır, onu konkret iqtisadi layihələr, enerji təşəbbüsləri və logistik bağlantılar vasitəsilə daha da möhkəmləndirmək əzmindədirlər.

Bakı ilə Hanoy arasında qarşılıqlı əlaqələrin kökləri diplomatik münasibətlərin rəsmiləşdiyi 1992-ci ildən xeyli əvvələ gedib çıxır. Hələ 1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Minin Bakıya gəlişi və Azərbaycanın dənizdə neft hasilatı təcrübəsi ilə yaxından tanış olması iki xalq arasında dostluğun ilk möhkəm dayağını yaradıb. Sonrakı onilliklərdə iki minədək azərbaycanlı mütəxəssisin Vyetnamın neft-qaz sənayesinin qurulmasına və inkişafına verdiyi töhfələr, 1981-ci ildə yaradılan "Vietsovpetro" birgə müəssisəsinin ilk baş direktorunun azərbaycanlı Cəlal Məmmədov olması münasibətlərə dərin praktiki məzmun qazandırıb. Həmin illərdə Bakının ali təhsil müəssisələrində 5 minə yaxın vyetnamlı gəncin biliklərə yiyələnməsi isə xalqlar arasında sarsılmaz mənəvi körpülər formalaşdırıb.

1981-ci ilin martında Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi Le Zuanın Bakıya səfəri və Ulu Öndər Heydər Əliyevlə keçirdiyi səmimi görüşlər, ardınca 1983-cü ilin payızında Heydər Əliyevin rəhbərliyi ilə nümayəndə heyətinin Vyetnama səkkizgünlük səfəri bu dostluq salnaməsinin unudulmaz mərhələləri olub.

Tarixi ənənələrin müasir dövrün çağırışlarına uyğunlaşdırılması baxımından Prezident İlham Əliyevin 2014-cü ildə Vyetnama ilk dövlət səfəri və 2015-ci ildə Vyetnam Prezidenti Çıonq Tan Şanqın Azərbaycana səfəri müasir ikitərəfli dialoq üçün yüksək standartlar müəyyənləşdirib. Münasibətlərin keyfiyyətcə yeni pilləyə qalxmasında isə ötən ilin mayında imzalanan mühüm siyasi sənəd həlledici rol oynayıb. Dövlətimizin başçısı Vyetnam Xəbər Agentliyinə müsahibəsində bu tarixi dönüş nöqtəsini belə xarakterizə edib: "Strateji tərəfdaşlıq haqqında Birgə Bəyanatın - Azərbaycan-Vyetnam əlaqələrini keyfiyyətcə yeni səviyyəyə qaldıran mühüm sənədin qəbul edilməsi məntiqi nəticə oldu. Bu səfər tərəfdaşlığın dərinləşdirilməsi və onun praktiki məzmunla zənginləşdirilməsi üzrə qarşılıqlı marağı bir daha nümayiş etdirdi".

Strateji tərəfdaşlığın möhkəmləndirilməsi və dialoqun dərinləşdirilməsi sonrakı mərhələdə də ardıcıl xarakter alıb. 2025-ci ilin iyulunda Hanoyda hökumətlərarası komissiyanın üçüncü iclasının, eləcə də Azərbaycan-Vyetnam Biznes Şurasının ilk toplantısının və biznes-forumunun keçirilməsi siyasi razılaşmaların iqtisadi müstəviyə daşınması baxımından mühüm platforma yaradıb. 2026-cı ilin oktyabrında Vyetnamın vitse-prezidenti Vo Thi Anh Xuanın Azərbaycana səfəri və bu səfər çərçivəsində aparılan yüksəksəviyyəli müzakirələr zamanı ticarət, investisiyalar, nəqliyyat-logistika, bərpaolunan enerji, turizm, birbaşa aviareyslərin təşviqi və adi pasport sahibləri üçün vizasız rejimin tətbiqi perspektivləri diqqət mərkəzində olub. Eyni zamanda tərəflər müdafiə sənayesi, hərbi-texniki təminat və mina təmizlənməsi kimi sahələrdə də təcrübə mübadiləsi və birgə əməkdaşlıq imkanlarını nəzərdən keçirərək tərəfdaşlığın spektrini daha da genişləndiriblər.

İkitərəfli siyasi dialoqla yanaşı, çoxtərəfli beynəlxalq platformalarda nümayiş etdirilən həmrəylik Azərbaycan-Vyetnam münasibətlərinin etibarlılığını daha da artırır. Vyetnamın Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına ardıcıl hörmətlə yanaşması münasibətlərin beynəlxalq hüququn fundamental prinsiplərinə söykəndiyini göstərir. BMT, Qoşulmama Hərəkatı və Azərbaycanın sədrlik etdiyi Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) çərçivəsində qarşılıqlı dəstək hər iki ölkənin ortaq mövqeyini əks etdirir.

Humanitar sahədə də əlaqələr dinamik inkişaf edir. Azərbaycanın 2024-cü ildə "Yaqi" fırtınasının və 2025-ci ildə genişmiqyaslı daşqınların nəticələrinin aradan qaldırılması üçün göstərdiyi maliyyə yardımı, dördüncü "Vyetnam Günləri" çərçivəsində Bakı və Qəbələdə təşkil olunan mədəni tədbirlər, eləcə də Heydər Əliyev Fondunun Ha Giang əyalətində ibtidai məktəbin tikintisinə verdiyi dəstək və fondun vitse-prezidenti Leyla Əliyevanın 2025-ci il Vyetnama səfəri xalqlar arasındakı mənəvi bağları daha da möhkəmləndirir.

İqtisadi-ticari əməkdaşlığın genişləndirilməsi və yeni sahələrə şaxələndirilməsi isə strateji tərəfdaşlığın praktik ölçüsünü müəyyənləşdirir. Rəsmi statistik məlumatlara görə, 2025-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 153,4 milyon dollar təşkil edərək 150 milyon dollar həddini ötüb. Lakin mövcud iqtisadi potensial bu göstəricinin daha da artırılmasına və qeyri-neft məhsullarının qarşılıqlı ixracının genişləndirilməsinə imkan verir. Energetika sektorunda tarixi əməkdaşlıq bu gün SOCAR ilə "PetroVietnam" arasında imzalanmış Anlaşma Memorandumu və 2023-cü ildən bəri Vyetnama 1,1 milyon tondan çox Azərbaycan xam neftinin tədarükü ilə davam edir. Üstəlik, 2026-cı ilin sentyabrında imzalanmış memorandum çərçivəsində Vyetnamın "ROX Group" şirkətinin Bakıda külək və Naxçıvanda günəş-elektrik stansiyaları layihələrinə sərmayə qoymaq imkanlarını araşdırması əməkdaşlığı müasir "yaşıl enerji" istiqamətinə yönəldir.

Nəqliyyat-logistika əlaqələri də iki ölkə arasında əməkdaşlığın əsas dayaqlarından birinə çevrilir. Cənub-Şərqi Asiyanın mühüm istehsal və ixrac mərkəzi olan Vyetnamın Avropa və Avrasiya bazarlarına çıxışında Azərbaycanın ərazisindən keçən Orta dəhliz və "Şimal-Cənub" nəqliyyat marşrutları mühüm rol oynayır. Təsadüfi deyil ki, Vyetnamla əlaqəli tranzit daşımalarının həcmi 2026-cı ilin yanvar-sentyabr aylarında əvvəlki ilin eyni dövrü ilə müqayisədə təxminən altı dəfə artaraq 8 min tonu keçib. Prezident İlham Əliyev VNA-ya müsahibəsində bu qarşılıqlı tamamlayıcı üstünlükləri və gələcək perspektivləri belə ifadə edib: "Bu gün Vyetnam Cənub-Şərqi Asiyada dinamik inkişaf edən ölkədir, Azərbaycan isə Cənubi Qafqazda əsas logistika və energetika habıdır. Qüvvələrimizi birləşdirərək yeni bazarlara çıxa, birgə layihələr həyata keçirə, biznes və investisiya üçün əlavə imkanlar yarada bilərik. Sözsüz ki, əməkdaşlığımız ölkələrimizə və xalqlarımıza nəzərəçarpan fayda gətirə biləcək böyük quruculuq potensialına malikdir".

Bütün bu amillər göstərir ki, Prezident İlham Əliyevin Vyetnama rəsmi səfəri və Hanoyda keçirdiyi görüşlər onilliklər boyu sınaqlardan çıxmış dostluq ənənələrinin yeni dövrün praqmatik reallıqları ilə uyğunlaşdığını bir daha ortaya qoyur. Keçmişin ortaq tarixi yaddaşı, təhsil və energetika sahəsindəki təcrübə bu gün strateji tərəfdaşlıq sənədləri, bərpaolunan enerji təşəbbüsləri, tranzit həcmləri və genişlənən siyasi dialoqla tamamlanır. İki dövlətin milli maraqlarına, Avrasiya və Cənub-Şərqi Asiya arasında iqtisadi-nəqliyyat bağlantılarının möhkəmlənməsinə xidmət edən bu əməkdaşlıq qarşıdakı dövrdə yeni layihələr və daha dərin praktiki nəticələrlə özünü doğruldacaq.

İsmayıl QOCAYEV,
"Azərbaycan"

Berlin regionda sabitliyə Avropa təhlükəsizliyi gündəliyinin tərkib hissəsi kimi baxır

Azərbaycan və Almaniya 2026-cı ilin iyulunda Strateji Tərəfdaşlığın İkitərəfli Gündəliyinə dair Birgə Bəyannamə imzalayıblar. Prezident İlham Əliyevin iyul ayında Almaniyaya rəsmi səfəri zamanı əldə edilmiş razılaşmalar da indi konkret əməkdaşlıq istiqamətləri üzrə reallaşdırılır.

Milli Məclisin deputatı Nigar MƏMMƏDOVA "Azərbaycan" qəzetinə açıqlamasında dedi ki, Bakı-Berlin münasibətlərində siyasi dialoqun genişləndirilməsi ilə yanaşı, iqtisadi əməkdaşlığın dərinləşdirilməsi mərhələsi də başlayıb. Almaniyanın xarici işlər naziri Yohan David Vadefulun Azərbaycana səfəri də bu prosesin tərkib hissəsidir. Prezident İlham Əliyevlə Almaniyanın XİN başçısının rəhbərlik etdiyi nümayəndə heyətinin görüşündə Strateji Tərəfdaşlığın İkitərəfli Gündəliyinə dair Birgə Bəyannamə və Azərbaycan-Almaniya Biznes Şurasının yaradılması haqqında sənədin ikitərəfli əlaqələrin inkişafında rolundan bəhs edilib. "Görüş zamanı siyasi, iqtisadi, investisiya, biznes, ənənəvi və alternativ enerji, nəqliyyat, logistika, turizm və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə edilib. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə, bu il Azərbaycan qazının Almaniyaya ixracına başlanması və ölkəmizin Orta dəhlizdəki mühüm mövqeyi xüsusi qeyd olunub", - deyə o əlavə etdi.



Deputat dedi ki, Almaniyanın Azərbaycanla əməkdaşlığa marağını şərtləndirən əsas amillərdən biri ölkəmizin Avropanın enerji təhlükəsizliyində artan roludur. Xüsusilə Avropanın enerji mənbələrini şaxələndirmək siyasəti fonunda Azərbaycan etibarlı enerji tərəfdaşı kimi çıxış edir. Bu ildən Azərbaycan qazının Almaniyaya ixracına başlanılıb.

N.Məmmədova bildirdi ki, iqtisadi əlaqələrin göstəricilərində mühüm dəyişikliklər müşahidə olunmaqdadır: "Ötən il Azərbaycanla Almaniya arasında ticarət dövriyyəsi 1,4 milyard dollara çatıb. Burada Azərbaycanın iqtisadi maraqları baxımından xüsusi əhəmiyyət daşıyan digər istiqamət "yaşıl enerji" sektorudur. Almaniyanın texnoloji və sənaye potensialı ilə Azərbaycanın bərpaolunan enerji resurslarının bir araya gətirilməsi yeni əməkdaşlıq imkanları yaradır. İyul Bəyannaməsində "yaşıl enerji", aşağıkarbonlu hidrogen, enerji səmərəliliyi, kənd təsərrüfatı və dayanıqlı iqtisadi inkişaf ayrıca əməkdaşlıq istiqamətləri kimi müəyyənləşdirilib. Almaniya xarici işlər nazirinin Bakıya səfəri zamanı Orta dəhlizin xüsusi müzakirə mövzusu olması təsadüfi deyil. Müasir geosiyasi şəraitdə Avropa ilə Asiya arasında alternativ və etibarlı nəqliyyat-kommunikasiya marşrutlarının yaradılması iqtisadi məsələ olmaqla yanaşı, həm də strateji təhlükəsizlik məsələsinə çevrilib".

Deputat vurğuladı ki, Bakıda XİN başçılarının görüşündə də Orta dəhliz, Ələt Azad İqtisadi Zonası və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının inkişafı istiqamətində alman şirkətləri üçün mövcud imkanlar bir daha gündəmə gəlib. David Vadefulun regiona səfəri zamanı Cənubi Qafqazda sülh prosesinin dəstəklənməsi, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması, kommunikasiyaların açılması da müzakirə olunub. Almaniyanın xarici işlər naziri Bakıya səfəri ərəfəsində yaydığı bəyanatda da regionun müharibə və zorakılıq dövrünü geridə qoymaq üçün tarixi imkan əldə etdiyini bildirib. O, 2025-ci ildə Vaşinqtonda əldə edilmiş razılaşmaların əhəmiyyətini vurğulayaraq, sülhün davamlı xarakter almasının vacibliyini qeyd edib. "Görünən budur ki, rəsmi Berlin Cənubi Qafqazda sülh və sabitliyin təmin olunmasını Avropa təhlükəsizliyi gündəliyinin tərkib hissəsi kimi nəzərdən keçirir. Almaniya XİN başçısı Bakıda da bəyan etdi ki, davamlı sülh və açıq sərhədlər təkcə region xalqlarına deyil, həm də bütün Avropanın təhlükəsizliyinə və sabitliyinə fayda gətirəcək. Çünki regionun nəqliyyat və enerji imkanları Avropanın iqtisadi maraqları ilə birbaşa bağlıdır", - deyə deputat bildirdi.

N.Məmmədova xatırlatdı ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən bərpa-quruculuq işləri, keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı və mina təhlükəsi məsələsi də müzakirə olunub. Almaniyanın Birgə Strateji Gündəliyində mina fəaliyyəti sahəsində əməkdaşlığın ayrıca qeyd olunması da əhəmiyyətlidir. Bu, ikitərəfli münasibətlərin təhlükəsizlik və humanitar sahələrə də şamil edildiyini göstərir.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

Azərbaycan-Vyetnam münasibətləri yeni iqtisadi məzmun qazanır

Prezident İlham Əliyevin Vyetnama rəsmi səfəri iki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi və yeni tərəfdaşlıq imkanlarının reallaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycan ilə Vyetnam arasında münasibətlər dərin tarixi köklərə, qarşılıqlı hörmətə və dostluq ənənələrinə əsaslanır. Bu münasibətlərin 65 ildən artıq tarixə malik olması ölkələrimiz arasında siyasi, iqtisadi və humanitar əlaqələrin möhkəm təməl üzərində formalaşdığını göstərir. Dövlət başçısının səfəri isə mövcud əlaqələrin yeni məzmunla zənginləşdirilməsi, iqtisadi tərəfdaşlığın genişləndirilməsi və qarşılıqlı maraq doğuran yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.



Milli Məclisin deputatı Azər BADAMOV qəzetimizə açıqlamasında dedi ki, strateji tərəfdaşlıq münasibətlərinin formalaşması üçün iki ölkə arasında imzalanan sənəd ilk növbədə iqtisadi əlaqələrin daha geniş müstəvidə inkişaf etdirilməsi üçün əlverişli siyasi və hüquqi zəmin yaradır. Bu, yalnız mövcud əməkdaşlığın davam etdirilməsini deyil, həm də yeni iqtisadi layihələrin, investisiya təşəbbüslərinin və uzunmüddətli biznes tərəfdaşlığının reallaşdırılmasını stimullaşdıracaq.

A.Badamov vurğuladı ki, Azərbaycan-Vyetnam iqtisadi əlaqələrində enerji sektoru xüsusi yer tutur: "Bu əməkdaşlığın kifayət qədər zəngin tarixi var. Hələ sovet dövründə Azərbaycanın neft mütəxəssisləri Vyetnamın neft-qaz sənayesinin inkişafında iştirak edərək öz bilik və təcrübələrini bölüşüblər. Bu gün həmin ənənə müasir iqtisadi münasibətlər çərçivəsində yeni məzmun qazanır. Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə Vyetnamın "PetroVietnam" şirkəti arasında əməkdaşlığın genişləndirilməsi hər iki ölkə üçün qarşılıqlı faydalı imkanlar yaradır. 2025-ci ildə imzalanmış Anlaşma Memorandumu çərçivəsində neft-qaz sahəsində geoloji tədqiqatların aparılması, yeni yataqların işlənməsi və digər istiqamətlər üzrə əməkdaşlığın davam etdirilməsi nəzərdə tutulur. Burada Azərbaycanın üstünlüyü yalnız enerji resursları ilə məhdudlaşmır. Ölkəmiz uzun illər ərzində formalaşmış neft-qaz infrastrukturu, mühəndislik təcrübəsi, texnoloji imkanları və beynəlxalq enerji bazarlarında qazandığı mövqeyi ilə Vyetnam üçün mühüm tərəfdaş ola bilər. Eyni zamanda Vyetnam bazarının imkanları Azərbaycan şirkətləri üçün Asiya regionunda fəaliyyət coğrafiyasını genişləndirmək baxımından əhəmiyyətlidir".

Deputat bildirdi ki, bərpaolunan enerji sahəsində də ciddi perspektivlər mövcuddur. Bakıda keçirilmiş beynəlxalq investisiya forumu çərçivəsində Vyetnamın "ROX Group" şirkəti ilə əldə olunan razılaşmalar günəş və külək enerjisi sahələrində əməkdaşlığın inkişafı üçün yeni imkanlar açır. Bu, Azərbaycanın "yaşıl enerji" strategiyası ilə Vyetnamın enerji sektorunun inkişaf prioritetlərinin uzlaşdırılması baxımından mühüm addımdır. Azərbaycan ilə Vyetnam arasında iqtisadi əməkdaşlığın digər mühüm istiqaməti ticarət əlaqələridir. Mövcud göstəricilər iki ölkə arasında ticarət dövriyyəsinin müəyyən səviyyəyə çatdığını göstərsə də, bu rəqəmlər tərəfdaşlığımızın real potensialını tam əks etdirmir. Ticarət dövriyyəsinin 2024-cü ildə 200 milyon dollar, 2025-ci ildə isə 150 milyon dollardan artıq olması müsbət göstəricidir. Bununla belə, iqtisadi münasibətlərin genişləndirilməsi üçün daha böyük imkanlar mövcuddur.

Deputat vurğuladı ki, Azərbaycanın mühüm tranzit ölkə kimi mövqeyi Vyetnamın Avropa bazarlarına çıxışı baxımından əlverişli imkanlar yaradır. Xüsusilə Orta dəhliz bu istiqamətdə mühüm nəqliyyat marşrutu kimi çıxış edə bilər. Bu ilin ilk doqquz ayında Orta dəhliz vasitəsilə 8 min tondan çox Vyetnam mənşəli yükün daşınması bu istiqamətdə əməkdaşlığın artıq praktik müstəviyə keçdiyini göstərir. Bu göstəricinin gələcəkdə daha da yüksəldilməsi üçün logistika xidmətlərinin optimallaşdırılması, daşımaların artan sürəti və səmərəliliyi, gömrük prosedurlarının sadələşdirilməsi və multimodal nəqliyyat imkanlarının genişləndirilməsi vacibdir. Eyni zamanda Vyetnam Azərbaycanın Cənub-Şərqi Asiya bazarlarına çıxışı üçün də mühüm tərəfdaş ola bilər. Beləliklə, əməkdaşlıq birtərəfli iqtisadi maraqlara deyil, qarşılıqlı ticarət imkanlarının genişləndirilməsinə və hər iki ölkənin regional bazarlarda mövqelərinin gücləndirilməsinə xidmət edə bilər.

Deputat qeyd etdi ki, Azərbaycan-Vyetnam münasibətlərinin gələcək inkişafında iqtisadi əməkdaşlıq aparıcı istiqamətlərdən birinə çevriləcək. Enerji, sənaye, investisiya, "yaşıl iqtisadiyyat" və nəqliyyat-logistika sahələrində birgə layihələrin həyata keçirilməsi hər iki ölkənin iqtisadi maraqlarına xidmət etməklə yanaşı, xalqlarımız arasında dostluq münasibətlərini daha da möhkəmləndirəcək. Bütün bunlar onu deməyə əsas verir ki, tarixi dostluq üzərində qurulmuş Azərbaycan-Vyetnam münasibətləri bu gün yeni iqtisadi məzmun qazanır. Qarşılıqlı etimad, siyasi iradə və iqtisadi maraqların uzlaşdırılması sayəsində ölkələrimiz arasında əməkdaşlığın daha yüksək səviyyəyə qalxması üçün geniş perspektivlər mövcuddur.

Ə.QARDAŞXANOVA,
"Azərbaycan"

Brüsseldə Pan-Avropa Regional Şurasının İcraiyyə Komitəsinin 24-cü iclası keçirilib

Belçikanın paytaxtı Brüssel şəhərində Pan-Avropa Regional Şurasının (PARŞ) İcraiyyə Komitəsinin 24-cü iclası keçirilib.






Tədbirdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndə heyəti iştirak edib.

PARŞ-ın baş katibi Ester Linç gündəlikdəki məsələləri diqqətə çatdırıb, təşkilatın fəaliyyəti və qarşıdakı dövr üçün prioritetləri barədə məlumat verib.

Tədbirdə PARŞ-ın 2027-ci il üzrə Fəaliyyət Planı, Baş Assambleyasına hazırlıq, Qadınlar və Gənclər komitələrinin hesabatları və maliyyə məsələləri nəzərdən keçirilib. Həmçinin BHİK-in sosial dialoq üzrə sorğusunun nəticələri, 2027-ci il üzrə gündəliyi və növbəti qurultaya hazırlığın gedişi müzakirə olunub.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov çıxışında ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar, o cümlədən əmək hüquqlarının qorunması sahəsində görülən işlər barədə məlumat verib.

Azərbaycan həmkarlar ittifaqları tərəfindən bu istiqamətdə reallaşdırılan tədbirlər barədə danışan konfederasiya sədri beynəlxalq əməkdaşlığa xüsusi önəm verildiyini qeyd edib, yeni çağırışlar fonunda ölkələrin həmkarlar ittifaqları arasında əlaqələrin



gücləndirilməsinin, birgə yanaşmaların formalaşdırılmasının və qabaqcıl təcrübələrin tətbiqinin əhəmiyyətini diqqətə çatdırıb.

Çıxışda beynəlxalq əmək standartlarının, o cümlədən BƏT-in konvensiyalarının tələblərinin milli qanunvericilikdə nəzərə alınmasının, qadınların və gənclərin həmkarlar ittifaqlarının fəaliyyətində, kollektiv danışıqlarda və qərarların qəbulunda fəallığının artırılmasının önəmi vurğulanıb.

İclasda gündəlikdəki məsələlərlə bağlı fikir mübadiləsi aparılıb və müvafiq qərarlar qəbul edilib.

Səfər çərçivəsində Pan-Avropa Regional Şurasının baş katibi və bir sıra ölkələrin həmkarlar ittifaqları təşkilatları ilə görüşlər nəzərdə tutulub.

Nərminə ƏSGƏROVA,
"Azərbaycan"

Neftverməni artırmaq üçün innovativ yanaşmalar və yeni texnologiyalardan istifadə olunur

Prezident İlham ƏLİYEV: "Azəri-Çıraq-Günəşli"də obyektiv səbəblərə görə hasilatın düşmə templəri var. Çalışırıq ki, bu templəri sabitləşdirək"



Hazırda "Azəri-Çıraq-Günəşli"də (AÇG) hasilatın təbii azalma tempini idarə etmək və bu yataqlar blokundan maksimum neftverməyə nail olmaq layihənin operatoru və tərəfdaşlarının, ümumiyyətlə, ölkənin neft sənayesinin qarşısında dayanan əsas vəzifələrdəndir.

Məlumdur ki, "Əsrin müqaviləsi" adını almış bu möhtəşəm layihə çərçivəsində ilk neft "Çıraq" yatağından 1997-ci ilin noyabr ayında hasil edilib. İndiyə qədər AÇG-dən təxminən 4,7 milyard barel neft alınıb. Bu vaxta qədər çıxarılan səmt qazının böyük hissəsi müqavilənin şərtlərinə uyğun şəkildə təmənnasız olaraq Azərbaycan dövlətinə təhvil verilib. Təhvil verilən səmt qazının həcmi ümumilikdə 63 milyard kubmetrdən çox təşkil edir.

AÇG-nin öz hasilatının pik dövrünü yaşamış olduğu artıq hamıya bəllidir. Deməli, blokdan hasilatın azalması da təbii haldır. Bununla belə, AÇG tükənməyib, onun neft ehtiyatları hələ var. Bu ilin iyun ayından isə bu yataqlar bol sərbəst qaz sərvətinə malik olduqları "sirr"ini də açıb. Odur ki, "Azəri-Çıraq-Günəşli"nin ehtiyatlarının maksimum üzə çıxarılması, bunun üçün lazımi tədbirlərin görülməsi günümüzün prioritetlərindəndir.

Bu il sentyabrın 22-də "Azərbaycan Respublikasında 2027-2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı"na həsr olunmuş müşavirədə Prezident İlham Əliyev demişdir: "Əgər ölkə iqtisadiyyatının ümumi inkişafına baxsaq görərik ki, artım templəri çox da böyük deyil. Bunun təbii səbəbləri var, ilk növbədə, təbii neft hasilatının aşağı düşməsi. Bizim əsas neft yatağımız "Azəri-Çıraq-Günəşli" artıq 30 ilə yaxındır istismardadır və təbii ki, obyektiv səbəblərə görə hasilatın düşmə templəri də var. Çalışırıq ki, bu templəri sabitləşdirək. Eyni zamanda əminəm ki, yeni layihələr bundan sonra da Azərbaycanda neft hasilatını lazımi səviyyədə saxlayacaq və ümid edirəm, hətta artım da olacaq".

Dövlətimizin başçısı həmin məsələyə bundan əvvəl də dəfələrlə toxunub. Odur ki, AÇG-nin işlənməsi layihəsinin operatoru olaraq BP bu istiqamətdə SOCAR-la sıx əməkdaşlıq edir. Birgə səylər nəticəsində AÇG-də hasilatın illik azalma tempini 2023-cü ildəki təxminən 12 faizdən hazırda təxminən 3 faizə endirmək mümkün olub. Bu da sənaye üzrə orta göstəricidən əhəmiyyətli dərəcədə aşağıdır. Belə bir nəticə yetkin mərhələdə olan blokdan hasilatın uzunmüddətli davamlılığının təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlərin səmərəsini göstərir.

Tədbirlər dörd əsas istiqamət üzrə həyata keçirilir. Beləliklə, AÇG kimi nəhəng yataqlar blokunun yetkin işlənmə mərhələsinə keçdiyi bir vaxtda hasilatın uzunmüddətli davamlılığının təmin edilməsində innovativ yanaşmaların və yeni texnologiyaların rolu daha da artır.

Texnologiya və innovasiyanın strateji tətbiqi öz bəhrəsini verir. Seysmik tədqiqatlarda dördölçülü (4D) texnologiyanın tətbiqi, multilüləli quyuların qazılması, üfüqi qazma, qabaqcıl geonaviqasiya və "ağıllı" tamamlama sistemləri də daxil olmaqla, müxtəlif innovativ həllərdən istifadə edilir ki, bu da bütün yataq miqyasında neftverməni daha da artırmaq üçün geniş imkanlar yaradır. Məsələn, 2024-cü ilin əvvəlində BP şirkəti AÇG-də yeni dördölçülü yüksəkdəqiqlikli dənizdibi qovşaqlarla seysmik tədqiqat proqramına başladı. Tədqiqatın əhatə ərazisi, aparılacaq işlərin ümumi dəyəri və müddəti baxımından bu layihə BP-nin dünyada indiyədək həyata keçirdiyi ən böyük seysmik məlumat toplama proqramıdır. Bu genişmiqyaslı seysmik tədqiqat proqramını həyata keçirməkdə məqsəd yataqların arxitekturası və maye kontaktının dinamikası barədə ətraflı məlumat əldə etməkdir.

AÇG-nin məhsuldar layları olan Balaxanı və Fasilə dəstələrinin tədqiqinə yönəlmiş bu proqram seysmik mənbənin altında 740 kvadratkilometr, qəbuledicilərin altında isə 507 kvadratkilometrlik bir ərazini əhatə edir. Proqramın ümumi dəyərinin təxminən 370 milyon dollar, icra müddətinin isə beş il (2024-2028) olacağı planlaşdırılıb.

Tədqiqatın ilk iki ili ərzində toplanmış məlumatların təhlili artıq lay daxilində maye hərəkətini izləməyə, qalan ehtiyatların yerini müəyyən etməyə və quyuları daha dəqiq planlaşdırmağa imkan verir.

2026-cı ildə BP ilk dəfə olaraq AÇG-də multilüləli quyu (MLT) texnologiyasını uğurla tətbiq edib. Bu texnologiya bir quyu lüləsindən laykollektora bir neçə yerdən daxil olmağa imkan verməklə oraya çıxışı genişləndirmək, drenaj səmərəliliyini artırmaq və mövcud infrastrukturdan maksimum faydalanmaq üçün şərait yaradır.

İlk belə quyu - C44 quyusu "Qərbi Azəri" platformasından qazılıb və artıq uğurla təhvil verilib. Bu, Xəzərdə indiyədək qazılmış ilk multilüləli quyu olmaqla, AÇG layihəsi üçün əlamətdar bir nailiyyətdir.

AÇG-də texnologiyaların strateji tətbiqi çərçivəsində BP bütün yataqlar miqyasında multilüləli quyuların qazılması məqsədilə geniş bir kampaniya həyata keçirməyi planlaşdırır. Bu kampaniyaya 2026-cı ildə üç MLT quyusu ilə start verilib və onlardan ikisi - C44 və D41 quyuları artıq istismara verilib. Uzunmüddətli perspektivdə isə 2027-2028-ci illər ərzində daha çox sayda multilüləli quyuların qazılması nəzərdə tutulur. Bu, həmin texnologiyanın blokun gələcək hasilatında mühüm rol oynayacağını bir daha vurğulayır.

Bu yaxınlarda "Şərqi Azəri" platformasından təhvil verilmiş D18Z neft hasilatı quyusu indiyədək AÇG-də qazılmış quyular arasında ən uzun lay təmasına malik quyu olmaqla, layihə üçün daha bir əlamətdar nailiyyətdir. Quyuda 2000 metrdən çox uzunluqda açıq lülə hissəsi qazılıb. Bunun 1500 metrdən çoxu hədəf məhsuldar lay daxilində qum hissəsindən keçib. Bu nailiyyət AÇG-dən əlavə dəyərin üzə çıxarılmasında qabaqcıl seysmik görüntüləmə, qazma və tamamlama texnologiyalarının rolunu bir daha vurğulayır.

Bütün bu tədbirlər məhsuldar laylara çıxışı genişləndirmək, mövcud infrastrukturdan daha səmərəli istifadə etmək və uzunmüddətli hasilatın davamlılığını təmin etmək üçün yeni imkanlar yaratmaqla, yetkin mərhələdə olan dünya səviyyəli AÇG blokunun idarə edilməsində yeni bir yanaşma formalaşdırır.

Vurğulayaq ki, bu deyilənlər AÇG-də neftverməni artırmaq üçün həyata keçirilən dörd istiqamətdən biridir.

Flora SADIQLI,
"Azərbaycan"

Məşğulluğun sınanmış modeli: dövlət-biznes tərəfdaşlığı



İqtisadi inkişafın davamlı olması bir qədər də dövlətlə özəl sektor arasında sıx əməkdaşlıqdan asılıdır. Biznesin iqtisadi və sosial proseslərdə fəal iştirakı, yeni iş yerlərinin yaradılması və əhalinin məşğulluğunun təmin edilməsi bu əməkdaşlığın əsas istiqamətlərindəndir. Əmək bazarında dəyişən tələblər, yeni peşə və bacarıqlara ehtiyac dövlət və biznesin birgə fəaliyyətini daha da vacib edir. Bu günlər Azərbaycanda ilk dəfə keçirilən Dövlət-Biznes Əməkdaşlığı Forumu bu sahədə əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı dialoqun gücləndirilməsi baxımından önəmli addımdır.

Bu baxımdan dövlət və biznes arasında birbaşa dialoqun qurulması, tərəflərin əməkdaşlıq imkanlarının genişləndirilməsi və ortaq təşəbbüslərin dəstəklənməsi vacibdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə "Məşğulluq həftəsi" çərçivəsində "Gülüstan" sarayında keçirilən, "İmkanlar və inam" devizi daşıyan forumda dövlət qurumları, işəgötürənlər, sosial tərəfdaşların və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri iştirak ediblər. Tədbirin əsas məqsədi qeyd etdiyimiz sahədə birbaşa dialoqu gücləndirmək, qarşılıqlı etimadı artırmaq, biznes subyektlərinin dövlət dəstəyi mexanizmləri barədə məlumatlılığını genişləndirmək və əmək bazarının aktual problemlərinin birgə həlli üçün təkliflər müəyyənləşdirmək olub.

Forumun əhəmiyyətini şərtləndirən əsas məqamlardan biri dövlətin məşğulluq siyasətində işəgötürənlərə münasibətin yeni məzmun qazanmasıdır. Tədbirdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev son illər həyata keçirilən sosial islahatlar fonunda dövlət məşğulluq siyasətinin də əmək bazarının müasir çağırışlarına uyğun olaraq əhəmiyyətli dəyişikliklərə məruz qaldığını vurğulayıb. Nazirliyin işəgötürənlərlə münasibətlərini daha çox xidmət modeli əsasında qurması və əməkdaşlığın gücləndirilməsi bu prinsiplərin əsas istiqamətlərindəndir.

Dövlət və biznes əməkdaşlığının əhəmiyyətini konkret nəticələr üzərindən qiymətləndirmək daha məqsədəuyğundur. Forumda təqdim olunan statistik göstəricilər məşğulluq proqramlarının əhatə dairəsinin genişləndiyini göstərir. Belə ki, son illər işlə təmin olunanların illik sayı 3,4 dəfə, özünüməşğulluq proqramına cəlb edilənlərin sayı 5,7 dəfə, peşə hazırlığına cəlb olunanların sayı 4,1 dəfə artıb. Kvota üzrə işlə təmin edilənlərin sayında 2,6 dəfə, əməkhaqqının birgə maliyyələşməsi proqramına cəlb olunanların sayında isə 3,5 dəfə artım qeydə alınıb. Bu rəqəmlər məşğulluq siyasətinin müxtəlif istiqamətlərində fəaliyyət miqyasının genişləndiyini nümayiş etdirir.

Dövlət-biznes əməkdaşlığının digər mühüm istiqaməti əmək münasibətlərinin rəsmiləşdirilməsi və qeyri-formal məşğulluğun azaldılmasıdır. Forumda səsləndirilən məlumatlara əsaslanaraq deyə bilərik ki, özəl sektorda cari ilin ilk 10 ayında əmək müqavilələrinin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 59 min artıb. Bu göstərici əmək bazarının şəffaflaşdırılması istiqamətində aparılan işlərin nəticələrindən biri kimi diqqət çəkir. Əmək müqavilələrinin sayının artması işçilərin sosial təminatının gücləndirilməsi, əmək hüquqlarının qorunması və biznes fəaliyyətinin daha şəffaf müstəvidə qurulması baxımından əhəmiyyətlidir.

Məsələnin digər tərəfi isə dövlət nəzarəti ilə biznesə dəstək arasında düzgün balansın yaradılmasıdır. Əmək qanunvericiliyinin tələblərinə əməl olunması üçün işəgötürənlərə yalnız nəzarət etmək kifayət deyil. Onları qanunvericiliyin tələbləri barədə məlumatlandırmaq, maarifləndirmək və lazımi dəstək göstərmək vacibdir. "Əmək və Məşğulluq" altsistemi, "DOST müfəttiş" və "Nümunəvi müəssisə" layihələri məhz bu istiqamətdə həyata keçirilən mexanizmlərdir. Onların tətbiqi işəgötürənlərin müvafiq xidmətlərdən istifadəsini, əmək qanunvericiliyinin tələbləri barədə məlumatlılığını və əmək münasibətlərinin daha səmərəli təşkilini dəstəkləyir.

Dövlət-biznes əməkdaşlığının iqtisadi nəticələri ilə yanaşı, onun sosial tərəfi də xüsusi əhəmiyyət daşıyır. Çünki məşğulluq siyasətinin əsas hədəflərindən biri müxtəlif sosial qrupların əmək bazarına çıxış imkanlarının genişləndirilməsidir. Forum çərçivəsində gənclərin və qadınların, müharibə veteranlarının, şəhid ailəsi üzvlərinin və əlilliyi olan şəxslərin məşğulluğunun təminatında böyük rolu olan 5 özəl sosial tərəfdaşın mükafatlandırılması bu baxımdan vacib məsajdır. Bu təşəbbüs biznesin sosial məsuliyyətinin konkret fəaliyyətlə ifadə olunmasının əhəmiyyətini göstərir. Özəl sektor üçün sosial məsuliyyət, sadəcə, xeyriyyəçilik və korporativ imic məsələsi olmamalıdır. İnsan kapitalına sərmayə qoymaq, əmək bazarında bərabər imkanların yaradılmasına dəstək vermək və cəmiyyətin müxtəlif təbəqələrinin iqtisadi fəallığını artırmaq mütləqdir.

Tədbirdə həyata keçirilən panel müzakirələri dövlət-biznes münasibətlərinin müxtəlif istiqamətlərini əhatə edib. İşəgötürənlərin gözləntiləri, dövlət dəstəyi və əməkdaşlıq imkanları, qurumların fəaliyyəti, əmək bazarının aktual məsələləri, biznes birliklərinin rolu və sosial məsuliyyət mövzularının müzakirəsi dövlət və özəl sektor arasında qarşılıqlı anlaşmanın gücləndirməsinə, yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinə xidmət edir. Belə platformaların əsas üstünlüyü ondadır ki, dövlət qurumları əmək bazarının real iştirakçılarının ehtiyaclarını birbaşa öyrənmək, biznes nümayəndələri isə mövcud dəstək və təşviq mexanizmləri barədə daha ətraflı məlumat əldə etmək imkanı qazanırlar. Həmin dialoq nəticəsində ortaya çıxan təkliflər gələcək əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinə də töhfə verə bilər.

Lakin hər bir forumun və müzakirə platformasının əsl dəyəri səsləndirilən fikirlərin sonradan hansı praktik nəticələrə çevrilməsi ilə ölçülür. İşəgötürənlərin təkliflərinin nəzərə alınması, dövlət dəstəyi mexanizmlərinin daha əlçatan olması, peşə hazırlığının biznesin real tələblərinə uyğunlaşdırılması və sosial tərəfdaşlığın genişləndirilməsi bu əməkdaşlığın davamlılığını təmin edən əsas amillərdir. İlk Dövlət-Biznes Əməkdaşlığı Forumu da məhz belə bir əməkdaşlıq mədəniyyətinin inkişafı üçün yeni platformadır.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"

Azərbaycan daha bir beynəlxalq qiymətləndirmədə önə çıxıb

Dünyada müasir texnologiyalardan istifadə istehsalı artırmağa əlavə imkan verir. Bu isə öz növbəsində istehsal olunan məhsulun bazarda tez satılması şərtini diktə edir. Deməli, buna nail olmaq üçün bürokratik əngəllər aradan qaldırılmalıdır ki, onun da yolu ölkələr arasında elektron hesab-fakturaların tanınmasıdır.



Məlum olduğu kimi, hazırda Orta dəhlizlə yüklərin daşınması qlobal əhəmiyyət kəsb edir. Ona görə də Asiya ilə Avropa arasında qarşılıqlı ticarətin sürətlənməsində yeni üsuldan istifadəyə böyük ehtiyac yaranıb. Çünki kağızsız ticarət, başqa sözlə, elektron hesab-fakturaların qarşılıqlı tanınması gömrük rəsmiləşdirilməsini sürətləndirməyin yeganə yoludur.

Söz düşmüşkən qeyd edək ki, BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyası (ESCAP) və Beynəlxalq İslam Ticarət Maliyyə Korporasiyası (ITFC) Azərbaycan və Qazaxıstanı elektron hesab-fakturaların sərhədlərarası mübadiləsi və qarşılıqlı tanınması üzrə ilkin sınaq üçün əlverişli tərəfdaşlar kimi müəyyənləşdirib. İrəli sürülən təşəbbüs Orta dəhlizdə gömrük prosedurlarının sadələşdirilməsinə, sənəd dövriyyəsinin rəqəmsallaşdırılmasına və ticarət əməliyyatlarının sürətləndirilməsinə imkan yarada bilər. Bununla bağlı Azərbaycan və Qazaxıstan Orta dəhlizdə elektron hesab-fakturaların qarşılıqlı tanınması üzrə pilot layihəyə namizəd göstərilib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) İqtisadi təhlil şöbəsi müdirinin müavini Rəşad Nəcəfli bildirir ki, "TCCA+ ölkələrində sərhədlərarası elektron hesab-faktura sisteminin inkişafı: Subregional tədqiqat" ("Advancing Cross-border Electronic Invoicing in TCCA+ Countries: A Subregional Study") adlı hesabatda Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistanın elektron hesab-faktura sistemləri 6 meyar üzrə qiymətləndirilib: "Azərbaycanda indiyədək görülən işlər ölkəmizin bu sahədə yüksək reytinqə malik olmasını təmin edib. Dünyanın nüfuzlu qurumları tərəfindən aparılan qiymətləndirməyə görə, Azərbaycan mümkün 30 baldan 24-nü toplayıb. Ölkəmiz hüquqi baza, tətbiq modeli və vergi inzibatçılığına inteqrasiya üzrə maksimum 5, strukturlaşdırılmış məlumat formatları üzrə 4, beynəlxalq uyğunluq üzrə 3, rəqəmsal ticarət sistemlərinə inteqrasiya üzrə 2 bal əldə edib. Sonuncu meyar üzrə müəyyən edilmiş minimum tələbə əsasən, Azərbaycanın ümumi rəqəmsal yetkinlik səviyyəsi 'Tier 2' (ikinci səviyyə) kimi qiymətləndirilib. Bu, ölkədə elektron hesab-faktura sisteminin formalaşdığını, lakin sərhədlərarası məlumat mübadiləsi və beynəlxalq sistemlərlə inteqrasiya imkanlarının daha da inkişaf etdirilməsinə ehtiyac olduğunu göstərir".

Rəşad Nəcəflinin sözlərinə görə, hazırda gömrük prosedurlarında hesab-fakturalar çox vaxt PDF formatında təqdim olunur və məlumatların bir hissəsi bəyannaməyə yenidən daxil edilir: "Azərbaycanla Qazaxıstan arasında strukturlaşdırılmış elektron məlumat mübadiləsinin qurulması bu prosesin avtomatlaşdırılmasına imkan verər. Nəticədə Xəzərin bir sahilində rəsmiləşdirilən hesab-faktura digər sahildə elektron qaydada yoxlanılaraq gömrük prosedurlarında istifadə oluna bilər".

Beynəlxalq və regional qurumlar tərəfindən ilkin mərhələdə mövcud sistemlərin qarşılıqlı işləmə imkanlarının texniki sınaqdan keçirilməsinin təklif edildiyini deyən ekspert deyir ki, bu çərçivədə elektron hesab-fakturaların mübadiləsi, xarici elektron imzaların etibarlılığının üçüncü tərəf vasitəsilə yoxlanılması və təsdiqlənmiş məlumatların gömrük rəsmiləşdirilməsində istifadəsi sınaqdan keçirilə bilər və növbəti mərhələdə real ticarət əməliyyatlarını əhatə edən pilot layihənin həyata keçirilməsi ilkin nəticələrdən asılı olacaq.

"Elektron imzaların tanınması istiqamətində bir sıra yeni prosedurların yerinə yetirilməsi vacibdir. Bunun üçün elektron imzaların qarşılıqlı tanınmasının hüquqi əsaslarının müəyyənləşdirilməsi və milli məlumat formatlarının UBL və ya Peppol PINT kimi beynəlxalq standartlara uyğunlaşdırılması mühüm əhəmiyyət daşıyır. Vergi və gömrük sistemləri arasında inteqrasiya təmin edilərsə, yük sərhədə çatmazdan əvvəl məlumatların yoxlanılması və risklərin qiymətləndirilməsi mümkün olar", - deyə R.Nəcəfli bildirib. Onun sözlərinə görə, Rəqəmsal Logistika Platforması elektron hesab-fakturaların Orta dəhliz üzrə digər ticarət və daşıma sənədləri ilə inteqrasiyası üçün də əlavə imkanlar yaradır: "Bu yanaşma ölkəmizin rəqəmsal inkişafının sürətləndirilməsinə dair 2026-2028-ci illər üzrə Fəaliyyət Planında nəzərdə tutulan dövlət informasiya sistemlərinin inteqrasiyası və məlumatların bir dəfə təqdim edilməsi prinsiplərinə də uyğundur".

Rüstəm KAMAL,
"Azərbaycan"

REGİONLAR

● Dağ-mədən yataqlarımız

Dünyanın ən böyük polimetal yataqlarından biri Balakəndədir

"Filizçay"ın işlənməsi layihəsinə xarici investorların da maraq göstərəcəyi istisna deyil

Azərbaycanın dağ-mədən sənayesi indiyədək yüksək səviyyədə inkişaf etməyib. Bunun da həm obyektiv, həm subyektiv səbəbləri var. Sovet dönəmində prioritet neft sənayesi olduğu üçün dağ-mədən yataqlarımızda kifayət qədər kəşfiyyat işləri aparılmayıb. Sonrakı dövrdə isə Qarabağda və Şərqi Zəngəzurdakı bir çox faydalı qazıntı yataqlarımız işğal altında idi. Düşmən bu bölgələrdəki yataqları elə düşməncəsinə də istismar edirdi.



Həmin səbəblərdən də, Prezident İlham Əliyevin sözləri ilə desək, "bir çox yataqlarımız, yəni perspektivli yataqlarımız bu gün hələ də öz geoloji kəşfiyyat dövrünü gözləyir. Bunun, əlbəttə ki, bu tərəfi müsbətdir. Çünki bu ehtiyatlar bu gün yerin altındadır".

Yerin altındakı o sərvəti üzə çıxarmaq, iqtisadi inkişafa yönəltmək üçün Prezident İlham Əliyev 23 sentyabr 2026-cı il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair 2027-2030-cu illər üçün Dövlət Proqramı"nı təsdiq edib. Bir gün ondan əvvəl isə dövlətimizin başçısının keçirdiyi müşavirədə sahənin vəziyyəti və perspektivləri müzakirə olunub. Həm sözügedən sənəddə, həm də müşavirənin materiallarında "Filizçay" yatağının da adı tez-tez çəkilir.

Qeyd edək ki, "Filizçay" polimetal yatağı respublikamızın Balakən rayonunda, Balakənçayın sağ qolu olan Qarabçayın hövzəsində yerləşən nəhəng mineral xammal mənbəyidir. Bura Böyük Qafqazın cənub yamacı, dəniz səviyyəsindən 1110-2270 metr yüksəklikdə olan bir ərazidir.

"Filizçay" ehtiyatlarının həcminə görə dünyanın ən böyük polimetal yataqlarından biridir. Avropada ikinci ən iri kolçedan-polimetal yatağı hesab olunur.

Yatağın əsas komponentləri sink, mis, qurğuşun və gümüşdür. Əlavə olaraq kükürd, qızıl, vismut, kobalt, kadmium, selen, tellur və indium ilə də zəngindir. Onun JORC (dağ-mədən sənayesində kəşfiyyat nəticələrinin, mineral resursların və filiz ehtiyatlarının ictimai hesabatlılığı üçün müəyyən edilmiş standartlar) standartlarına əsasən təsdiqlənmiş filiz ehtiyatı təxminən 112,71 milyon tondur. Yataq 1959-cu ildə geoloq Surxay İsmayılov tərəfindən kəşf edilib.

"Filizçay"ın səhmdarı "AzerGold" QSC-dir. Yataq QSC-nin ən iri layihələrindən biridir və ölkə rəhbərliyinin strateji planlarına əsasən yaxın gələcəkdə istismara verilməsi nəzərdə tutulur.

Sözügedən müşavirədə Prezident İlham Əliyev demişdir: "Növbəti istiqamət Avropa qitəsində ən perspektivli yataqlardan biri sayılan Balakən rayonunda yerləşən "Filizçay" polimetal yatağıdır. Bu yataq qeyd etdiyim kimi, çox perspektivlidir və artıq bir neçə ildir ki, "AzerGold" şirkəti bu yatağın istismara hazırlanması ilə bağlı işlər görür. Hesab edirəm ki, tezliklə texniki-iqtisadi əsaslandırma hazır olmalıdır və yekun investisiya qərarı da qəbul edilməlidir. Mən hesab edirəm ki, "AzerGold" bu yatağın 100 faiz səhmdarı olmalıdır. İstismar getdikcə təbii ki, bu yatağın qiyməti də, dəyəri də qalxacaq. Onda biz baxa bilərik. Ola bilər, müəyyən faiz səviyyəsində, - əgər maraq olarsa, mən əminəm ki, olacaq, - xarici investorlar da bu yatağa cəlb oluna bilər".

İqtisadiyyat naziri Mikayıl Cabbarov belə hesab edir ki, dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair dövlət proqramı yalnız 2030-cu ilədək olan dövrü əhatə etmir, sonrakı mərhələ üçün də böyük inkişaf imkanları müəyyənləşdirir. O bildirib ki, "Filizçay"ın mis, sink və qurğuşun ehtiyatlarının iqtisadi dövriyyəyə cəlb edilməsi imkanları o dövrə qədər qiymətləndiriləcək və yekunlaşdırılacaq. İlk mərhələdə yerli xammal potensialını reallaşdırmaq və mövcud yataqlar üzrə hasilatı artırmaq nəzərdə tutulur. "Dəmirli", "Söyüdlü", "Filizçay", Naxçıvandakı yataqlar və digər perspektivli sahələr hesabına xammal bazasının genişləndirilməsi hədəflənir.

Beləliklə, dövlət proqramının icrası nəticəsində 2030-cu ilədək əsas hədəf "Filizçay", "Daşkəsən", "Ortakənd" və "Söyüdlü" yataqlarının istismara hazırlanmasıdır.

"Filizçay"a gəldikdə isə demək olar ki, dünyadakı polimetal yataqları heç də bir-birinə bənzəmir. "Filizçay" geoloji və digər amillərinə görə ən mürəkkəb yataqlardan biridir. Layihənin tam gücü ilə istismara verilməsi 2031-ci ilin sonuna planlaşdırılır.

Yatağın 34 illik istismarı dövründə 363 min ton mis, 2,7 milyon ton sink və 1 milyon ton qurğuşun resursunun hasilata cəlb edilməsi planlaşdırılır. Layihənin iqtisadi dəyəri 29,7 milyard manat təşkil edir və tələb olunan investisiya təqribən 1 milyard manatdır. Belə bir sanballı layihəyə xarici investorların da maraq göstərəcəyi istisna deyil.

Flora SADIQLI,
"Azərbaycan"

Gəncədə TECHERA şirkəti sərgi təşkil edəcək



Gəncədə ilk dəfə olaraq "REGİONAL EXPO GƏNCƏ 2026" - Sahibkarların Təqdimat Sərgisi keçiriləcək. Təhsil, strateji layihələr və konsaltinq xidmətləri sahəsində fəaliyyət göstərən TECHERA şirkəti sərginin təşkilatçısı qismində çıxış edəcək.

Bununla əlaqədar Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov TECHERA şirkətinin təsisçisi Tariyel Dövlətov və direktoru Ramil İsmayılovla görüşüb. Görüşdə şirkətin fəaliyyəti və qarşıdan gələn sərginin təşkili ilə bağlı bir sıra məsələlər müzakirə olunub. Bildirib ki, TECHERA müxtəlif istiqamətlər üzrə təlimlər təşkil edir, regionlarda peşəyönümlü layihələr həyata keçirir və biznes subyektlərinə strateji dəstək xidmətləri göstərir. O da qeyd olunub ki, sərgidə 100-dən çox müəssisənin iştirakı, məhsul və xidmətlərin təqdimatı, həmçinin sahibkarlar arasında işgüzar görüşlərin keçirilməsi nəzərdə tutulur.

Niyazi Bayramov sərginin Gəncənin iqtisadi və biznes potensialının tanıdılması, sahibkarlar arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi baxımından əhəmiyyətini qeyd edərək şirkət nümayəndələrinə fəaliyyətlərində uğurlar arzulayıb.

Sabir ƏLİYEV,
"Azərbaycan"

Masallıda bir müəllim var...

Masallının Bağıroba kənd sakini Vəkil Ağayevin 87 yaşı var. O, ömrünün 52 ilini dil və ədəbiyyat müəllimi kimi şagirdlərin təhsilinə, təlim-tərbiyəsinə həsr edib.



Bu günlər rayon icra hakimiyyətinin başçısı Araz Əhmədov qocaman müəllimin qonağı olub, problemləri ilə maraqlanıb. O, Vəkil müəllimin fəaliyyətini, gənc nəslin maariflənməsi və tərbiyəsi üçün yarım əsrdən artıq bir müddət ərzində gördüyü işləri yüksək qiymətləndirib, ona cansağlığı arzulayıb. Vəkil müəllim bildirib ki, ağsaqqal müəllimlərə göstərilən diqqət və ehtiram milli-mənəvi dəyərlərimizin qorunması, müəllim əməyinə verilən qiymət və nəsillər arasında mənəvi bağlılığın möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Qocaman pedaqoq əməyinə verilən qiymətə, göstərilən diqqətə görə minnətdarlığını bildirib.

Seyran CAVADOV,
"Azərbaycan"

Sitrusçuluq, çayçılıq və çiyələk əkini ilə məşğul olan fermerlərin təklifləri dinlənildi

Masallının Mahmudavar kəndində rayon icra hakimiyyətinin təşkilatçılığı ilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində sitrus meyvəçiliyi, çayçılıq və çiyələk əkini ilə bağlı rayon müşavirəsi keçirilib.

Rayonun idarə, müəssisə, təşkilat rəhbərləri, ərazi nümayəndəlikləri, bələdiyyə sədrləri, 200-dən çox sahibkar və fermerin iştirak etdiyi tədbirdə çıxış edən RİH-in başçısı Araz Əhmədov ölkəmizdə qeyri-neft sektorunun, xüsusilə kənd təsərrüfatının inkişafının dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğunu diqqətə çatdırıb: "Aqrar sahədə həyata keçirilən ardıcıl tədbirlər, fermerlərə göstərilən dövlət dəstəyi, müasir texnika və avadanlıqlara çıxış imkanlarının genişləndirilməsi, subsidiya və güzəşt mexanizmlərinin tətbiqi kənd təsərrüfatının inkişafına mühüm təkan vermişdir. Bu siyasətin davamı olaraq cari il mayın 25-də Prezident İlham Əliyev tərəfindən kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün dövlət proqramının təsdiq edilməsi və bundan irəli gələn bəzi məsələlərin tənzimlənməsi haqqında sərəncam imzalanmışdır. Yeni dövlət proqramı qarşıdakı illərdə aqrar sahənin inkişafı üçün mühüm hədəflər müəyyən edir. Proqramın əsas məqsədi kənd təsərrüfatında məhsuldarlığın artırılması, müasir və intensiv istehsal modelinə keçidin sürətləndirilməsi, torpaq və



su ehtiyatlarından səmərəli istifadə, məhsul istehsalı ilə emal arasında əlaqələrin gücləndirilməsi və ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsidir".

Məruzə ilə çıxış edən Masallı Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Seymur Nuriyev isə rayonda kənd təsərrüfatına yararlı 32 min 519 hektar torpaq sahəsi, onun 24 min 907 hektarının əkin torpaqları, 10 min 197 hektarın isə suvarılan torpaqlar olduğunu xatırladıb. Bildirib ki, rayonun torpaq-iqlim şəraiti çayçılığın, sitrus meyvəçiliyinin və digər bağçılıq sahələrinin inkişafı üçün əlverişli imkanlar yaradır. S.Nuriyev əlavə olaraq digər əkin növləri və məhsuldarlıq barədə də müşavirə iştirakçılarına geniş məlumat verib.

Masallı Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Akif Həmidov çıxışında qeyd edib ki, başçılıq etdiyi kollektivin əsas fəaliyyət istiqamətləri əhalinin və abonentlərin içməli su və kanalizasiya xidmətləri ilə təmin edilməsi, kənd təsərrüfatı bitkilərinin suvarma suyuna olan tələbatının ödənilməsi, eləcə də rayon ərazisində mövcud suvarma şəbəkələrinin istismarının təşkili və onlara nəzarətin həyata keçirilməsindən ibarətdir: "Rayon ərazisində 10 min 131 hektar əkin sahəsinin suvarma suyuna olan tələbatı idarəmizin balansında olan Viləşçay su anbarı, Babaser su anbarı, sututarlar və artezian quyuları vasitəsilə təmin olunur. Suvarma suyunun itkisiz və maneəsiz su istifadəçilərinə çatdırılması üçün idarənin Xırmandalı, Həsənli, Köçəkli, Qarğalıq, Xıl, Göyəçöl, Boradigah, Babaser və digər kəndlərində olan suvarma kanallarında lildən təmizlənmə, sahilbərkitmə işləri görülüb. Hazırda da bu istiqamətdə işlərimiz davam edir".

Müşavirədə Aqroservis ASC Masallı-Yardımlı rayon bölməsinin rəhbəri Hikmət Xəlilov qurumun mineral gübrələrə, texnikaya və onlara uyğun aqreqatlara olan tələbatın ödənilməsi istiqamətində görülmüş işlər barədə məlumat verib.

Sahibkar və fermerlərdən "Baba Bulağı" MMC-nin direktoru Zəmanə Babayeva-Cəfərzadə sitrus meyvəçiliyi və çayçılıq, eləcə də "Hacıoğlu-2023" MMC-nin nümayəndəsi Allahyar Muradov çiyələkçilik barədə görülmüş işlər, qarşıya qoyulmuş hədəflər və mövcud istehsal gücü barədə məlumat veriblər.

Diskussiya şəraitində keçən müşavirədə sahibkarları və torpaq mülkiyyətçilərini maraqlandıran suallara cavab verilib, onların təklifləri dinlənilib.

S. CAVADOV,
"Azərbaycan"

Qusarda payızlıq və çoxillik əkinlərin bəyan qəbulu zamanı bütün amillər nəzərə alınır

Cari ildən etibarən bəyan prosesi zamanı əkin sahələrinin xəritələşdirilməsinin də aparılması zərurəti səbəbindən indi hər bir əkin bəyanının qəbulu əvvəlki dövrlə müqayisədə daha çox vaxt tələb edir.



Rayon mərkəzinə günün birinci yarısında əsasən ictimai nəqliyyat vasitələri ilə gələn, təxirəsalınmaz və digər vacib məsələlərlə bağlı müraciət edən, eləcə də vaxt məhdudiyyəti olan fermerlərin müraciətləri nəzərə alınır. Günün ikinci yarısı isə rayon mərkəzinə yaxınlıqda fəaliyyət göstərən fermerlər dəvət edilir. Bu yanaşma müraciətlərin düzgün və operativ təşkilinə, fermerlərə göstərilən xidmətin keyfiyyətinin yüksəldilməsinə və fermer məmnunluğunun təmin olunmasına şərait yaradır.

Dekabr ayının sonunadək həftənin şənbə və bayram günləri də daxil olmaqla Qusar Dövlət Aqrar İnkişaf Mərkəzi fermer və sahibkarlara xidmət göstərəcək. Əsas məqsəd payızlıq və çoxillik əkin bəyanlarının dekabrın 30-dək EKTİS-ə tam və düzgün yerləşdirilməsini təmin etməkdir.

Mərkəzdə həmçinin sahibkarlara yeni qəbul edilmiş qanunlarla bağlı geniş məlumat verilir. Bəzi qaydalar isə çap edilərək fermerlərə paylanır.

Vaxtında və düzgün verilmiş əkin bəyanları növbəti ilin əvvəlindən əkin subsidiyalarının daha tez əldə edilməsinə, eləcə də subsidiya vəsaitlərindən təyinatına uyğun və səmərəli olunmasına şərait yaradır.

Akif ƏLİYEV,
"Azərbaycan"

Şəmkirdə azsaylı xalqların nümayəndələri ilə görüş keçirilib

Görüşdə rayon icra hakimiyyətinin başçısı Rəşad Tağıyev çıxış edərək Azərbaycanda tarixən formalaşmış tolerantlıq ənənələrindən, milli-mənəvi dəyərlərə hörmət və müxtəlif xalqların dinc yanaşı yaşamasından danışmışdır.

Qeyd edilmişdir ki, bu gün Azərbaycan etnik və dini müxtəlifliyin qorunduğu, multikultural dəyərlərin dövlət siyasəti səviyyəsində təşviq olunduğu ölkədir: "Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlət başçısının rəhbərliyi ilə Azərbaycan multikulturalizm və dinlərarası dialoqun təşviqi sahəsində beynəlxalq miqyasda nümunəvi mövqe qazanmışdır. Bu istiqamətdə Heydər Əliyev Fondunun prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın mədəni irsin qorunması, müxtəlif xalqların tarixi və dini abidələrinin bərpası, humanitar və mədəniyyətlərarası əlaqələrin inkişafı sahəsində həyata keçirdiyi layihələr xüsusi vurğulanmalıdır".



Həmçinin bildirilmişdir ki, zəngin tarixi və çoxmədəniyyətli mühiti ilə seçilən Şəmkir də müxtəlif etnik mənsubiyyətə malik insanların məkanıdır. Son məlumatlara əsasən, hazırda Şəmkirdə 15-ə yaxın müxtəlif xalqların nümayəndələri yaşayır. Onların arasında axıska türkləri, ruslar, polyaklar, ukraynalılar, belaruslar, tatarlar, kürdlər və gürcülər var. Rayonda milli və dini müxtəlifliyə hörmət, ictimai həmrəyliyin möhkəmləndirilməsi, bütün sakinlərin rayonun sosial-mədəni həyatında fəal iştirakının dəstəklənməsi daim diqqət mərkəzində saxlanılır. Milli mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın hüquq və azadlıqları qorunur, cəmiyyətdə bərabərhüquqlu iştirakları təmin edilir.

Sonra söz azsaylı xalqların nümayəndələrinə verilmişdir. Onlar çıxışlarında fikir və təkliflərini səsləndirmiş, ölkəmizdə milli-mədəni müxtəlifliyin qorunmasına, tolerantlıq mühitinin möhkəmləndirilməsinə, eləcə də onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

S.ƏLİYEV,
"Azərbaycan"



Bakının daş abidələri





Qaya üzərindəki tarix - "Monolit" bina

Memarlıq tarixində elə anlayışlar var ki, onlar təkcə mühəndis həllini deyil, həm də bir şəhərin xarakterini, zamanın sınaqlarına qarşı dayanıqlığını ifadə edir. Yunan dilindən tərcümədə "bütöv daş" mənasını verən "monolit" sözü məhz belə rəmzlərdəndir.

2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsi fonunda bu anlayış bizim üçün ikiqat məna kəsb edir. Bir tərəfdən paytaxtımızın mərkəzində əzəmətlə ucalan, milli mədəniyyətimizin və ziyalı yaddaşımızın canlı şahidi olan tarixi "Monolit" bina, digər tərəfdən isə bu gün göydələnlərimizə sarsılmazlıq və ölməzlik bəxş edən müasir monolit-beton texnologiyası şəhərsalma mədəniyyətimizin dünəni ilə sabahını birləşdirir.

Şəhərlərin simasının yeniləndiyi, Qarabağ və Şərqi Zəngəzurda müasir urbanizasiya nümunələrinin salındığı, Bakının isə dünya şəhərsalma gündəminin mərkəzinə çevrildiyi bu əlamətdar ildə tikintidə bütövlük və keyfiyyət prinsipi əsas meyardır. Çünki istər qədim qaya təməli üzərində yüksələn tarixi abidə olsun, istərsə də müasir qəliblərdə tökülən tikişsiz dəmir-beton konstruksiya - hər ikisinin mahiyyətində insan amili, təhlükəsizlik və əsrlərə meydan oxuyan möhkəmlik dayanır.

Görkəmli nəzəriyyəçi memarların yazdıqlarına görə, Bakının mərkəzində - İstiqlaliyyət küçəsi ilə Azərbaycan prospektinin kəsişməsində yerləşən monumental yaşayış binası təkcə memarlıq nümunəsi deyil, həm də bütöv bir dövrün simvoludur. 1930-cu illərdə tanınmış memar Konstantin Sençixinin layihəsi əsasında tikintisinə başlanılan bu bina adını təsadüfən almayıb. İnşaatdan əvvəl ərazidə aparılan geoloji tədqiqatlar zamanı torpağın altında nəhəng, bütöv bir qaya kütləsi aşkarlanıb və bina məhz bu təbii monolit təməl üzərində ucaldılıb.

Bu gün yerli əhəmiyyətli tarix və mədəniyyət abidəsi kimi qorunan "Monolit" bina özünün neoklassik üslubu, əzəmətli tağları və qeyri-adi akustikası ilə seçilir. Binanın arxa hissəsinin ön tərəfinə nisbətən bir qədər kiçik layihələndirilməsi ona uzaqdan baxdıqda daha möhtəşəm və təntənəli görünüş bəxş edir. Vaxtilə Üzeyir bəy Hacıbəyli, Mirvarid Dilbazi, Mərziyyə Davudova və Heydər Hüseynov kimi korifeylərin yaşadığı bu ünvan memarlığın insan taleləri və milli mədəniyyətlə necə vəhdət təşkil etdiyinin sübutudur.

Mənbələrdə göstərilir ki, inşaata hazırlıq işləri 1931-1932-ci illərdə başlamışdı. Ərazi XIX əsrin sonlarına aid köhnə, artıq qəzalı vəziyyətdə olan evlərlə sıx şəkildə tikilmişdi və onların sökülməsi böyük yenidənqurmanın ilk mərhələsinə çevrilirdi. Eyni vaxtda şair Nizami Gəncəviyə həsr olunacaq abidənin yerləşəcəyi ərazidə də oxşar işlər aparılırdı. Dövr genişlik, hava və monumentallıq tələb edirdi. "Tikinti işləri mərhələlərlə və asta templə irəliləyirdi. Artıq 1940-cı ilin oktyabrına kimi V.Şevtsovun (RosFoto) fotoarxivində təsdiqləndiyi kimi, bina tam hazır vəziyyətdə idi. 1941-ci ilin iyununda çəkilmiş hərbi şəkillərdə də binanın xarici görünüşünün tam formalaşdığı görünür. Buna görə də 1947-ci ildə guya tikintinin başa çatması barədə sonrakı iddialar tənqidə dözmür. "Monolit"in tarixçəsi demək olar ki, on illik mühəndislik, yaradıcılıq və insan əməyinin səliqəli bir nəticəsidir".

Bina bakılı memar Konstantin Sençixin tərəfindən modernləşdirilmiş neoklassisizm üslubunda layihələndirilmişdir. Tikili planda "U" (və ya çevrilmiş "P") şəklindədir və əsas fasadı Nizami meydanına baxır. Bu həll təkcə şəhər küçələrinin məntiqindən yaranmayıb. O, binaya qüdrət və monumentallıq hissi bəxş edir. Bu monumentallıq hətta o vaxt Moskvanı da təəccübləndirmişdi: "Monolit"in nəhəng fotosu Şusev adına Memarlıq Muzeyində asılmışdı və sovet şəhərsalma sənətinin nümunəvi layihəsi kimi təqdim olunurdu. Binanın quruluşu daxilində heyrətamiz akustika və sərinlik yaratmışdı. Burada həmişə yüngül meh əsər, sakinlər isə tağların kölgəsində çay içər, tamaşalar, xəbərlər və musiqi haqqında söhbətləşərdilər.

Memarlıq tarixi mənbələrinə görə, "Monolit" qarşısında yerləşən Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi ilə birlikdə Nizami meydanının vahid memarlıq ansamblını formalaşdırır.

Bakı Konqres Mərkəzi: müasir memarlıq incisi

Tarixi İpək yolu üzərində yerləşən, Əcəmi Naxçıvani məktəbindən Şirvanşahlar sarayına qədər nadir daş yaddaşına malik olan Azərbaycan bu gün həm də dünyanın ən qabaqcıl memarlıq tendensiyalarının tətbiq olunduğu müasir məkana çevrilib. Xüsusilə Bakının son onilliklərdə formalaşan yeni şəhərsalma siması Şərq və Qərb memarlığının harmonik sintezini, funksionallıqla estetik gözəlliyin vəhdətini özündə təcəssüm etdirir.

2026-cı ildə Bakının XIII Ümumdünya Şəhərsalma Forumuna (WUF13) evsahibliyi etməsi və bütün respublikada aparılan nəhəng bərpa-quruculuq işləri fonunda paytaxtın müasir memarlıq rəmzləri xüsusi diqqət mərkəzindədir. Bu rəmzlər sırasında özünəməxsus üslubu, mühəndislik həlləri və şəhər mühitinə verdiyi töhfə ilə Bakı Konqres Mərkəzi xüsusi yer tutur.

2015-ci ildə istifadəyə verilən və Qafqazın ən böyük konqres mərkəzi hesab olunan bu möhtəşəm kompleksin layihəsi Avstriyanın dünyaca məşhur COOP HIMMELB(L)AU memarlıq bürosu tərəfindən hazırlanıb. Müasir dekonstruktivizm üslubunda inşa edilən bina dinamik formaları, axıcı xətləri və futuristik görünüşü ilə seçilir.

Heydər Əliyev Mərkəzinin yaxınlığında yüksək zövqlə inşa olunan möhtəşəm tikilinin inşasına 2014-cü ilin fevralında başlanmışdı. Mərkəzin ümumi sahəsi 6,2 hektar, tikintialtı sahəsi isə 46,6 min kvadratmetrdir. Ətrafda geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb. Bina bütün zəruri infrastrukturla təmin olunub. Binanın foyesində 405 kvadratmetrlik monitor quraşdırılıb. Bu, dünyada qapalı məkanda quraşdırılan ən böyük və ən çox pikselli monitordur. Ümumilikdə isə binada müxtəlif ölçülü 50-dən artıq monitor quraşdırılıb. Mərkəzdə 17 konfrans zalı yaradılıb. Onların ümumi tutumu 2500 nəfərdən çoxdur. Konfrans zallarında yaradılan şərait onların tutumunu tədbirə qatılan qonaqların sayına uyğun olaraq dəyişdirməyə imkan verir.

Binanın daxili dizaynında təbii işıqlandırmadan maksimum istifadə olunub. Mərkəzin auditoriya zalı da ən müasir səviyyədə yaradılıb. Zal 3500 yerlikdir. Zalın akustika sistemi dünyanın aparıcı şirkətlərinin məhsuludur. Buranın işıqlandırılmasında müasir texnologiyadan istifadə edilib.

Ölkəmizdə hökm sürən siyasi-iqtisadi sabitlik, bütün sahələrin davamlı inkişafı və yaradılan şərait artıq Azərbaycanı mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevirib. Bu gün ölkəmizdə siyasət, iqtisadiyyat, mədəniyyət, idman, ümumilikdə bütün sahələrə aid region, qitə və dünya əhəmiyyətli mötəbər tədbirlər təşkil olunur. Belə bir mərkəzin istifadəyə verilməsi ölkəmizin beynəlxalq tədbirləri daha da yüksək səviyyədə keçirməsi üçün geniş imkanlar yaradır. Mərkəzdə ilk beynəlxalq tədbir 2015-ci ilin mayında Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci illik toplantısı olmuşdur.

Bu möhtəşəm bina inşa olunduğu əraziyə gözəllik verir, Heydər Əliyev Mərkəzinin yerləşdiyi məkanın füsunkarlığını daha da artırır. Orijinal üslubda tikilən mərkəz ümumilikdə paytaxtda aparılan abadlıq-quruculuq, memarlıq işlərinin davamlı olduğunu bir daha təsdiqləyir.

İradə ƏLİYEVA,
"Azərbaycan"

Müasir yaşayış binaları rahatlığın memarlıq nümunələridir

Yeni yaşayış binalarının inşası hər bir ölkənin iqtisadi inkişafının, sosial siyasətinin və şəhərsalma mədəniyyətinin mühüm göstəricilərindəndir. Əhalinin mənzilə olan tələbatının ödənilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması və müasir şəhər mühitinin formalaşdırılması bu sahədə həyata keçirilən layihələrin əsas məqsədini təşkil edir.

Bakıda artıq neçə ildir geniş vüsət alan tikinti-quruculuq işləri şəhərin memarlıq simasını əhəmiyyətli dərəcədə dəyişib. Dünənin dar və məhdud planlaşdırmaya malik yaşayış binaları ilə müqayisədə bu gün inşa olunan çoxmənzilli komplekslər memarlıq həlləri, mənzillərin funksionallığı, texniki imkanları və sakinlərə təqdim etdiyi komfortla seçilir. Söhbət təkcə yeni binalar ucaltmaqdan yox, insanların təhlükəsiz, rahat və müasir tələblərə uyğun yaşayacağı bütöv məkanlar yaratmaqdan gedir. Bu baxımdan 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsi də xüsusi əhəmiyyət daşıyır. Həmin təşəbbüs Azərbaycanın zəngin memarlıq irsinin qorunması, müasir şəhərsalma prinsiplərinin tətbiqi və gələcək nəsillər üçün daha sağlam, rahat, estetik yaşayış mühitinin yaradılması istiqamətində mühüm vəzifələr müəyyənləşdirir. Eyni zamanda Bakıda və regionlarda həyata keçirilən quruculuq işlərinə, yeni yaşayış məhəllələrinin salınmasına, şəhər mühitinin müasirləşdirilməsinə diqqəti artırır.

Bakının memarlıq tarixinə nəzər saldıqda müxtəlif dövrlərin izlərini görürük. XIX əsrin sonlarında neft bumu ilə böyüyən şəhər XX əsrdə yeni yaşayış massivləri hesabına genişləndi. Bir zamanlar insanların mənzil ehtiyacını ödəmək üçün inşa edilən beşmərtəbəli "xruşşovka", "Leninqrad" layihəli adlanan binalar öz dövrünün şəhərsalma reallığını əks etdirirdi. Bu binalar minlərlə ailənin mənzil sahibi olmasına imkan yaratdı, neçə-neçə nəslin həyat xatirələrinə çevrildi. Onların dar mətbəxləri, kiçik eyvanları, məhdud yaşayış sahələri bir vaxtlar normal sayılsa da, dəyişən həyat tərzi yeni tələblər meydana çıxardı. İnsanlar başlarının üstündə bir dam olması ilə kifayətlənməyərək geniş, işıqlı, funksional mənzillər, uşaqlarının təhlükəsiz oynaya biləcəyi həyətlər, istirahət edə biləcəkləri parklar arzuladılar.

Bu gün paytaxtın müxtəlif ərazilərində yüksələn yeni yaşayış binaları həmin dəyişən tələbatın memarlıq ifadəsidir. Standart layihəli tikililərin yerini fərqli memarlıq həlləri, müasir fasadlar, geniş pəncərələr, funksional mənzil planlaşdırması, yeraltı dayanacaqlar və abad həyətlər alır. Yeni tikililərdə lift sistemlərinin, istilik və havalandırma qurğularının, təhlükəsizlik kameralarının, yanğın əleyhinə sistemlərin, mühəndis-kommunikasiya xətlərinin müasir standartlara uyğun olması yaşayış keyfiyyətini yüksəldir. Bu gün müasir mənzil anlayışı təkcə otaqların sayı və sahəsi ilə ölçülmür, eyni zamanda rahatlıq, təhlükəsizlik, əlçatanlıq, enerji səmərəliliyi və ətraf mühitlə uyğunluq da əsas meyarlara çevrilir.

Paytaxtın şəhərsalma mənzərəsində diqqətçəkən layihələrdən biri də Ağ Şəhərdir. Vaxtilə sənaye müəssisələrinin, neft emalı sahələrinin yerləşdiyi və Qara Şəhər kimi tanınan ərazinin müasir şəhər məkanına çevrilməsi böyük şəhərsalma düşüncəsinin təzahürüdür. Burada keçmişin sənaye mənzərəsi ilə gələcəyin müasir yaşayış mühiti arasında yeni bir körpü yaradılır. Geniş küçələr, memarlıq baxımından bir-birini tamamlayan binalar, yaşıllıq zolaqları, ictimai məkanlar, biznes və istirahət obyektləri Ağ Şəhərə xüsusi görkəm verir. Yaşayış, iş, istirahət və sosial fəaliyyət məkanlarının vahid şəhər mühitində birləşdirilməsi müasir şəhərsalmanın əsas prinsiplərindəndir. Bu baxımdan Ağ Şəhər Bakının dəyişən memarlıq simasının diqqətəlayiq nümunələrindəndir.

Yeni yaşayış binalarının inşasında dövlətin sosial siyasəti də xüsusi yer tutur. Mənzil məsələsi təkcə tikinti və daşınmaz əmlak bazarı ilə bağlı deyil, ailələrin sosial rifahı, gənclərin gələcəyə inamı və həyat keyfiyyəti ilə də birbaşa əlaqəlidir. Mənzil İnşaatı Dövlət Agentliyinin - MİDA-nın fəaliyyəti bu ehtiyacların qarşılanmasına yönəlmiş mühüm təşəbbüslərdəndir. Agentliyin əsas məqsədi aztəminatlı və orta gəlirli ailələr üçün əlçatan, müasir standartlara cavab verən yaşayış komplekslərinin yaradılmasıdır. MİDA layihələrində mənzillərin inşası deyil, məktəblər, uşaq bağçaları, tibb məntəqələri, istirahət və idman sahələri kimi sosial infrastrukturun formalaşdırılması da nəzərdə tutulur.



Sosial mənzil layihələrinin əhəmiyyəti ilk növbədə ailələrin mənzilə çıxış imkanlarının genişləndirilməsində özünü göstərir. Xüsusən gənc ailələr və sosial müdafiəyə ehtiyacı olan vətəndaşlar üçün münasib şərtlərlə mənzil sahibi olmaq böyük həyat arzusudur. İnsan öz evinin qapısını açanda yeni mənzilə deyil, həm də gələcəyə daha böyük ümidlərlə daxil olur. Uşağın öz otağında böyüməsi, valideynlərin rahat və təhlükəsiz şəraitdə yaşaması, ailənin sabahını inamla planlaşdırması sosial mənzil siyasətinin arxasında dayanan əsas insani məzmundur. Buna görə də bu layihələrin davamlılığı, mənzillərin keyfiyyəti, seçim prosesində şəffaflıq və ehtiyacı olan ailələr üçün əlçatanlığın qorunması xüsusi əhəmiyyət daşıyır.

Son illər Bakının müxtəlif ərazilərində inşa edilən çoxmənzilli binalar şəhərin memarlıq panoramasına yeni çalarlar gətirir. Müxtəlif üslublarda layihələndirilən binalar, fərqli fasad həlləri, geniş mənzil planları, müasir interyer dizaynı, yeraltı qarajlar və abadlaşdırılmış həyətlər tikinti sektorunda yenilənməni gücləndirir. Bəzi yaşayış komplekslərində sakinlərin gündəlik ehtiyaclarını ödəyən mağazalar, idman zalları, uşaq meydançaları və istirahət guşələri də yaradılır. Belə yanaşma yaşayış komplekslərini sadəcə binalar toplusundan çıxararaq funksional şəhər məkanlarına çevirir.

Müasir memarlığın uğurunu binanın xarici görünüşü, hündürlüyü və fasadının dəbdəbəsi ilə ölçmək doğru olmazdı. Bina ilk növbədə etibarlı bina olmalıdır. Tikintidə keyfiyyətə nəzarət, seysmik təhlükəsizlik, yanğın normalarına riayət və mühəndis-kommunikasiya sistemlərinin düzgün qurulması əsas şərtlərdir. Yeni yaşayış komplekslərinin şəhərin ümumi infrastrukturuna uyğunluğu da nəzərə alınmalıdır. Məktəb və bağçaların, səhiyyə müəssisələrinin, ictimai nəqliyyatın, dayanacaqların və piyada yollarının kifayət qədər olması sakinlərin gündəlik həyatını müəyyən edən mühüm amillərdəndir. Bina nə qədər yaraşıqlı olsa da, onun ətrafında sıxlıq, nəqliyyat çətinliyi, yaşıllıq çatışmazlığı varsa, orada tam mənada rahat yaşayış mühitindən danışmaq çətindir.

Şəhərin gözəlliyi ilə insanın rahatlığı arasında tarazlıq yaradılması müasir şəhərsalmanın başlıca vəzifələrindəndir. Bu gün dünyada "yaşıl memarlıq", ekoloji təmiz materiallardan istifadə, su və enerji resurslarına qənaət getdikcə daha böyük əhəmiyyət qazanır. Yeni yaşayış binalarında yaşıllıq sahələrinin qorunması, həyətlərin səmərəli təşkili, ağacların əkilməsi və əlilliyi olan şəxslər, yaşlılar üçün maneəsiz hərəkət imkanlarının yaradılması gələcəyin şəhərsalma mədəniyyətinin ayrılmaz hissəsidir.

Bakının dəyişən siması ilə yanaşı, regionlarda da yeni yaşayış məkanlarının yaradılması xüsusi əhəmiyyət daşıyır. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri şəhərsalmanın yeni mərhələsini formalaşdırır. Burada salınan yaşayış məhəlləri, yeni mənzillər, məktəblər və sosial obyektlər Böyük qayıdışın real məzmununu təşkil edir. İşğaldan azad edilmiş ərazilərdə şəhər və kəndlərin yenidən qurulması dağıdılmış evlərin bərpası deyil, həm də insanların rahat və təhlükəsiz şəraitdə yaşaya biləcəyi yeni məkanların yaradılmasıdır. Bu torpaqlarda yüksələn yaşayış binası, salınan küçə, əkilən hər bir ağac həyata qayıdışın, quruculuğun və gələcəyə inamın rəmzidir.

Bütün bunlar bir daha göstərir ki, memarlıq və şəhərsalma insan həyatının keyfiyyətini müəyyən edən mühüm sahələrdir. Şəhər təkcə müasir binaların ucaldığı məkan deyil, həm də insanların xatirələrinin, arzularının və gündəlik həyatının birləşdiyi böyük mədəniyyət məkanıdır. Yeni yaşayış binaları da bu məkanın gələcək simasını formalaşdırır. Ona görə də hər bir tikinti layihəsinə təkcə bu günün ehtiyacları baxımından yox, onilliklər sonra həmin ərazidə yaşayacaq insanların tələbatları nəzərə alınmaqla da yanaşılmalıdır.

Elşən QƏNİYEV,
"Azərbaycan"

Qədim Qəbələnin zəngin şəhər mədəniyyəti

Azərbaycanın zəngin tarixi keçmişi, çoxəsrlik mədəni irsi və özünəməxsus memarlıq ənənələri ölkəmizin müxtəlif bölgələrində bu gün də yaşamaqdadır. Hər tarixi abidə, hər qədim yaşayış məskəni xalqımızın keçdiyi inkişaf yolundan, həyat tərzi və yaratdığı mədəni dəyərlərdən soraq verir. Qədim Qəbələ də həm yaşayış məskəni, həm də Azərbaycanın şəhərsalma tarixinin öyrənilməsi baxımından əhəmiyyətli məkandır.

Əsrlərin sınağından keçərək günümüzə gəlib çatan qala divarları, müdafiə qurğuları, yaşayış və təsərrüfat tikililərinin qalıqları, eləcə də çoxsaylı arxeoloji tapıntılar Qəbələnin Azərbaycanın qədim şəhərsalma tarixində mühüm yer tutduğunu təsdiqləyir. Burada aparılan arxeoloji tədqiqatlar qədim insanların məişəti, təsərrüfat həyatı, tikinti mədəniyyəti, ticarət əlaqələri və memarlıq düşüncəsi haqqında zəngin məlumatlar verir. Bu mənada Qəbələnin tarixi-memarlıq irsinin öyrənilməsi və qorunması "Şəhərsalma və Memarlıq İli" çərçivəsində xüsusi aktuallıq daşıyır.

Qəbələnin tarixi minilliklərin dərinliklərinə gedib çıxır. Arxeoloji qazıntı işləri zamanı aşkar edilən müxtəlif əşyalar buranın şəhər yerinin ən alt təbəqəsinin erkən Tunc dövrünə - eramızdan əvvəl III minilliyin ikinci yarısına aid olduğunu təsdiqləyir. Təsdiq edilib ki, Azərbaycanın ən qədim şəhərlərindən biri hesab edilən Qəbələ antik dövrdə Qafqaz Albaniyasının mühüm siyasi mərkəzi, uzun müddət isə paytaxtı olub.

Qədim Qəbələnin arxeoloji qalıqları orta əsrlər şəhər yerindən cənub-şərqdə, Çuxur Qəbələ kəndinin yaxınlığında, Qafqaz dağlarının ətəklərində, Qaraçay və Covurluçay arasındakı geniş təpədədir. Ərazinin əlverişli coğrafi mövqeyi, çay hövzələrinə yaxınlığı, münbit torpaqları və təbii ehtiyatları burada yaşayışın və şəhər həyatının inkişafına mühüm şərait yaradıb. Qəbələ özünün strateji mövqeyi sayəsində həm siyasi, həm iqtisadi, həm də mədəni baxımdan əhəmiyyətli mərkəzə çevrilib. Müxtəlif dövrlərdə burada baş verən tarixi proseslər şəhərin quruluşuna, müdafiə sisteminə və memarlıq simasına təsir göstərib.



Qəbələnin qala divarları yalnız hərbi müdafiə məqsədi daşıyan tikililər deyil, həm də qədim şəhərsalma mədəniyyətinin, tikinti texnologiyalarının və mühəndislik düşüncəsinin mühüm nümunələridir.

Müdafiə məqsədi daşımış xəndək şəhərin xarabalığını iki hissəyə ayırıb. Xəndəkdən şimal tərəfdəki hissəyə yerli əhali "Səlbir", cənub tərəfdəki hissəyə isə "Qala" deyir. Şəhərin qalıqlarından 3-4 km şərqdə, Güllüqoruq və ya Çaqqallı talası deyilən yerdə qədim Qəbələnin məbəd yeri və bazar meydanının yerləşdiyi güman edilən üçüncü sahəsi, sonralar Kamaltəpə və Bayır şəhər hissələri aşkarlanıb. Məlumata görə, ümumi sahəsi 12 hektardan çox olan Səlbir hissəsi qədim Qəbələnin e.ə. III - eramzın XII əsrinədək olan dövrünün nişanəsidir. Şəhərin qala hissəsi - hazırda ümumi sahəsi 13 hektara qədər olan Qala və ya Govurqala isə təxminən VI əsrdən başlayaraq XVIII əsrin ortalarınadək olan bir dövrü əhatə edir.

Güllüqoruq (Çaqqallı talası) qədim şəhər xarabalığından 3-4 kilometr şərqdə yerləşir. Kamaltəpə isə Qəbələnin Qala hissəsinin cənub darvazası qarşısında təpəlikdir. 1977-ci ildə Kamaltəpənin cənub ətəyi meşə örtüyündən təmizlənəndə 10 hektarlıq bir ərazini əhatə edən yaşayış yeri qalıqları aşkar edilib.

Arxeoloji qazıntılar şəhərin gündəlik həyatını, iqtisadi münasibətlərini, sənətkarlıq ənənələrini və məişət mədəniyyətini öyrənmək üçün də zəngin materiallar üzə çıxarıb. Qazıntılar zamanı aşkar edilən saxsı qablar, şüşə və metal məmulatlar, sikkələr, məişət əşyaları, yaşayış tikililərinin qalıqları qədim Qəbələdə müxtəlif sənət sahələrinin inkişaf etdiyini göstərir.

Qədim Qəbələnin öyrənilməsi ilə yanaşı, onun tarixi-memarlıq irsinin qorunması da mühüm əhəmiyyət kəsb edir. Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun ərazisinə daxil olan antik şəhər yeri, Səlbir və Qala sahələri qədim və Orta əsr şəhər mədəniyyətinin qorunması və tədqiqi baxımından ölkəmizin mühüm tarixi məkanları sırasındadır. Qoruq ərazisində aparılmış qazıntı sahələrinin bir hissəsində konservasiya işləri həyata keçirilib, tarixi məkanın tanıdılması üçün müvafiq məlumatlandırma və istiqamətləndirmə vasitələri yaradılıb.

Müasir Qəbələ bu gün öz tarixini qoruyub saxlayır. Bu abidələr xatırladır ki, şəhərlərin gələcəyi qurularkən onların tarixi yaddaşı heç zaman unudulmamalıdır.

Zöhrə FƏRƏCOVA,
"Azərbaycan"





Mədəniyyət





Ələviyyə Babayeva – 105

Hər dövrün öz səsi, öz nəfəsi olur. Bəzi yazıçılar bu səsi uca tribunaların gurultusunda, böyük tarixi sarsıntıların səs-küyündə axtarır, bəziləri isə əksinə - zamanın axarını adi bir insanın pıçıltısında, bir sevənin yarımçıq qalmış xəyallarında, sakit bir axşamın hüznündə tutur.

İnsan talelərinə sığınan ömür

Müasir Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, Əməkdar mədəniyyət işçisi Ələviyyə Babayeva məhz ədəbiyyata səssiz, amma dərin və silinməz izlərlə daxil olan qələm sahiblərindən idi. Onun qələmi nə pafoslu şüarlara meyil etdi, nə də süni qəhrəmanlıq dastanları uydurdu, o, sadəcə, həyatın özünü - bütün ziddiyyətləri, kövrəkliyi və sərt həqiqətləri ilə vərəqlərə köçürdü. Ələviyyə xanımın yaratdığı bədii dünyada böyük faciələr belə təmkinlə, əsl ziyalı ədası ilə nəql olunur, oxucunu sarsıtmaqdan daha çox düşündürməyə, insan qəlbinin ən gizli qatlarına boylanmağa məcbur edir. Həm uşaqların saf təxəyyülünə, həm də böyüklərin mürəkkəb həyat fəlsəfəsinə eyni səmimiyyətlə xitab edə bilən bu sənətkar Azərbaycan ədəbiyyatında zərifliklə müdrikliyin qovuşduğu özünəməxsus bir məktəb yaratmışdır.

1921-ci ildə Bakıda anadan olmuşdu və elə bir ailədə böyümüşdü ki, burada sənətə, kitaba və gözəlliyə xüsusi sevgi var idi. Üç yaşında doğma atasını faciəvi şəkildə itirən Ələviyyənin formalaşmasında atalığı Hənifə kişinin müstəsna rolu olmuşdu. Elə buna görə də ədəbiyyat tarixində onun adı Ələviyyə Hənifə qızı Babayeva kimi həkk edilmişdi. Sonralar Azərbaycan təsviri sənətinin zirvələrini fəth edən qardaşı Xalq rəssamı Rasim Babayevlə bir ocaqda pərvazlanması onun estetik zövqünün formalaşmasında mühüm rol oynamışdı. Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində aldığı ali təhsil isə Ələviyyənin fitri istedadını elmi-nəzəri biliklərlə zənginləşdirmişdi.

Ədəbi fəaliyyətə 1936-cı ildə "Ədəbiyyat qəzeti"ndə dərc olunmuş "İki həyat" adlı hekayəsi ilə başlayan Ələviyyə Babayeva hekayə, povest və romanlar yazmaqla yanaşı, müasir rus ədəbiyyatından tərcümələr etmişdir. A.Qaydarın "Uzaq ölkələr" (1950), V.Biankinin "İz ilə" (1947), "Ayı balası" (1959), "Qırmızı təpə" (1963), K.Paustovskinin "Oğru pişik" (1951), V.Q.Korolenkonun "Satın alınmış uşaqlar" (1962), Y.Sotnikin "Əcaib quş" (1964), V.Astafyevin "Ulduz xəzanı" (1970), Y.Çaruşinin "Nikitanın oyuncaqları" (1984) və s. onun tərcüməsində kütləvi tirajla çap olunmuşdur. "Azərbaycan qadını" jurnalında məsul katib (1951-1973), "Gənclik" nəşriyyatında Müasir ədəbiyyat şöbəsinin müdiri (1973-1976), sonra baş redaktor (1976-1985) olmuş yazıçı Moskvada Azərbaycan ədəbiyyatı ongünlüyündə, həmçinin Azərbaycanın bir çox yerində ədəbi tədbirlərdə iştirak etmişdir. O, Azərbaycan Yazıçılar Birliyinin qəbul komissiyasının üzvü, tərcümə bölməsinin rəhbəri olmuşdur.

Səssizliyin içindəki böyük həqiqət

Ələviyyə Babayevanın yaradıcılığı mövzu rəngarəngliyi və psixoloji dərinliyi ilə seçilir. Müəllifin 60-dan çox kitabı və 9 romanı Azərbaycan nəsrinin qızıl fonduna daxil edilmişdir. Onun "Kölgə", "Adamlar və talelər", "Küləyin tərkində", "Səni axtarıram", "Bəlkə sabah olmadı", "Dəli Sona" kimi əsərləri dövrün ictimai-mənəvi mənzərəsini bütün çılpaqlığı ilə göstərir. Yazıçı heç vaxt hadisələrin səthində qalmır, qəhrəmanlarının daxili aləminə enir, onların sevincini, kədərini, tərəddüdlərini oxucuya hiss etdirirdi. Xüsusilə əsərlərindəki qadın obrazları öz iradəsi, fədakarlığı və mənəvi zənginliyi ilə yadda qalır.

Ələviyyə Babayevanın bədii yaradıcılığı xarici hadisələrin gurultusundan uzaq, insanın daxili dünyasına, mənəvi təzadlarına və psixoloji yaşantılarına yönəlmiş incə nəsri ilə fərqlənir. O, ədəbiyyata 1960-cı illər nəsrinin psixoloji dərinlik gətirən müəlliflərindən biri kimi daxil olub və müstəqillik dövründə də bu üsluba sadiq qalıb.

Müəllifin əsərlərində psixologizm və daxili monoloq üstünlük təşkil edir. Yazıçı qəhrəmanlarını zahiri hərəkətlərindən çox tərəddüdləri, peşmanlıqları və daxili düşüncələri vasitəsilə tanıdır. Hadisələrin gedişatından daha çox hadisələrin insan ruhunda buraxdığı izlər təsvir olunur. Ədəbiyyatşünaslar Ələviyyə xanımın ağır və təmkinli nəsr üslubunu xüsusi qeyd edirlər. Onun dilində süni pafos və bəlağət yoxdur, cümlələr sadə, axıcı, lakin alt qatında dərin milli-mənəvi və əxlaqi məna üstünlük təşkil edir. Sənətkar və zaman probleminə gəldikdə, xüsusilə müstəqillik dövrü əsərlərində yaradıcı insanın cəmiyyətdəki yeri, vicdan məsələləri ön plana çıxır.



Yazıçının 1964-cü ildə qələmə aldığı "Kölgə" povesti insanın öz keçmişi, gizli qorxuları və vicdanı ilə üzləşməsindən bəhs edir. "Kölgə" burada həm insanı izləyən xatirələrin, həm də mənəvi tərəddüdlərin bədii simvoludur. "Səni axtarıram" romanı (1985) insanın ömrü boyu özünü, mənəvi dayaqlarını və həqiqi sevgini axtarması ideyası üzərində qurulub. Əsər zamanın dəyişən dəyərləri fonunda saf duyğuların sınağını əks etdirir. Müstəqillik illərində qələmə alınan "Dəli Sona" romanında (1998) cəmiyyətdəki mənəvi sarsıntılar, stereotiplər və fərqli düşünən qadının tənhalığı dramatik boyalarla təsvir olunur.

"Adamlar və talelər"- mənəvi seçim və vicdan sınağı

Ələviyyə Babayevanın yaradıcılığında mühüm yer tutan "Adamlar və talelər" (1970) sovet cəmiyyətinin mənəvi-əxlaqi mənzərəsini əks etdirir. Əsərdə vahid bir macəra xəttindən daha çox bir neçə ailənin və fərdin paralel inkişaf edən həyat hekayələri verilir. Müəllif özünün şahidi olduğu real həyat müşahidələrinə əsaslanaraq qəhrəmanlarını gündəlik məişət qayğıları, ailədaxili münaqişələr və peşə etikası qarşısında sınağa çəkir. Əsas konflikt xeyirlə şərin açıq toqquşmasından çox, insanın öz vicdanı ilə kompromisə gedib-getməməsi üzərində qurulur.

Romanın mərkəzində alimlər, həkimlər, müəllimlər və sadə zəhmət adamları dayanır. Müəllif göstərir ki, insanın əsl dəyəri onun vəzifəsi və ya sosial mövqeyi ilə deyil, çətin məqamlarda vicdanını və insanlığını qoruya bilməsi ilə ölçülür. Əsərdəki qadınlar həm ailə ocağının qoruyucusu, həm də cəmiyyətdə öz yerini tapmağa çalışan fərdlər kimi təqdim olunur. Onların fədakarlığı ilə yanaşı, xəyanət və biganəlik qarşısındakı mənəvi sarsıntıları incə psixoloji detallarla açılır. Əsərin əsas leytmotivi mənəvi qütbləşmə üzərində qurulub: "İstər alim, istər sənətkar ol, istər xəstə baxıcısı - əgər insan adına layiq deyilsənsə, heç kimsən". Obrazlar məhz bu meyarla - çətin anda başqasının dərdinə şərik olub-olmamaları ilə dəyərləndirilir.

"Bəlkə sabah olmadı" - sənətkarın "üçüncü gözü" və zamanın burulğanı

Müəllif bu əsərini qardaşı, Xalq rəssamı Rasim Babayevə həsr edib və burada 1990-cı illərin mürəkkəb ictimai-siyasi şəraitində sənətkarın daxili tənhalığı və mənəvi axtarışları əks olunub. Süjet rəssam Bulut İldırımoğlunun həyat yolu, sənət axtarışları və yaşadığı dövrün sərt reallıqları ilə üz-üzə qalması ətrafında cərəyan edir. Romanın adı ("Bəlkə sabah olmadı") həyatın faniliyini, hər anın dəyərini bilmək və gecikmədən həqiqəti söyləmək ehtiyacını simvolizə edir. Əsərdə sənətkarın cəmiyyətdəki mənəvi aşınmaya, riyakarlığa və biganəliyə qarşı daxili müqaviməti ön plandadır.

Baş qəhrəman Bulut İldırımoğlu dərin müşahidə qabiliyyətinə və insanlara isti münasibətə malik rəssam obrazıdır. Onu ətrafdakılardan fərqləndirən ən mühüm xüsusiyyət bu insanın Allah vergisi olan "üçüncü gözü"dür - yəni adi gözlə görünməyən həqiqətləri, insanların gizli niyyətlərini və zamanın ağrılarını duymaq bacarığıdır. Lakin bu "üçüncü göz" həm onun sənətkarlıq zirvəsi, həm də şəxsi xoşbəxtliyinə mane olan ağır bir yükdür. Bulutun həyatındakı qadın obrazları onun daxili dünyasının və taleyinin güzgüsüdür. Məhz həyata fərqli baxışı və "üçüncü gözü"nün yaratdığı mənəvi tələbkarlıq ucbatından Bulut ilk məhəbbəti Fəridəni itirir. Sonrakı dövrdə qarşısına çıxan ikinci Fəridə isə onun yaralı ruhuna mənəvi dayaq axtarışının rəmzidir. Nadir və Rəfi müəllim obrazları isə müəllifin cəmiyyətdə görmək istədiyi nurlu, ziyalı və əxlaqi bütövlüyünü qoruyub saxlayan müsbət qüvvələri təmsil edir. Onlar Bulutun mənəvi tənhalığında ona həmfikir olan insanlardır.

Ələviyyə Babayeva yazıçılıq missiyasını hadisələri sadəcə təsvir etməkdə deyil, həmin hadisələrin insan qəlbində yaratdığı səssiz fırtınaları anlamaqda görürdü. İstər uşaq təxəyyülünə işıq saçan nağıl və ssenarilərində, istər dünya ədəbiyyatından dilimizə qazandırdığı ölməz tərcümələrdə, istərsə də dövrün mənəvi mənzərəsini çəkən irihəcmli romanlarında əsas bir fikir dəyişməz qalırdı: insanı olduğu kimi - bütün zəifliklərı və ucalıqları ilə sevmək.


2014-cü ildə Ələviyyə Babayeva cismən aramızdan ayrılsa da, özündən sonra sönməyən bir söz işığı, zəngin və saf bir ədəbi irs qoymuşdur.

İradə ƏLİYEVA,
"Azərbaycan"

Ədəbiyyat xadimləri

Alim, yazıçı, publisist

Ədəbiyyat tarixinin öyrənilməsi yalnız keçmişdə yazılmış əsərlərin təhlili ilə məhdudlaşmır. Bu zaman həm də əsərlərin yarandığı dövr, müəlliflərin dünyagörüşü, ədəbi mühit və ictimai düşüncənin səviyyəsi araşdırılır. Ədəbiyyatşünas, publisist, filologiya elmləri doktoru Nadir Vəlixanov da uzunillik səmərəli elmi fəaliyyəti ilə ədəbiyyatımızın dünəninə işıq salmaq, bu günü və gələcəyi arasında körpü yaratmaqla məşğul olub.



Nadir Vəlixanov 1926-cı il noyabrın 21-də Şuşada dünyaya gəlib. Görkəmli yazıçı Süleyman Sani Axundovun nəslindəndir. Orta təhsilini Bakıdakı 91 saylı məktəbdə alıb. 1943-cü ildə birillik müəllimlər kursunu bitirib. 1944-1949-cu illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsində təhsilini davam etdirib.

Əmək fəaliyyətinə 1950-ci ildə Sumqayıtdakı 25 saylı uşaq evində başlayıb, tərbiyəçi, tədris hissə müdiri işləyib. 1951-1953-cü illərdə Bakıda 74 saylı fəhlə-gənclər məktəbində Azərbaycan dili müəllimi kimi fəaliyyət göstərib. 1953-1960-cı illərdə "Azərbaycan pioneri" qəzetində ədəbi işçi vəzifəsində işləyib. Bu illər onun publisistik və bədii yaradıcılığının formalaşmasında müəyyən yer tutub. İlk didaktik hekayələri və felyetonları da həmin qəzetdə dərc olunub. Sonralar da dövri mətbuatda vaxtaşırı publisist məqalələr, hekayə və oçerklərlə çıxış edib.

1961-ci ildən Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda (hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu) elmi fəaliyyətə başlayan Nadir Vəlixanov ömrünün sonunadək bu elm ocağında çalışıb. Kiçik elmi işçi, böyük elmi işçi vəzifələrində işləyib, Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi olub.

Onun elmi maraq dairəsində XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında baş verən proseslər, maarifçilik ideyalarının bədii düşüncədə ifadəsi, realist ədəbiyyatın inkişaf xüsusiyyətləri mühüm yer tuturdu. Bu dövr Azərbaycan ədəbiyyatının ictimai fikirlə, maarifçilik hərəkatı ilə sıx bağlı olduğu, yazıçıların cəmiyyətin problemlərinə daha fəal münasibət bildirdiyi bir mərhələ idi. Nadir Vəlixanovun tədqiqatları da məhz həmin ədəbi və ictimai mühitin öyrənilməsinə yönəlmişdi.

Görkəmli alim Azərbaycan ədəbiyyatının mühüm bir tarixi mərhələsinin araşdırılmasına, ayrı-ayrı sənətkarların həyat və yaradıcılığının öyrənilməsinə diqqət yetirib. Nadir Vəlixanovun elmi yaradıcılığında Süleyman Sani Axundovun həyat və yaradıcılığının araşdırılması xüsusi yer tutur. O, 1966-cı ildə "Süleyman Sani Axundovun həyat və yaradıcılığı" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib. Bu mövzuya sonrakı illərdə də qayıdaraq araşdırmalarını davam etdirib. Nadir Vəlixanovun bu sahədəki xidmətlərindən biri yazıçının həyat və yaradıcılığının arxiv materialları əsasında öyrənilməsi, "Süleyman Sani Axundovun elmi tərcümeyi-halı"nın hazırlanmasıdır. Ümumiyyətlə, Süleyman Sani Axundovun əsərlərinin nəşrə hazırlanmasında, yazıçının ədəbi irsinin sistemli şəkildə oxucuya çatdırılmasında, yaradıcılığının elmi baxımdan öyrənilməsində Nadir Vəlixanovun əməyi böyük olub.

Alimin tədqiqatlarında Azərbaycan maarifçi-realist ədəbiyyatının inkişafı, ədəbi prosesin tarixi mərhələləri və ayrı-ayrı sənətkarların yaradıcılıq xüsusiyyətlərinin araşdırılması da mühüm yer tutur. 1994-cü ildə "Azərbaycan maarifçi-realist ədəbiyyatının inkişafı (1890-1920-ci illər)" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsi adını alan N.Vəlixanovun 1983-cü ildə "Azərbaycan maarifçi-realist ədəbiyyatı" adı ilə nəşr olunan monoqrafiyası da bu tədqiqat istiqamətinin mühüm nəticələrindəndir. Əsərin mövzusu Azərbaycan ədəbiyyatında maarifçilik və realizm ənənələrinin inkişafına, bu prosesin tarixi və ədəbi xüsusiyyətlərinə həsr olunub. Diqqətçəkən cəhət ədəbi hadisələrin ayrı-ayrılıqda deyil, müəyyən tarixi və ictimai şərait daxilində araşdırılmasıdır.

Nadir Vəlixanovun Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığına həsr etdiyi tədqiqatları da diqqətəlayiqdir. Onun 1976-cı ildə "Cəlil Məmmədquluzadə. Həyat və yaradıcılığı" adlı nəşr etdirdiyi kitabında yazıçının yaradıcılıq yolu, ədəbi mövqeyi və dövrün ictimai problemlərinə münasibəti araşdırılıb. Onu da qeyd edək ki, alimin Cəlil Məmmədquluzadənin maarif, təhsil, mədəniyyət məsələlərinə dair fikirlərinə diqqət yetirməsi onun Azərbaycan maarifçi ədəbiyyatının ümumi mənzərəsini öyrənmək istəyindən irəli gəlirdi.

N.Vəlixanov Azərbaycan ədəbiyyatının keçmişinə yalnız ayrı-ayrı əsərlərin məcmusu kimi yanaşmayıb, həmin əsərlərin yarandığı dövrü, müəlliflərin həyat və düşüncə aləmini, ədəbi mühitin xüsusiyyətlərini də araşdırıb. Bu yanaşma ədəbiyyat tarixinin daha dolğun və əsaslı şəkildə öyrənilməsinə imkan yaradıb.


Alimin fəaliyyətini səciyyələndirən cəhətlərdən biri də onun elmi axtarışlarla publisistik yaradıcılığı bir araya gətirməsi idi. Mətbuat orqanlarında dərc olunan məqalələri, oçerkləri və hekayələri alimin ədəbi prosesə yalnız tədqiqatçı kimi deyil, həm də publisist kimi münasibətini göstərirdi. Ədəbi irsin təbliği, maarifçilik düşüncəsinin öyrənilməsi və oxucuların bu irslə tanış edilməsi onun fəaliyyətinin müxtəlif istiqamətlərində öz əksini tapırdı.

Nadir Vəlixanov 1995-ci il iyunun 27-də Bakıda vəfat edib. Həyatda olmasa da, araşdırmaları, elmi əsərləri, eləcə də tərtib etdiyi nəşrlər ədəbiyyatşünaslığımızın biblioqrafik və elmi yaddaşında əhəmiyyətli yer tutur. Onun adı istedadlı və zəhmətkeş alim kimi ehtiramla yad edilir, böyük əməyinin bəhrəsi olan araşdırmalarına, elmi fikirlərinə, gəldiyi qənaətlərə istinad olunur, əsərlərindən öyrənilir.

Zöhrə FƏRƏCOVA,
"Azərbaycan"

Milli Xalça Muzeyində "Ortaq irs: Türk xalçası" mövzusunda beynəlxalq simpozium təşkil olunacaq

Noyabrın 23–24-də Azərbaycan Milli Xalça Muzeyində görkəmli xalçaçı-alim, Xalq rəssamı Lətif Kərimovun anadan olmasının 120 illik yubileyinə həsr olunmuş "Ortaq irs: Türk xalçası" mövzusunda beynəlxalq simpozium keçiriləcək.



Bu barədə Milli Xalça Muzeyindən məlumat verilib.

Bildirilib ki, Türk Mədəniyyəti və İrsi Fondunun və Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) dəstəyi, Azərbaycan Milli Xalça Muzeyi və Türkiyənin Mərmərə Universitetinin birgə təşkilatçılığı ilə baş tutacaq simpozium türk xalqlarının zəngin xalçaçılıq irsinin araşdırılması, ortaq mədəni dəyərlərin təbliği və bu sahədə beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Tədbirdə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanı təmsil edən 20-dən çox alim, tədqiqatçı və muzey mütəxəssisinin iştirakı nəzərdə tutulur.


İki gün davam edəcək simpozium çərçivəsində beş elmi sessiya təşkil olunacaq. Sessiyalarda türk xalça sənətinin konseptual və simvolik dünyası, Lətif Kərimovun elmi və bədii irsi, muzey kolleksiyaları, Mərkəzi Asiya və Anadolu toxuculuq ənənələri, eləcə də xalçaçılıqda dizayn və rəqəmsal texnologiyaların tətbiqi kimi aktual mövzular müzakirə ediləcək.

Elmi müzakirələrlə yanaşı, simpoziumun proqramında "Xalq rəssamı Lətif Kərimov – 120" adlı sərginin açılışı, iştirakçıların Azərbaycan Milli Xalça Muzeyinin ekspozisiyası ilə tanışlığı və mədəni proqram da yer alır. Mədəni proqram çərçivəsində Qaziantep gənclər qrupunun ifasında konsert təqdim olunacaq.

Beynəlxalq simpozium "Türk xalçasının gələcək perspektivləri" mövzusunda "dəyirmi masa" və tədbirin rəsmi bağlanış mərasimi ilə yekunlaşacaq.

Simpozium türk xalqlarının ortaq toxuculuq ənənələrinin elmi müstəvidə araşdırılmasına, xalça sənətinin zəngin irsinin beynəlxalq səviyyədə tanıdılmasına və gələcək nəsillərə ötürülməsinə töhfə verməyi hədəfləyir.

Filarmoniyada kamera musiqisi axşamı



Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi Zalında "Kamera musiqisi axşamı" adlı konsert keçirilib.

Filarmoniyadan bildirilib ki, konsertdə Azərbaycan Dövlət Simli Kvartetinin üzvləri - Nəzrin Aslanlı (violin), Xəyalə Abdullayeva (violin), Vaxtanq İmanov (viola) və Aleksey Miltix (violonçel) çıxış ediblər.

Konsert proqramında Feliks Mendelsonun 6 nömrəli f-moll simli kvarteti (op. 80) və Aleksandr Borodinin 1 nömrəli A-dur simli kvarteti səsləndirilib.

Kukla Teatrında "Uşaq Hüquqları Aylığı" çərçivəsində tədbir keçirilib

Azərbaycan Dövlət Kukla Teatrında oktyabrın 20-dən noyabrın 20-dək ölkəmizdə "Uşaq Hüquqları Aylığı" elan edilməsi ilə əlaqədar maarifləndirici tədbir keçirilib.



Kukla Teatrının Mətbuat xidmətindən aldığımız məlumata görə, tədbirin əsas məqsədi uşaq hüquqlarının qorunmasının əhəmiyyətinə diqqət çəkmək, uşaqların hüquq və azadlıqları barədə məlumatlılığını artırmaq, həmçinin cəmiyyətdə bu istiqamətdə maarifləndirmə işinə töhfə vermək olub.

Tədbiri giriş sözü ilə açan teatrın Strategiya və kommunikasiya şöbəsinin müdiri Həmidə Rüstəmova uşaq hüquqlarının qorunmasının dövlət siyasətinin və cəmiyyətin əsas prioritetlərindən biri olduğunu vurğulayıb. Qeyd edib ki, hər bir uşağın sağlam, təhlükəsiz və qayğı ilə əhatə olunmuş mühitdə böyüməsi, təhsil alması, istirahət etməsi, öz fikrini sərbəst ifadə etməsi və yaradıcılıq imkanlarını inkişaf etdirməsi üçün əlverişli şərait yaradılmalıdır.

Çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Uşaq məsələləri şöbəsinin əməkdaşı Təranə Piriyeva uşaqların hüquqlarının müdafiəsinin yalnız müvafiq qurumların deyil, bütövlükdə cəmiyyətin məsuliyyəti olduğunu bildirib. O, uşaqların şəxsiyyət kimi formalaşmasında ailənin, təhsil müəssisələrinin və mədəniyyət ocaqlarının mühüm rolunu diqqətə çatdırıb.

Elm və Təhsil Nazirliyinin Uşaqların Müdafiəsi İdarəsinin məsləhətçisi Aytən Qarayeva isə çıxışında uşaqların hüquqlarının müdafiəsi, onların təhlükəsizliyinin təmin olunması, sağlam və hərtərəfli inkişafı üçün görülən işlərdən bəhs edib. O, hər bir uşağın hüquqlarının tanınmasının və qorunmasının vacibliyini vurğulayaraq bu istiqamətdə maarifləndirmənin əhəmiyyətini qeyd edib.

Çıxışlarda vurğulanıb ki, Azərbaycan Dövlət Kukla Teatrı uşaqların mənəvi tərbiyəsinə, dünyagörüşünün zənginləşməsinə və asudə vaxtlarının səmərəli təşkilinə xidmət edən tamaşaları ilə bu istiqamətdə öz töhfəsini verir. Teatr sənəti uşaqlarda dostluq, humanizm, mərhəmət və qarşılıqlı hörmət kimi dəyərlərin formalaşmasına mühüm təsir göstərir.

Sonda uşaq hüquqlarının qorunmasının, hər bir uşağa sevgi, diqqət və qayğı ilə yanaşılmasının vacibliyi bir daha diqqətə çatdırılıb.

Tədbirin bədii hissəsində uşaqlar teatrın repertuarında xüsusi yeri olan "Qoğal" tamaşasını izləyiblər. Kiçik tamaşaçıların böyük marağına səbəb olan səhnə əsəri rəngarəng obrazları, maraqlı hadisələr xətti və əyləncəli təqdimatı ilə yadda qalıb. Nağıl qəhrəmanlarının macəraları vasitəsilə uşaqlara dostluq, ehtiyatlılıq və düzgün seçim etmək kimi mesajlar çatdırılıb.

Z.FƏRƏCOVA,
"Azərbaycan"

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi 2027-ci il üzrə kiçik və böyük qrant müsabiqələrini elan edir

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi 2027-ci il üzrə kiçik və böyük qrant müsabiqələrini elan edir. Müsabiqələr üzrə QHT-lərin layihə təkliflərinə dair sənədlərin qəbuluna 2026-cı il noyabrın 20-də başlanacaq. Müraciət üçün son tarix 2026-cı il dekabrın 20-dir. Sənəd qəbulu bitdikdən sonra QHT-lərin təqdim etdiyi layihə təkliflərinə dair sənədlərin ekspertizası aparılacaq, layihələr təhlil ediləcək və qaliblər müəyyənləşdiriləcək. Layihələrdə innovativlik, problemlərə yeni və ya daha təkmil həllər təklif olunması, müvafiq tərəfdaşlarla, sahəvi qurumlarla və sosial media ilə əməkdaşlıq məsələləri, müvafiq sahədə strateji dövlət sənədlərinin (proqramlar, yol xəritələri, konsepsiyalar və s.) hədəflərinə töhfəyə dair ölçüləbilən nəticələr xüsusi diqqətdə saxlanılacaq.

Müsabiqənin nəticələri 2027-ci ilin I rübü ərzində elan olunacaq.
Müsabiqələr Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyun 2026-cı il tarixli 188 nömrəli Qərarına uyğun təşkil edilir.

Qrant məbləğlərinin yuxarı həddi və icra müddəti:
• *Kiçik qrant müsabiqələri üzrə: 30.000 manat (icra müddəti 6 ayadək);*
• *Böyük qrant müsabiqəsi üzrə: 70.000 manat (icra müddəti 9 ayadək).*

Müsabiqələr aşağıdakı mövzuları ehtiva edir:

I . Azərbaycançılıq: yad ideoloji təsirlərə qarşı ictimai səfərbərlik
(Azərbaycançılıq məfkurəsinin yad, zərərli ideoloji təsirlərə qarşı milli sipər kimi izahına, bu fəlsəfənin cəmiyyətdə vahid amal, həmrəylik, tərəqqi uğrunda birləşdirici, səfərbəredici qüdrətinə, milli ideya kimi dəyərinə, yüksək mədəniyyətli vətəndaş (insan) formalaşdırma missiyasının təhlilinə, ana dilinin saflığının qorunmasına, uşaqların və gənc nəslin milli ruhda tərbiyəsinə dair layihələrə üstünlük veriləcək);

II. QHT-lərin sosial media və süni intellekt bacarıqlarının inkişafı
(QHT-lərin sosial media platformalarında ictimai hesabatlılığının artırılmasına, süni intellekt alətlərindən düzgün və nəticəyönümlü istifadəsinə, cəmiyyətin rəqəmsal təhlükəsizliyinin qorunmasına dair maarifləndirici fəaliyyətinin gücləndirilməsinə, uşaqların zərərli informasiyalardan və asılılıqlardan müdafiəsinə dair valideyn və təhsilverənlərin sayıqlığının artırılmasına yönəlik layihələrə üstünlük veriləcək);

III. Regionlarda aqrar sahədə təşəbbüslər
(Aqrar sahədə resurs səmərəliliyinə, iqlim dayanıqlılığına və ekoloji tarazlığa əsaslanan inkişaf modelinin təşviqinə, məhsuldarlığın, əlavə dəyərin və ixracyönümlülüyün artırılmasına, innovasiya, insan kapitalının inkişafına yönəlik layihələrə üstünlük veriləcək);

IV. Ailə institutunun möhkəmləndirilməsi və sağlam, təhlükəsiz cəmiyyətin təşviqi
(Boşanmaların qarşısının alınması üçün ictimai təşəbbüslərin artırılmasına, ənənəvi ailə dəyərlərinin qorunmasına, erkən nikahlara və insan alverinə qarşı mübarizəyə, əhalinin sağlamlığının və təhlükəsizliyinin gücləndirilməsinə, azad edilmiş ərazilərdə sakinlərlə işə və məşğulluq üzrə bacarıqların artırılmasına dair təşəbbüslərə üstünlük verilir);

V. Beynəlxalq əhəmiyyətli təşəbbüslər (sərbəst)
(Müstəmləkəçiliyin bütün növ təzahürlərinə, islamofobiyaya, ayrıseçkiliyə qarşı mübarizəyə, mədəniyyətlərarası dialoqun təşviqinə, bu sahədə xarici QHT-lərlə birgə hesabatların hazırlanması və yayılmasına dair təşəbbüslərə, Azərbaycanın mina, itkinlər problemlərinə beynəlxalq səviyyədə diqqətin artırılmasına, Ermənistanın müharibə cinayətlərinin ifşasına və işğal dövründə Azərbaycan ərazilərindəki dağıdıcı fəaliyyətinə görə öhdəliklərinə, Qərbi Azərbaycanlıların Qayıdış Konsepsiyasından irəli gələn məsələlərə dair xarici ölkələrdə konfransların, beynəlxalq və regional təşkilatlarda yan tədbirlərin təşkilinə dair layihələrə üstünlük verilir)

Bu istiqamət üzrə QHT-lər koalisiya şəklində də iştirak edə bilər. Bu halda koalisiya minimum "1 yerli QHT (Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış) + 1 xarici QHT" formatına uyğun olmalı, koalisiyada əsas icraçı yalnız yerli QHT olmalıdır. Koalisiyanın yaradılması barədə üzv olan bütün yerli və xarici QHT-lər tərəfindən təsdiqlənmiş protokol (Azərbaycan və ingilis dillərində), koalisiyada təmsil olunan xarici təşkilatlar haqqında ətraflı məlumat (təmsil etdiyi ölkə, fəaliyyət sahəsi, təcrübəsi, saytı və s. digər məlumat mənbələri) təqdim olunmalı, koalisiyada iştirak edən QHT-lərin işçi heyətinin beynəlxalq formatda layihə idarəetmə təcrübəsi və imkanları olmalıdır. 1 QHT yalnız 1 koalisiyada təmsil oluna bilər. Koalisiya hər 2 müsabiqəyə (kiçik, böyük qrant müsabiqələrinə) layihələr təqdim edə bilər, bu halda müsabiqə tələblərinə cavab verən layihələrdən yalnız 1-i maliyyələşdiriləcək. Əsas icraçı QHT-nin özünün və ya koalisiyada xarici tərəfdaş qismində iştirak edən təşkilatın sahə üzrə beynəlxalq təcrübəsinin olması, təqdim olunan layihə ilə bağlı koalisiyada təmsil olunan xarici tərəfdaşdan dəstək məktubunun olması vacibdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyun 2026-cı il tarixli 188 nömrəli Qərarına uyğun olaraq müsabiqə üçün tələb olunan sənədlər:

• layihə təklifi;
• layihənin icra planı;
• layihənin xərclər smetası;
• layihənin büdcəsinin maliyyə əsaslandırılması;
• QHT-nin nizamnaməsi, qeydiyyat şəhadətnaməsi və hüquqi şəxslərin dövlət reyestrindən çıxarışının surəti;
• QHT-nin vergi uçotu haqqında şəhadətnaməsinin surəti;
• QHT-nin səlahiyyətli nümayəndəsinin şəxsiyyətini təsdiq edən sənədin surəti;
• maliyyə vəsaitinin köçürüləcəyi QHT-nin bank hesabı barədə məlumatlar;
• kiçik qrant müsabiqəsinə layihə təqdim edən QHT-nin son 3 (üç) il müddətində fəaliyyəti, həyata keçirdiyi layihələr, habelə proqramlar barədə azı 10 (on) fərqli məzmunda informasiyanın media subyektlərində yayılmasını təsdiq edən sənəd;
• böyük qrant müsabiqəsinə layihə təqdim edən QHT-nin son 5 (beş) il ərzində fəaliyyəti, həyata keçirdiyi layihələr, habelə proqramlar barədə azı 30 (otuz) fərqli məzmunda informasiyanın media subyektlərində yayılmasını təsdiq edən sənəd.

Aşağıdakı layihələr müsabiqəyə buraxılmır:
• məzmunu Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyun 2026-cı il tarixli 188 nömrəli Qərarı ilə ziddiyyət təşkil edən layihələr;
• Əvvəllər keçirilən müsabiqələrin nəticələrinə görə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilmiş eyni məzmunlu, plagiat layihələr;
• QHT-nin nizamnamə məqsədlərinə uyğun olmayan layihələr;
• Qrant müqaviləsi üzrə öhdəliklərini pozduğuna görə Agentlik tərəfindən müsabiqədə iştirak hüququndan məhrum edilmiş QHT-lərin layihələri;
• Agentliyin əvvəlki qrant müsabiqələrində qalib gələrək öhdəliyi yerinə yetirməyən və debitor borcu olan QHT-lərin layihələri.

Meyarlar:
Texniki ekspertizadan keçdikdən sonra layihələr aşağıdakı meyarlar üzrə 100 ballıq sistem üzrə qiymətləndirilir:
• layihənin məqsədinin aydınlığı;
• layihənin innovativliyi, problemlərə yeni və ya daha təkmil həllər təklif etməsi;
• layihənin icra müddətinin əsaslandırılması və davamlılığı;
• layihə büdcəsinin müvafiq fəaliyyətlərlə uyğunluğu;
• QHT-nin və işçi heyətin müvafiq layihə mövzusuna uyğun fəaliyyəti, peşəkarlığı və əvvəlki layihə təcrübəsi;
• layihə üzrə risklərin təhlili və səmərəli monitorinq mexanizmi;
• layihə üzrə benefisiarların düzgün müəyyən edilməsi;
• layihənin icrası zamanı müvafiq tərəfdaşlarla, sahəvi qurumlarla və media ilə əməkdaşlıq;
• layihədən gözlənilən nəticələr;
• layihənin müvafiq sahədə dövlət siyasətinə və qüvvədə olan müvafiq sahəni tənzimləyən normativ hüquqi aktlarla müəyyən edilən vəzifələrə, strateji sənədlərin (proqramlar, yol xəritələri, konsepsiyalar və s.) hədəflərinə töhfə verməsi.

Texniki tələblər:
• QHT-lər layihə təkliflərini Agentliyin saytında xüsusi bölmə vasitəsilə elektron qaydada təqdim edir (müvafiq bölmə 2026-cı il noyabrın 20-dən dekabrın 20-dək Agentliyin elektron xidmətlər portalında (e-ərizə bölməsi) aktiv olacaq);
• Şəxsən, poçtla və ya e-poçt vasitəsilə təqdim olunan layihə təkliflərinə dair sənədlər qəbul olunmur;

Əlaqə vasitələri:
Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, Yasamal rayonu, Hüseyn Cavid prospekti, 520-ci məhəllə, ev 20.
office@ngoagency.gov.az (+994 12) 493-15-81

OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

"Azərpoçt" MMC	*(012) 598-49-55, (051) 225-02-13*
"Azərmətbuatyayımı" ASC	*(012) 441-19-91, (050) 322-33-17*
"Qaya" firması	*(012) 566-77-80, (050) 214-40-53*
"Region Press" MMC	*(055) 316-79-01, (050) 316-79-01*
"Səma-M" MMC	*(012) 594-09-59*
"Ziya" LTD	*(012) 497-76-96, (050) 306-77-22*
"Pressinform" MMC	*(012) 598-49-52, (070) 340-01-00*
"City press" MMC	*(055) 819-09-26*

1 illik -156 (yüz əlli altı) **manat**
6 aylıq - 78 (yetmiş səkkiz) **manat**
3 aylıq - 39 (otuz doqquz) **manat**
1 aylıq - 13 (on üç) **manat**



Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

Paytaxt rayonlarında qarlı havalara hazırlıq tədbirləri başa çatıb

Qış mövsümünə hazırlıqla bağlı paytaxt rayonlarında təsdiq edilmiş tədbirlər planlarına uyğun mövsümə və xüsusilə qarlı havalara hazırlıq tədbirləri başa çatıb.



Şəhərin və rayon kommunal xidmətlərinin xüsusi təyinatlı texnikaları hazır vəziyyətə gətirilib, əlavə tədbirlər görülüb. Görülən işlərə nəzarət məqsədilə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən hər bir rayona cavabdeh şəxs təyin edilib.

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən verilən məlumata görə, paytaxtda qarlı havalara hazırlıq tədbirlərinin vəziyyəti məsələləri sonuncu olaraq Bakı şəhərinin Pirallahı, Səbail və Qaradağ rayonlarında müzakirə edilib. Müşavirələrdə Bakı Şəhər İcra Hakimiyyətinin məsul şəxsləri, rayon rəhbərliyi, kommunal-təsərrüfat və digər aidiyyəti qurumların rəhbərləri, həmçinin özəl sektorun nümayəndələri də iştirak ediblər. Müşavirələrdə hər bir sahənin rəhbərinin hesabatı dinlənilib.

Qeyd olunub ki, rayonlardakı hər bir təşkilat mövsümə hazırlıq tədbirlərinin həyata keçirilməsində fəal iştirak etməli və yağıntılar zamanı ərazilərin qardan və buzdan təmizlənməsi üçün müvafiq tədbirlər görməlidirlər. Qarın təmizlənməsi işlərinə kommunal qurumların texnikası ilə yanaşı, idarə, təşkilat, bələdiyyə və özəl qurumların da mövcud texnikalarının cəlb edilməsi qərara alınıb.

Eyni zamanda ictimai iaşə müəssisələrinin, özəl qurumların rəhbərlərinə və ictimaiyyət nümayəndələrinə özlərinə aid ərazilərin təmizlənməsində yaxından iştirak etməyə çağırış edilib.

"Azərbaycan"

Bilmək istəyirəm

Avtomobilimin texniki baxış müddəti noyabrın 30-da sona çatır. Yeni texniki baxış üçün nə vaxt müraciət etməliyəm? Gecikdiyim halda məni nə qədər cərimə gözləyir?

Qabil FƏRƏCLİ,
Sumqayıt şəhəri

- Sualınıza cavab olaraq bildiririk ki, qaldırdığınız məsələ həm inzibati qanunvericiliyin tələbləri, həm də sürücülərin gündəlik həyatı, büdcəsi və təhlükəsizliyi baxımından çox vacibdir. Odur ki, məsələyə peşəkar hüquqi mövqedən və qanunvericiliyin tələbləri çərçivəsində ətraflı şəkildə nəzər salaq.

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununun 30-cu maddəsinin II hissəsinə görə, nəqliyyat vasitələrinin sahibləri və ya nəqliyyat vasitələrinin texniki vəziyyətinə cavabdeh olan şəxslər texniki vəziyyəti dövlət standartlarının, yol hərəkəti qaydalarının tələblərinə uyğun gəlməyən, habelə müəyyənləşdirilmiş qaydada qeydə alınmamış, normativ tələblər pozulmaqla avadanlıq quraşdırılmış və ya avadanlığı dəyişdirilmiş və ya qanunla müəyyən edilmiş hallarda texniki baxışdan keçməmiş nəqliyyat vasitələrinin istismarına yol verməməlidirlər.

Həmçinin qanunun 30-cu maddəsinin VI hissəsinin tələbinə əsasən, növbəti texniki baxışın keçiriləcəyi gün müəyyən edilərkən müddətlər əvvəlki texniki baxışın keçirildiyi gündən hesablanır.

Avtomobilinizin texniki baxış müddəti 30 noyabrda bitirsə, bu o deməkdir ki, həmin tarixin sonuna qədər nəqliyyat vasitənizi müvafiq texniki baxış mərkəzlərinə aparmalı və ya elektron qaydada proseduru tamamlamalısınız. Nəzərə alın ki, 30 noyabr ayın son günüdür və ayın son günlərində mərkəzlərdə (müvafiq məntəqələrdə) uzun növbələrin, habelə gözlənilməz texniki nasazlıq riskinin mövcud olması qaçılmazdır. Odur ki, prosesi noyabrın 25-nə qədər tamamlamağınız həm vaxtınıza, həm də əsəblərinizə qənaət edəcək.

Məsuliyyət məsələsinə gəlincə, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununun 30-cu maddəsinin VI hissəsinin tələbinə əsasən, nəqliyyat vasitəsinin növbəti texniki baxışının keçiriləcəyi gündən 20 gün ərzində texniki baxışdan keçirilməməsi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

Göründüyü kimi, sizin avtomobilinizi texniki baxışdan keçirmədiyinizə görə məsuliyyətiniz texniki baxışın keçiriləcəyi gündən 20 gün sonra, yəni 20 dekabrdan sonra yaranır.

Əgər dekabrın 21-dən etibarən texniki baxışdan keçməmisinizsə, bu, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri ilə tənzimlənir. Belə ki, İnzibati Xətalar Məcəlləsinin 339.1-1-ci maddəsinə əsasən, nəqliyyat vasitəsini "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətdə texniki baxışdan keçirmədən idarə etməyə görə - 50 (əlli) manat məbləğində cərimə edilir.

Sürücülərin çox zaman yanıldığı əsas məqam budur: "Əgər avtomobili idarə etməsəm, qarajda saxlasam, cərimə yazılarmı?" Yol hərəkəti təhlükəsizliyinə nəzarət kameraları texniki baxış müddəti bitmiş avtomobil hərəkətdə olarkən avtomatik olaraq qeydə alır və sistem yol çəkilişində cərimə tətbiq edə bilir.

Bundan əlavə, unutmayın ki, texniki baxış vaxtı keçmiş avtomobillə hər hansı yol-nəqliyyat hadisəsi baş verərsə, sığorta şirkətləri ilə münasibətlərdə və ya hüquqi məsuliyyətin müəyyənləşdirilməsində əlavə mürəkkəbliklər yarana bilər. Sığorta ödənişlərində problemlərlə üzləşməmək üçün sənədlərin (icbari sığorta və texniki baxış) vaxtında yenilənməsi həyati əhəmiyyət daşıyır.

Sualı cavablandırdı:
Paşa SƏFƏROV,
Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü

"Qədər"ə dəxli olmayan qara statistika

Bu günlər Dövlət Statistika Komitəsi dəhşətli rəqəmlər açıqladı: cari ilin 9 ayı ərzində qeydə alınan avtoqəzalar nəticəsində 500 nəfər həyatını itirib, 640 nəfər müxtəlif dərəcəli bədən xəsarəti alıb.



Bu, 9 ayın statistikasıdır. Deməli, ilin sonunda həmin rəqəmlərin üstünə daha 3 ayın qara statistikası əlavə olunacaq. Allah bütün sürücüləri və sərnişinləri qorusun.

Bizdə geniş yayılmış bir deyim var: "Qədərdən qaçmaq olmaz". Lakin fikrimizcə, bunun avtoqəzalarla heç bir əlaqəsi yoxdur. Ən azından o səbəbə ki, qəzanın baş verməsində "qədər" yox, əsasən özümüz günahkar oluruq. Axı spirtli içki içərək sükan arxasına oturub qəza törətməyin "qədər"lə nə əlaqəsi var? Yaxud avtomobil idarə edərkən kiminləsə "mesajlaşmağ"ın ağır nəticələrini "qədər"in üzərinə atmaq nə dərəcədə doğrudur? Xüsusən də bu zaman avtomobildə ailə üzvlərin varsa.

Sərxoşluqdan, yaxud diqqətsizlikdən qəza törədib doğmalarının ölümünə səbəb olan şəxslərin sayı nə qədər desən var. Onların ömürlərinin sonuna qədər (təbii ki, sağ qalıblarsa) yaşadıqları peşmançılığın nə faydası?! Ən dəhşətlisi isə bu faciələrdən nəticə çıxarılmamasıdır. Biz gün ərzində avtoqəzalar nəticəsində neçə nəfərin ölməsi və yaralanması barədə məlumatlar oxuyuruq. Hətta o qədər ki, buna öyrəşmişik də. Halbuki bu qara statistikanın arxasında yarımçıq qalmış yüzlərlə insan ömrü var. Buna baxmayaraq, yenə də bizə dərs olmur - içib sükan arxasında otururuq, avtomobil idarə edərkən smartfonu əlimizdən yerə qoymuruq, zamanı qabaqlamaq üçün özümüzün və doğmalarımızın həyatı bahasına sürəti artırırıq, bir sözlə, əzrayılla çilingağac oynayırıq, o vaxtacan ki, bu "oyun"un qurbanına çevrilirik. Onda da gec olur, çünki bu "oyun"dan heç kim qalib çıxmayıb. Çıxsaydı, 9 ayda avtoqəzalarda 500 nəfər həyatını itirməzdi.

Rüstəm KAMAL,
"Azərbaycan"

Hava dəyişkən buludlu olacaq

Azərbaycanda bu günə olan hava proqnozu açıqlanıb.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi gündüz şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 10-14° isti, gündüz 16-20° isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunu, nisbi rütubət isə 65-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin axşam bəzi şimal və qərb rayonlarında arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, şimşək çaxacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 6-11° isti, gündüz 16-21° isti, dağlarda gecə 1-6° isti, gündüz 8-13° isti olacaq.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi şimal və qərb rayonlarında arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, şimşək çaxacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq, mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 6-11° isti, gündüz 16-21° isti, dağlarda gecə 1-6° isti, gündüz 8-13° isti təşkil edəcək.

ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Famil İsmayılova əzizi
HƏLİMƏ XANIMIN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Texniki Universitetinin rektorluğu, kollektivi və Həmkarlar İttifaqı Komitəsi universitetin rektorunun köməkçisi Nicat Əhmədova dayısı
ƏHMƏD HÜMBƏT OĞLU BAXŞƏLİYEVİN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı	- 539-68-71,	Beynəlxalq həyat, idman və informasiya şöbəsi	- 539-63-82, 432-37-68
Baş redaktor müavinləri	- 538-86-86, 538-35-55	Humanitar siyasət şöbəsi	- 538-56-60, 434-55-58
Məsul katib	- 539-43-23,	İctimai əlaqələr şöbəsi	- 539-49-20, 538-31-11,
Məsul katib müavinləri	- 539-44-91,	Kompüter mərkəzi	- 538-20-87,
Parlament və siyasət şöbəsi	- 539-84-41, 539-21-00,	Mühasibatlıq	- 539-59-33
İqtisadiyyat şöbəsi	- 538-42-32		

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3292
Sifariş 1519

Qiyməti 60 qəpik